# Mənim ardımca gəlin

## Müəllimlər üçün vəsait

İkinci beynəlxalq nəşr, 2017

Come Follow Me

**Tim Qrin**

İkinci nəşri come-follow-me.org saytından götürə bilərsiz.

Müəlliflik hüququ © Tim Qrin 2014, 2017. Bütün hüquqlar müdafiə olunur.
Lakin "Müəllimlər üçün vəsait" şəxsi istifadə üçün çap və istifadə edilə bilər.

## *Oxuculardan xahiş*

"Müəllimlər üçün vəsait" "Mənim ardımca gəlin" kursunun ikinci buraxılışıdır. Bir çox adamın şərhləri və məsləhətləri nəticəsində təkmilləşdirilmişdir. Təklifiniz və ya rəyiniz varsa, lütfən, bu kitabın sonunda verilən vərəqdə fikrinizi bildirin.

Bu kurs müsəlman dünyasından olan nümunələrdən, şəhadətlərdən, həyatda baş vermiş hadisələrdən, şeir və şəkillərdən ibarətdir. Lütfən, gələcək kursların hazırlanmasında kömək göstərmək məqsədilə müsəlman keçmişi olan imanlılara aid faydalı materialları bizə göndərin. Bunlar Qərb ölkələrindən, yaxud müsəlman ölkələrdən ola bilər. Həmçinin veb materiallarını da bizə göndərin; bunlara dərsliyi əvəz edən video daxildir.

"Mənim ardımca gəlin" dərsliyindən başqa, BMB şagirdlik proqramı üçün veb-saytda çoxlu material yerləşdirilib (www.bmbtraining.org). Müəllimlər üçün dərsliyin ikinci hissəsi (B) bu saytdan əldə edilə bilər: come-follow-me.org.

**Çox sağ olun.** **Tim Qrin** **comefollowmecourse@gmail.com**

Bütün ayələr Müqəddəs Kitabın Azərbaycan dilinə tərcüməsindən götürülüb. Müəlliflik hüququ © 2008, Kitab Şirkəti. Ayələr icazə ilə istifadə olunub.

Dərsliyin üz qabığındakı şəklin müəllifi David Vosburg. www.zagmediaarts.com

## Minnətdarlıq

Bu layihədə məni ruhlandıran, təkliflər edən və mənim üçün dua edən bütün yoldaşlarıma minnətdarlığımı bildirirəm. Bir çox adam "*Mənim ardımca gəlin*" dərsliyinin hazırlanmasında xeyli kömək göstərib, onlara minnətdarlığımı həmin dərslikdə bildirirəm. Onlardan bəziləri (məsələn, Syu və Reyçel) "Müəllimlər üçün vəsait"ə aid dəyərli məsləhətlər veriblər; Skott və Malkolm da bunlara aiddir.

Jeykob yaradıcı ideyalarla çox dəstəklədi, xüsusilə də mədəniyyətə aid nümunələrlə. Bunlar müsəlmanların dünyagörüşünü, mədəniyyətini izah etməyə və ilk nəşrin hazırlanmasında çox kömək etdi. İkinci buraxılış üçün Penni dərslərə aid göstərişləri uyğunlaşdırmağa başladı; Jen bu işi davam etdirdi, bir çox yeni ideyalarla materialları zənginləşdirdi və kitabı çapa hazırladı.

Ailəmə, xüsusilə də həyat yoldaşım Reyçelə minnətdaram. İllər boyu onunla birlikdə, İslamdan Məsihə gələnlərin sevincinə və dərdinə şərik olmuşuq. İsanın ardınca onlar uzun və tənha yol gediblər. On il əvvəl başladığım bu layihəni tamamlamaqda Reyçelin böyük köməyi olub. O, məni dəstəkləyib, yoxlama işlərində fəal iştirak edib.

Hamınıza böyük "çox sağ ol!" deyirəm.

# Lütfən əvvəlcə bunu oxuyun

"*Mənim ardımca gəlin*" kursu keçmişdə müsəlman olan, indi isə yenicə İsa Məsihin davamçıları olanlar üçündür. Kursun məqsədi Məsihdə və Onun cəmiyyətində böyüməkdə dəstək göstərməkdir.

«*Mənim ardımca gəlin*» kursu üç hissədən ibarətdir:

1. Tələbələr üçün vəsait. Ev tapşırıqları və müzakirələrə hazır olmaq üçün nəzərdə tutulur;
2. "Müəllimlər üçün vəsait" müzakirələrdə rəhbərlik etmək üçün;
3. Ey müəllim! Kitab insanı şagird etmir. İnsanı şagird edən başqa şagirddir.

Allahın əli üstünüzdə olsun. Siz yeni imanlının həyatına böyük təsir göstərə bilərsiz. Onlara məsləhətçi, müəllim, dost, nümunə ola bilərsiz, onları ruhlandıra və onlar üçün dua edə bilərsiz. "Mənim ardımca gəlin" kursu şagirdlik münasibətlərində istifadə üçün nəzərdə tutulan bir alətdir. "Müəllimlər üçün vəsait" sizə bir və ya bir neçə imanlı ilə işləməkdə uğurlu olmaqda kömək edəcək.

"Müəllimlər üçün vəsait" iki hissədən ibarətdir. Birinci hissədə, lütfən, beş dəqiqənizi sərf edərək «Kursa aid istifadə qaydaları»nı oxuyun. Bu, vacibdir, çünki dərs üslubu və kontekst sizin üçün yeni ola bilər. Bundan sonra birinci hissənin digər hissələrini də oxuyun. «Mədəniyyətə aid nümunələr» fəslində müsəlman dünyası ilə tanış olmayanlara dəyərli göstərişlər verilir. Bunları hər həftə oxumağı sizə məsləhət görürük, çünki onlar dərslərə görə bölünür.

İkinci hissə hər dərsə aid təfsilatlı göstərişlərdən ibarətdir. Buraya müzakirə sualları və təfsilatlı göstərişlər daxildir. Məqsəd İslam ilə tanış olmayanlara və müzakirə suallarını verməkdə təcrübəsiz olanlara kömək göstərməkdir. Hər iki sahə sizə tanışdırsa, təfsilatlı göstərişlərə ehtiyac duymaya bilərsiz. Lakin müzakirə üçün sualları hazırlayarkən ilk mərhələdə onlardan istifadə edə bilərsiz.

Hər halda, lütfən, kursda verilən "müzakirə sualları"na və "şəxsi cavab" üçün nəzərdə tutulan hissələrə mütləq diqqət yetirin.

Bilik kifayət deyil. Bu kurs yeni imanlılara üç sahədə dəyişməkdə kömək göstərir:

- «baş» – Allahın Kəlamına əsaslanaraq, dünyagörüşü yeniləşir;
- «ürək» – hisslər, niyyətlər və münasibətlər yeniləşir;
- «əllər» – hər həftə üçün nəzərdə tutulan ev tapşırığı həqiqəti tətbiq etməkdə kömək edir.

"Müəllimlər üçün vəsait" bizim saytdan pulsuz əldə edilə bilər, çap oluna bilər və ya şəxsi istifadə üçün paylana bilər: come-follow-me.org.

Çox sağ olun! Tim Qrin comefollowmecourse@gmail.com

**Çox sağ olun. Tim Qrin comefollowmecourse@gmail.com**

# Mündəricat

## Birinci hissə: Ümumi qaydalar


| Mövzu | Səhifə |
|---|---|
| Bu kursdan necə istifadə etməli | 2 |
| Hər dərsi necə aparmalı | 5 |
| Qrupda müzakirəyə necə rəhbərlik etməli | 8 |
| Müsəlman terminləri və mədəniyyətinə aid məsələlər | 11 |
| Tez-tez verilən suallar | 12 |
| Rəyinizi yazın! | 13 |
| Mədəniyyətə aid nümunələr | 14-25 |


## İkinci hissə: Dərsə aid göstərişlər


| Dərs | | Səhifə |
|---|---|---|
| Birinci görüş | | 28 |
| 1 | Məsihin davamçısı olmaq barədə | 30 |
| 2 | Məsihdə yeni həyat | 32 |
| 3 | Ata Allah | 34 |
| 4 | Müqəddəs Ruhun qüdrəti ilə Məsihə itaətli olmaq barədə | 36 |
| 5 | Allah ilə ünsiyyət | 38 |
| 6 | Bizə verilən Allah Kəlamı | 40 |
| 7 | Məsihin cəmiyyətinin üzvləri | 42 |
| 8 | İki cəmiyyətin üzvləri | 44 |
| 9 | Təqibin səbəbləri | 46 |
| 10 | Təqibə münasibət | 48 |
| 11 | Ərlər və arvadlar | 50 |
| 12 | Mübahisəli məsələlərin həlli | 52 |
| 13 | Şəhadət etmək barədə | 54 |
| 14 | Vəftiz | 56 |
| 15 | Doğru yol | 58 |
| 16 | Məhəbbət qanunu | 60 |
| 17 | Oruc və nəzir | 62 |
| 18 | Tale və falçılıq | 64 |
| 19 | Bir-birimizə xidmət haqqında | 66 |
| 20 | Səmaya zəvvarlıq | 68 |
| Əlavə: Əzbər ayələrin cədvəli | | 70 |

# Birinci hissə:
# Ümumi qaydalar

# Bu kursdan necə istifadə etməli

*Lütfən, bu bölməni oxuyun. Bu, sizə kursdan tam faydalanmaqda kömək edəcək.*

### Bu kurs kim üçün nəzərdə tutulur?

Bu kurs keçmişdə müsəlman olan Məsihin davamçıları və ya Məsihi qəbul etməyə yaxın olanlar üçün nəzərdə tutulur. Bu kurs onlara şagird olmaqda kömək edəcək. Həmçinin bu kursdakı müsəlman mədəniyyətinə aid məlumat yetkin imanlılara da faydalı ola bilər.

### Dərslikdə hansı üslubdan istifadə edilir?

Bu kurs müstəqil öyrənmək üçün deyil, qrup üçün nəzərdə tutulmur. Kursun üslubunun məqsədi bunlardır:

1. ev tapşırıqlarını müstəqil öyrənərək, dərslikdən faydalanmaq;
2. həftədə bir dəfə müzakirə vaxtı sizinlə və başqaları ilə ünsiyyətdə olmaq;
3. öyrənilən həqiqətləri gündəlik həyatda tətbiq etmək.

Daha təfsilatlı:

- «Ev tapşırığı» fəal öyrənməkdən ibarətdir. Şagirdlər hər dərsdən sonra nə isə etməlidirlər:
  - Bəzi suallar tələbələrə oxuduqlarını yadda saxlamağa kömək edir;
  - Bəzi suallar onlara təlimi anlamağa və tətbiq etməyə kömək edir;
  - Bəzi suallar onlara öz münasibətlərini yoxlamağa və bu barədə Allahla danışmağa kömək edir;
  - Bəzi suallar onlara müzakirə vaxtı təcrübə ilə bölüşməyə kömək edir;
  - Şəkil və nümunələr tələbələrə Allahın Kəlamını həyatdakı təcrübəyə aid etməyə kömək edir.
- Müzakirə – mövzunu canlandırır və həyata aid edir. Tələbələr öz fikrini söyləyir, digərlərinə qulaq asırlar. Bu, köhnə münasibətləri pozur və yeni niyyətlər yaradır.
- «Ev tapşırığı» tələbələrə növbəti dərsdən əvvəl nəyi isə etmək imkanını verir. Bu, dərsi nəzəriyyədən həyatımızın bir hissəsinə keçirir.

### Fərdi imanlılar, yaxud qrup üçün nəzərdə tutulur?

Bu kurs hər iki halda istifadə edilə bilər, hər birinin üstün və zəif cəhətləri var. Bunu tələbələrin sayı müəyyən edir. Mümkünsə, kiçik olsa da, kursu qrupda keçin; bu, onların münasibətlərini möhkəmləndirəcək, müzakirəyə rəhbərlik etməkdə onların təcrübəsini artıracaq. Fərdi imanlıları da öyrətmək vacibdir. Lakin iki nəfərin arasında keçirilən müzakirə bir istiqamətli ola bilər. Yaxşı olar, siz sualı, onlar isə cavabları versinlər. Buna görə də çalışın, onlar təcrübə ilə bölüşsünlər və siz birlikdə Allahın Kəlamından və bir-birinizdən öyrənəsiz.

«Müəllimlər üçün vəsait»də biz adətən «tələbələrə» müraciət edirik, bir tələbəni və ya qrupu nəzərdə tuturuq. Müzakirə üçün suallar qrup və ya bir tələbə üçün istifadə edilə bilər. Bəzi tapşırıqlar isə qrup üçün nəzərdə tutulur.

### İyirmi dərsi fasiləsiz keçmək lazımdırmı?

Mütləq deyil. Fasiləsiz iyirmi həftə çox uzun kursdur! Beləliklə, kursu iki hissəyə bölə bilərsiz. Yaxud yalnız tələbələrinizə aid dərsləri seçin.

### Müzakirə vaxtı necə olmalıdır?

Dəqiq göstəriş verilmir. Siz onları istədiyiniz kimi keçirə bilərsiz, lakin yaxşı olar, müzakirə vaxtı 1½ saat davam etsin (çay daxil olmaqla). Müzakirə vaxtı bunları özündə birləşdirməlidir:

- Çay və söhbət (əvvəldə və ya sonda)
- Dua ilə başlamalıdır
- Ötən həftənin ev tapşırığına nəzər salmalı
- Bu həftənin ev tapşırığına nəzər salmalı
- Dərsə aid seçilmiş sualların müzakirəsi
- Müqəddəs Kitabın mətninə aid müzakirə
- Bəzən qısa video və ya bir məşğələ
- Ayəni əzbər söyləmək
- Dua ilə bitirmək. Fərdi dua ehtiyaclarını daxil etmək

*Müzakirə vaxtı dərslikdəki materialı keçməyin. Bu, maraqsız olur. Hər halda, müzakirəyə gəlməzdən əvvəl tələbələr dərsi artıq keçməlidirlər. Buna görə də siz bütün dərs keçməməlisiz. Dərsin mövzusunda vəz də etməməlisiz. Bundansa, müzakirə vaxtı tələbələrin həyatını dəyişən təcrübi məsələlərə toxunun.*

### Bu kurs Müqəddəs Kitaba əsaslanırmı?

Bəli, tam əsaslanır. Kursun əqidəsi budur: Müqəddəs Kitab Allahın Kəlamıdır və Məsihin davamçıları olan bizlər (tələbələr və məsləhətçi) Kəlamı dərk etməli və itaət etməliyik. “Mənim ardımca gəlin” kursu Peterin Birinci Məktubu üzərində tərtib olunub. Təqibdə olan yeni imanlılar üçün yazılıb.

Bu kursun əsasında duran Peterin Birinci Məktubudur (bəzi ayələr buraxılsa da); əvvəldən axıra qədər tədqiq olunur. Keçmişi müsəlman olan yeni imanlılara bu iyirmi mövzu çox vacibdir. Bu mövzular Müqəddəs Kitabın başqa hissələrində olan mövzularla əlaqələndirilir.

Mövzunu yekunlaşdırmaq məqsədilə hər dərsdə bir ayə əzbər verilir. Bu ayələr 1Peter və digər kitablardandır. Sizə rahat olsun deyə, biz ayələri “Müəllimlər üçün vəsait”in sonunda verilən Əlavədə toplamışıq. Əzbərləməyi asanlaşdırmaq üçün qısa ayələri və ya uzun ayələrin bir hissəsini seçmişik.

### Dərslik nə üçün bu qədər sadədir?

Bu dərslik yazılanda az ali təhsilli adamlar üçün nəzərdə tutulmuşdur. Buna görə də sadə mətndən, aydın nümunə və şəkillərdən istifadə olunur. Lakin mövzular sadə deyil. Bu, dərslərdə müzakirə vaxtı mövzunun dərinliklərinə getməyə imkan yaradır, dünyagörüşünü dəyişir, təcrübədə şagird olmağa istiqamətləndirir. Aydın nümunələr müzakirəni və tətbiqi asanlaşdırır. Həmçinin bu kurs vasitəsilə şagirdliyi öyrənən şəxs digərlərini də şagird edə bilər. Nəticədə şagirdlərin sayı artır.

### Müəllimlər üçün bu vəsait nə üçün belə təfsilatlıdır?

Bu kurs müxtəlif məsləhətçilərə kömək göstərmək məqsədilə tərtib olunub. Bəzilərinə müzakirə üçün sualları seçmək üçün daha çox kömək gərəkdir, digərlərinə isə yalnız mədəniyyətə aid məsləhətlər gərəkdir. Müzakirə üçün suallara aid rəy vermək imkanını da təklif edirik. Təcrübəli məsləhətçilərə bu lazım deyil, lakin bütün materialdan sizə lazım olanı seçə bilərsiz.

Hər həftə müzakirə ediləcək sualların sayı həddindən çoxdursa, tələbələrinizə aid olan sualları özünüz seçin. Lakin, lütfən, «müzakirə üçün» və ya «şəxsi cavab» başlığı altında olan sualları mütləq müzakirə edin.

### Hər şagirdə dərslik gərəkdirmi?

Bəli, məsləhətçiyə də gərəkdir. Bunları bizim veb-saytımızdan əldə edə bilərsiz: come-follow-me.org.

# Məsləhətçinin vəzifəsi

### Kitab özü müəllimdir



Kitab təlimi çox sadə yol ilə təqdim edir. Sadə suallar verilir, hər dərsin sonunda cavablar təqdim olunur. «Müəllim»in şəkli tələbələrə əsas bəndləri xatırladır. Bu, sizin işinizi asanlaşdırır, çünki siz özünüz dərsi yazmamalısınız. Müzakirə vaxtı vəz etməməlisiniz. Əksinə, bu kitabda verilən təlimi tədqiq edib həyatda tətbiq etməkdə tələbələrə kömək etməlisiniz.

### Həm müəllim, həm də dost

Tələbələr sizi müəllim hesab edirlər. Siz onlar üçün nümunə, məsləhətçi və dostsunuz. Onlar sizə diqqət yetirəcək. Sizin nümunəniz bilikdən daha vacibdir. Bir Əfqan imanlı demişdi: "*Müqəddəs Kitabın dərslərində mən... məni şagird edən şəxsi tədqiq edirdim*".

Yadda saxlayın ki, tələbələr uşaq deyil, böyüklərdir. Onların həyat təcrübəsi var və bu təcrübə ilə onlar qrupda bölüşə bilərlər. Buna görə də müzakirə vaxtı onlara çoxlu suallar verin. Onların fikrini öyrənməyə çalışın, təcrübələri ilə bölüşməyi xahiş edin. Düşünməyi öyrənməkdə onlara kömək edin. Hər həftə ev tapşırıqlarını yoxlayın. Onlara yaxşı nümunə olun. Onların qeydinə qalın. Onlar üçün dua edin. Sevinc və kədərlə bölüşün. Çətinlikdə saleh münasibət göstərməkdə onlara kömək edin.

Dostlarınızla dərsdən kənar vaxt görüşün. Onları nahara dəvət edin və ya maraqlı bir yerə gedin. Birlikdə vaxt keçirin, adi işlər görün. Sizin hərəkətlərinizi, cavablarınızı görüb götürəcəklərinə təəccüb edəcəksiz. Çətinlikdə davranışınızı, başqalarını bağışladığınızı, vərdişlərinizi, ailə həyatınızı müşahidə edəcəklər, sizdən nümunə götürəcəklər.

### İnsanı şagird edən başqa şagirddir

Dərslik insanı şagird etmir. İnsan əsl şagirdliyi digər şagirddən öyrənir. Vaxtilə kimsə sizə şagird olmaqda kömək etdi. İndi isə sizin növbənizdir, kiməsə böyüməkdə kömək edin. Bu günlərdə əvvəlkindən daha çox müsəlman İsanı qəbul edir. Lakin şagird hazırlanmasa, təkcə Müjdənin barı az olur. Rəbb sizdən Öz həmkarı kimi istifadə etsin, İslamdan İsa Məsihə gələn adamlar və ailələrində bol məhsul olsun!

# Hər dərsi necə aparmalı

**Hər görüşdən əvvəl:**

1. Ən azı görüşdən iki gün əvvəl dərsi özünüz hazırlayın, sanki tələbə siz özünüzsünüz. Bütün suallara cavabları yazın. Sualların birini belə, cavabsız qoymayın.
2. Dərsin məqsədlərini oxuyun. Hər dərsin əvvəlində məqsədlər verilir. Məsələn, 9-cu dərsə aid məqsədlər bunlardır:

<table>
<tr><th colspan="2">9-cu dərs: Təqibin səbəbləri</th></tr>
<tr><td rowspan="2">Hər bir şagirdə aid məqsədlər:<br>a. Bizi heç nə Allahın məhəbbətindən ayıra bilməz. Buna əmin olmaq vacibdir.<br>b. Təqiblər mütləq olacaq, lakin Allah bunu bizim xeyrimizə istifadə edir. Bunu anlamaq vacibdir.<br>c. Müdrik hərəkət etməyi və nahaq yerə təqib olunmamağı öyrənmək vacibdir.<br>d. 1Peter 2:21-i əzbərləmək vacibdir.</td><td>Mədəniyyətə aid nümunələr:<br>• Təqibdə olan yeni imanlıya məsləhət vermək</td></tr>
<tr><td>Hazırlıq görün: Romalılara 8:36 yazılmış vərəqləri hazırlayın (12-ci sual üçün).</td></tr>
</table>

Məqsədlərdə bu həftəyə aid təcrübi tapşırıqlar verilir:

- «əmin olun» – münasibətdir.
- «anlayın» – bilikdir;
- «müdrik hərəkət etməyi öyrənin» – həyatda tətbiq olunan bacarıqdır;
- «əzbərləyin» – Allahın Kəlamını ürəyimizə və həyatımıza gətirir.

3. Sonra, bu dərsə aid göstərişləri oxuyun. Sizə təfsilatlı göstərişləri vermişik. Sizin tələbələrinizə aid müzakirə üçün suallarını seçin. Daha sonra, təcrübəli olduqca, müzakirə üçün sualları özünüz tərtib edin. Bunları tələbələrin ehtiyaclarına və dərsin məqsədinə uyğun etmək gərəkdir.
4. Dərsə aid «Mədəniyyətə aid nümunələr»i oxuyun. Xüsusilə, müsəlman mədəniyyəti ilə tanış deyilsinizsə, bunları oxumaq vacibdir.
5. “Hazırlıq görün” bölməsində verilən əşyaları hazırlayın.
6. Nəhayət, qrupdakı tələbələrin hər biri üçün dua edin. Yaxşı məsləhətçi olmağınız üçün Allahdan kömək istəyin.

## Hər görüş vaxtı

1. Gələn adamları salamlayın. İstəsəniz, su və çay təklif edin.
2. «Dərsin əvvəlində» bölməsində verilmiş məsləhətlərə riayət edin. Məsələn, 9-cu dərsə aid:

| Dərsin əvvəlində |
| --- |
| **Dərs üçün dua edin. Ötən həftənin ev tapşırığını təkrarlayın:** Cəmiyyətimizi, ehtiyacda olan insanı, səlahiyyətli şəxsi dəstəkləyərək nə etdiniz? O şəxs necə cavab verdi?<br>**9-cu dərsin sonundakı İCMAL bölməsində cavabları yoxlayın:**<br>**1-ci sual:** Ayənin mənası: Məsih bizim üçün nümunədir (1Peter 2:21).<br>**2-ci sual:** 1) dünya, nifrət edir; 2) Allah təqibə yol; 3) axmaq hərəkət; 4) Məsihin izi ilə.<br>**Bugünkü mövzunu söyləyin:** Bugünkü mövzu təqibdir. Bu, ağır mövzudur. Bəlkə də, yaşadığımız əzablar səbəbindən müzakirə vaxtı göz yaşları olacaq. Lakin Allah təqibi xeyrə çevirir; bu barədə danışarkən, O, bizim yaramıza şəfa verə bilər. |

«Ötən həftənin ev tapşırığına nəzər salmaq» vacibdir. Bu, tələbələrə həqiqətin həyatda tətbiqinin vacib olduğunu göstərir. Həmçinin bu sizə onların şagird kimi böyüməsini və yaşadıqları çətinlikləri göstərəcək. Sadəcə, tələbələrdən xahiş edin ev tapşırığı barədə məlumat versinlər. Ötən həftənin mövzusunu təkrar müzakirə etməyin, çünki bu həftənin mövzusu başqadır.

«Ev tapşırığını yoxlamağın» məqsədi tələbələri öhdəçi etmək və əsas bəndləri yadda saxladıqlarına əmin olmaqdır. Kurs qeyri-rəsmidirsə, tələbələrdən xahiş edin, kitablarını bağlayıb suallara şifahi cavab versinlər. Kurs rəsmidirsə və cavablara görə qiymət verilirsə, “Dərsə aid yoxlama işi”nin surətini çıxarın və hər tələbədən yazılı tərzdə cavab verməyi xahiş edin (kitablar bağlı olmalıdır). Sonra onların cavablarını özünüz qiymətləndirə bilərsiz və ya tələbələrdən xahiş edin bir-birinin yazısını yoxlayıb qiymətləndirsinlər.

3. Sonra müzakirəni davam etdirin, əvvəlcədən seçdiyiniz müzakirə üçün suallardan istifadə edin. Vaxtınız azdırsa, ən azı, «müzakirə üçün» və ya «şəxsi cavab» başlığı altında verilən sualları müzakirə edin. Qrupda müzakirə üslublarında təcrübəli deyilsizsə, «Qrupda müzakirəyə rəhbərlik» adlı vəsaiti oxuyun. Müqəddəs Kitabın tədqiqinə aid suallar Müqəddəs Kitabın şəkli ilə qeyd olunur, məsələn,



### 1Peter 1:3-7-ni oxuyun



- 4-cü ayəyə görə, mirasımız haradadır? Səmada
- Miras “çürüməz, ləkəsiz, solmaz”dırmı? Bəli, yer üzündəki mirasa bənzəmir!
- 5-ci ayəyə görə, biz nə ilə qorunuruq? Allahın qüdrəti ilə

4. Bir məsləhətçi kimi, siz çox danışmalı deyilsiniz. Əksinə, daha çox tələbələr danışmalıdırlar. Buna görə də dərslikdən bir cümlə və ya Müqəddəs Kitabdan bir ayə oxumaq lazım olanda, siz deyil, tələbə oxusa, daha yaxşı olar.

5. Müzakirə üçün sualların bəzi cavabları sizə kömək üçün artıq verilir (yuxarıdakı nümunədə gördüyünüz kimi). Lütfən, özünüz cavab verməzdən əvvəl tələbələrə cavab verməyə şərait yaradın. Məsələn, heç kim cavab verə bilmirsə, sualı təkrarlayın və ya düzgün ayəyə işarə edin. Sizə verilən cavablarla bərabər, həmçinin dərsdə kömək edəcək məlumat da daxildir. Məsələn:

**17-ci sual:** İkinci paraqrafı oxuyun.

- Bu sual barədə nə fikirləşirsiz? Cavabın *«düzgün» və ya «səhv» olması şəraitdən asılıdır. Həyatı təhlükədə olan bir adam bəzən köçməlidir. Lakin təhlükə yoxdursa, vəziyyət düzələnə qədər evində sakit yaşamağa çalışmalıdır.* İsa Məsihin davamçısı olsa da, öz ailəsinə sədaqətini göstərməlidir.

6. Bəzi dərslərdə biz məşğələlərə aid təkliflər veririk və ya qısa videoya baxmağı məsləhət edirik. Bunlar top

şəkli ilə işarələnir (sola bax). Bu məşğələlər üçün hazırlıq görmək lazımdırsa, “hazırlıq” bölməsində qeyd olunacaq. Dərsə aid başqa video və ya məşğələ barədə bilirsinizsə, lütfən, bizə də xəbər verin.

7. Nəhayət, dərsin sonuna aid addımlara riayət edin. Məsələn, 9-cu dərsə aid məsləhətlər bunlardır:

| ***Nəticə*** | |
|---|---|
| **Bugünkü təlimə riayət edin:**<br>• Bugünkü təlim həyatınızı necə dəyişdi?<br>• **Ev tapşırığını birlikdə oxuyun.** Tələbələr bugünkü mövzunu təkrarlayaraq gündə bir ayə üzərində düşünə bilərlər. | **Birlikdə dua edin:** Adamlardan qısa dualar etməyi, təqib zamanı Allahın köməyinə görə şükür etməyi xahiş edin. Digər ölkələrdə, xüsusilə də müsəlmanlar arasında təqib olunan imanlılar üçün dua edin. |

## Görüşdən sonra

1. Qrup üzvlərinə qiymət verilirsə və ya dərsə gəldikləri qeyd olunursa, bunları qeyd edin. Yaxşı olar, növbəti işlər üçün də qiymət verilsin:

a) Ev tapşırığının yerinə yetirilməsi (xüsusilə, qrup müzakirəsinə aid suallar), b) Müzakirədə iştirak. Bəzi hallarda bu, tələbələrə kursa daha məsuliyyətlə yanaşmaqda və daha çox faydalanmaqda kömək edir. Digər vəziyyətlərdə isə dərsləri qeyri-rəsmi keçirmək daha yaxşıdır.

2. Müzakirəyə rəhbərlik etməyinizi qiymətləndirin. Özünüzə bu dörd sualı verin:

- “Çox danışdımmı?”
- “Sakit və utancaq tələbələrə danışmaq imkanı verildimi?”
- “Müzakirəyə aid suallarım aydın və yaxşı idimi?”
- “Dərsin məqsədləri yerinə yetdimi və həyatımız üçün təcrübi oldumu?”

Təcrübədən öyrənin və növbəti dərslərdə zəif cəhətlərinizi düzəltməyə çalışın.

3. Həftə ərzində tələbələr üçün dua edin.

# Qrupda müzakirəyə necə rəhbərlik etməli

*Müzakirəyə rəhbərlik etməkdə təcrübəli deyilsinizsə, bəzi məsləhətlər bunlardır:*

- Özünüz çox danışmayın! Suallar verin, mühazirə oxumayın. Yaşda yetkinlər bu yolla daha yaxşı öyrənirlər və belə öyrənməkdən daha çox zövq alırlar. Yaxşı suallar:

  - aydın olmalıdır

  - dərsə aid olmalıdır

  - müzakirəyə şərait yaratmalıdır («bəli» və ya «xeyr» cavabı ilə müzakirəni susdurmamalıdır)

- Hər tələbəyə müzakirədə iştirak etmək imkanını verin. Çox danışan adamlardan başqalarına imkan verməyi xahiş edin. Utancaqlara sadə sual verməklə kömək edin (başqalarını onun əvəzinə cavab verməyə qoymayın).

- Qrup üzvləri sualı başa düşməyəndə cavab verməyin, lakin eyni sualı başqa cür verin.

- Müzakirəni mövzudan uzaqlaşmağa qoymayın.

- Tələbə «səhv» cavab verirsə və ya müzakirəyə mane olursa, onu pərt etməyin. Əksinə, başqa tələbələrin fikirləri ilə maraqlanın. Adətən, onlar daha yaxşı cavab verəcəklər. Yaxud siz belə deyə bilərsiz: «İştirakınıza görə çox sağ olun, çox gözəldir. Bəs, bu barədə fikirləşmisinizmi?»

- Hər dərsin təcrübi hissəsinə diqqət yetirin ki, hər tələbə həyatda tətbiq edə biləcəyi bir həqiqətlə evə getsin.

- Tələbələrə sual vermək imkanını yaradın. Cavabı bilmirsizsə, onlara növbəti görüşə cavabı tapıb hazırlayacağınızı söyləyin. Onlar düzgünlüyünüzü görüb sizə hörmət edəcəklər. Söz verdinizsə, yerinə yetirin və növbəti dərs cavabı hazırlayın.

- Müqəddəs Kitabdan ayəni və ya dərslikdən bir cümləni ucadan oxumaq lazım olanda bunu tələbədən xahiş edin. Onda tələbələr daha fəal olacaqlar. Bu, utancaq tələbələri danışdırmaq üçün yaxşı imkandır.

- Müzakirə bir neçə dildə gedirsə, eyni ayəni bir neçə dildə oxumağı xahiş edə bilərsiz və ya siz öz dilinizdə oxuyun, sonra isə tələbələr öz dillərində oxuya bilərlər.

# Yeni imanlıları necə şagird etməli

*Bu sahədə təcrübəniz azdırsa, yaxud Qərbdə yaşayırsızsa, bu səhifələri oxuyun.*

İsa Məsih bizi bütün mədəniyyətlərdən olan adamları şagird etməyə çağırır. Hərçənd, biz onları qərbli məsihçi etməməliyik. Hər bir mədəniyyətdə yaxşı və pis cəhətlər var. Qərbdən və ya Şərqdən olduğumuza baxmayaraq, hamımız imkan verməliyik ki, Allahın Kəlamı mədəniyyətdən gələn maneələri aradan qaldıraraq nur saçsın. Məsələn, Qərb, yoxsa Şərq dəbdə geyim «Müqəddəs Kitaba daha uyğundur»? Əl, yoxsa çəngəl və bıçaqla yemək? Dua edəndə əllərimizi birləşdirməliyik, yoxsa yuxarı qaldırmalıyıq? Fərdiyyətçilik və ya cəmiyyətdə həyat düzgündür? Bir ailə və ya qohumlarla birgə? Allah bu müxtəlifliyi qəbul etməklə mədəniyyətlərdən gələn fərqliliyi qəbul edir. Bunların bəziləri əvvəllər müsəlman olan imanlılarda daha yaxşıdır və biz onlardan öyrənməliyik.

Hərçənd, Allahın Kəlamı mədəniyyətin digər tərəfini dəyişməyə çağırır. Məsələn, insanın günahının korladığı tərəfləri. Şagirdlik düzgünlüyü hörmətdən üstün tutmağı, bizi incidənləri bağışlamağı, əks cinsli şəxsə düzgün münasibət bəsləməyi, qərar qəbul edərkən Allahı birinci tutmağı və s. öyrədir. Bu və digər məsələlər şəxsin qarışıq keçmişi və mədəniyyətindən gəlir. Dostunuzun həyatında bu məsələlər barədə necə öyrənə bilərsiz? Onlarla vaxt keçirməklə, onları dinləməklə, onlar üçün dua etməklə. Uşaqlığı və ailə həyatı barədə suallar verin. Yadda saxlayın ki, adamların hamısı fərqlidir. Buna görə də sual verməklə məlumat əldə etmək lazımdır.

Bir çox ölkələrdə olan müsəlman mədəniyyətlərinin ümumi xüsusiyyətləri çoxdur. Lakin yadda saxlayın ki, onlar da fərqlənir. Pakistanlılar, İranlılar və Ərəblər eyni deyillər! Hətta bu mədəniyyətlərin daxilində belə, müxtəlif etnik qruplar və ya sosial-iqtisadi siniflər arasında fərqlər mövcuddur Beləliklə, dostunuza tərbiyə mədəniyyəti barədə suallar verin: onlar öz mədəniyyətində nəyi sevirlər, nəyi sevmirlər. Bəzən Məsihi qəbul edəndən sonra onlar köhnə mədəniyyətlərini rədd edirlər. Lakin onların psixoloji sağlamlığı üçün keçmiş və yeni mədəniyyətdən bəzi xüsusiyyətləri seçib birləşdirmək daha yaxşı olar.

Həmçinin keçmişdə müsəlman olan imanlıların çətinlikləri ilə də maraqlanın. Bəzən, Məsihi qəbul edəndən sonra çoxları eyni çətinliklərlə rastlaşır:

- Əvvəlki evindən, ailəsindən, mədəniyyətindən qovulurlar. Bu, tənhalığa, çaşqınlığa gətirib çıxarır.
- Ailə üzvləri tərəfindən açıq təqib. Bu, rədd olunma hissinə gətirib çıxara bilər.
- Əvvəlki cəmiyyət onlardan xəcalət çəkir.
- İslamla müqayisədə məsihçi cəmiyyətində quruluşun zəif olması. İslamın qaydaları adamlara aydın istiqamət verir.
- Əvvəlki ilə müqayisədə, Məsihin davamçıları arasında ünsiyyətin az olması.

Qərbdə yaşayan keçmiş müsəlman imanlıları bəzi sahələrdə daha az problemlərlə üzləşirlər, lakin öz vəziyyətlərində əlavə çətinlikləri olur. Məsələn, müsəlman miqrantları Qərbdə Məsihin davamçıları olanda onlar, eyni zamanda, iki cür dəyişikliklərlə də rastlaşırlar: Biri miqrasiyaya görə, digəri isə imana gəldiklərinə görə baş verir.

Buna görə “Mənim ardımca gəlin” kursu Peterin Birinci Məktubuna əsaslanır və yeni şəxsiyyətə xüsusi diqqət yetirilir. Biz «Allahın seçilmiş xalqı», Allah üçün dəyərli və bir-birimizə Məsihdə bağlı olan adamlarıq.

Bu kursun uğurlu olmasının şərti adamların həyatını anlamaqdır. Bir məsləhətçi kimi, siz yeni imanlıların sevinc və kədərini dərk edə biləcəksiz. Bu həmçinin sizə bu kursun materialı ilə İsanın şagirdi etdiyiniz tələbələrin həyatı arasında əlaqə yaratmağa imkan yaradacaq. Bundan başqa, bu kurs sizə təqib kimi mövzuları seçməsinin səbəblərini aydın edəcək (bu mövzular digər kurslara daxil deyil). Müzakirədən əvvəl və ya sonra çay və ya çörək süfrəsi tələbələrlə dostluğu və etibarı inkişaf etdirə bilər və onlar ürəklərini açıb həyatları barədə bölüşəcəklər.

Nəhayət, qayğı əsasdır. Məhəbbət ən böyük qüvvədir. Məhəbbət mədəniyyətdə olan bir çox fərqin üstünü örtür! Məhəbbət – çaşqınlıqda və əzabda olan dostunuza əl uzatmağa hazırlıq deməkdir. Ailəsiz qalmış imanlılara qonaqpərvərlik göstərməkdir. Yalnız dərslərdə görüşmək deyil, həmçinin telefonla əlaqə saxlamaqdır. Bir imanlı demişdi: “İsanın ardınca getmək üçün ailəmi tərk etdim, əvəzinə isə yalnız görüşlərlə üzləşdim!”

Ümidvarıq, çoxlu material və treninqlər tədricən məsihçilərə yeni imanlılara qayğı göstərməyin və onları şagird etməyin yollarını öyrədəcək. Bunlar digər Qərb ölkələrinə də aiddir. Lütfən, bu barədə ətraflı məlumat almaq istəyirsizsə, mənə yazın: comefollowmekursu@gmail.com.

**Sizə faydalı olan digər kurslar:**

**Dostluq ilk növbədədir.** Bu, altı dərsdən ibarət olan DVD və müzakirə kursudur; məsihçilərə müsəlmanlarla dost olmağı və Məsih barədə onlarla bölüşməyi öyrədir. İslamla tanış olmayanlara bu kurs müsəlmanlar və İslam barədə əsas məlumatı təqdim edir. Bu məlumat “Mənim ardımca gəlin” kursunu keçənlərə də faydalı olar. Bax.: friendshipfirst.org

**Ailəyə qovuşmaq.** Bu, altı dərsdən ibarət olan DVD və müzakirə kursudur; yeni imanlıları salamlamağa, dəstəkləməyə və onlardan öyrənməyə kömək edir. Tədris kursu 25 şəhadət və təcrübəli müəllimlərin söhbətindən ibarətdir. Bu kursdakı üslub şəhadət ilə kiçik qruplarda müzakirəni birləşdirir. Hər dərs həyatda tətbiq olunacaq ev tapşırığı ilə tamamlanır. Bu barədə daha ətraflı məlumat üçün: joiningthefamily.org.

# Müsəlman terminləri və mədəniyyətinə aid məsələlər

## Müsəlman terminlərindən istifadə

Tələbələrin yeni anlayışları əldə etmələri üçün köhnə anlayışlardan "körpü" tikmək faydalı olar. Beləliklə, onlar köhnə və yeni anlayışları müqayisə edə bilərlər. Həmçinin bu, onlara məsihçi Xoş Xəbəri müsəlman dostlarına aydın çatdırmaqda kömək edə bilər.

Buna görə də az da olsa, bu kurs bir neçə müsəlman terminindən istifadə edir və yeni imanlını köhnə anlayışlardan yeni anlayışlara gətirmək üçün bunlardan "körpü" kimi istifadə edir. Məsələn, biz Məsihin şəriəti (qanunu) deyəndə tələbələr müsəlmanların şəriətini xatırlayırlar və Rəbb Məsihə itaətin fərqli olduğunu başa düşürlər.

## Terminlərin siyahısı

Ərəb dilində terminlər aşağıda qeyd olunur və tərcüməsi verilir. Daha dərin öyrənmək üçün müvafiq kitablara müraciət etməlisiniz. Yaxşı məsləhətlər müəllifi Steve Bell olan "Friendship First", Colin Chapman olan "Cross və Crescent" kitablarından əldə edilə bilər.

| | |
|---|---|
| *Dua* (5-ci dərs) | Şəxsi dua |
| *Həcc* (20-ci dərs) | Zəvvarlıq |
| *Halal* (15-ci dərs) | Mərasim sayəsində pak olan |
| *İncil* (1-ci dərs) | Müjdə |
| *Cin* (18-ci dərs) | Ruh |
| *Kafir* (2-ci dərs) | Sadiq olmayan |
| *Kəlmeyi* (1-ci dərs) | Şəhadət |
| *Mürtəd* (2-ci dərs) | İslamı tərk etmiş |
| *Cənnət* (1, 9, 20-ci dərslər) | Müsəlmanların anlayışında səmalar |
| *Qiblə* (20-ci dərs) | Müsəlmanların Məkkəyə tərəf üz tutduğu istiqamət |
| *Salah/Namaz* (5-ci dərs) | Müsəlmanların gündə beş dəfə etdiyi ənənəvi dua |
| *Ramazan/Oruc* (17-ci dərs) | Ramazan ayında müsəlmanların tutduğu oruc |
| *Şəhada* (13, 20-ci dərslər) | Şəhadət. Xüsusilə, müsəlmanların kəlmeyi-şəhadəti: "Allahdan başqa Allah yoxdur, Məhəmməd Onun rəsuludur" |
| *Şəriəti* (17-ci dərs) | Dini qanun və həyat tərzi |
| *Şirk* (3-cü dərs) | Bütpərəstlik, Allaha şərik qoşmaq |
| *Sunnah* (17-ci dərs) | nümunə və ya həyat üçün nümunə (müsəlmanlar üçün bu, xüsusilə, Məhəmmədin nümunəsidir) |
| *Tövrat* (4-cü dərs) | Musanın beş kitabı |
| *Ümmət* (7,14-cü dərslər) | İslam dinində olanların ümumdünya cəmiyyəti |
| Zəbur (6-cı dərs) | Zəbur |
| Zəkat (17-ci dərs) | Müsəlmanların məcburi olan xeyriyyə sədəqəsidir |

20-ci dərsdə qeyd olunan «beş şərt» – İslamın əsas hökmləridir; kəlmeyi-şəhadət, namaz, oruc, zəkat və həcc (yuxarıda sözlərin mənasını oxuya bilərsiz).

## Mədəniyyətə aid məsələlər

Bu kursun əksər dərsləri mədəniyyətə aid müəyyən məsələləri nəzərdə tutur. Hər dərsdə bunlar məsləhətçiyə aid qeydlərdə verilir. Hərçənd, yadda saxlayın ki, yeni imanlıların hamısı bu problemləri eyni dərəcədə yaşamır. Buna görə də bu dərsləri öz tələbələrinizə görə uyğunlaşdıra bilərsiz.

# Tez-tez verilən suallar

**Bu dərsliyi hansı dillərdə əldə etmək olar?**

Bu kurs hal-hazırda ingilis, alman, ərəb, dari, fars, benqal, rus və digər dillərə tərcümə olunub. Amhara, Urdu və Paştu dillərinə tərcümə hələ də davam edir. Lütfən, sonuncu siyahını come-follow-me.org saytında görə və əldə edə bilərsiz.

**Müxtəlif ölkələrdə bu dərsliyi necə əldə etmək olar?**

Come-follow-me.org saytından. Bir çox dillərdə bu dərslik sifarişlə dərc oluna və istənilən ölkəyə göndərilə bilər. Bəzi naşirlər özləri dərc edirlər. Məsələn alman, ərəb və dari dilində Orientierung:M Almaniyadan əldə edilə bilər. Veb-saytda daha yeni məlumat var.

**Bu dərslik onlayn varmı və ya saytdan əldə edilə bilərmi?**

Dərslik onlayn istifadə üçün nəzərdə tutulmayıb. Bu, iş dəftəridir və tələbə öz fikrini yazmalıdır və yazılarını müzakirə vaxtı gətirməlidir ki, məsləhətçi onun həyata tətbiqini müzakirə edə bilsin. Belə fəal öyrənmə prosesi, sadəcə, passiv oxumaqdan daha faydalıdır.

Bu səbəblə, dərslik onlayn yoxdur. Ola bilsin, daha sonra planşet üçün variant təqdim olunacaq. Hərçənd, "Müəllimlər üçün vəsait" bizim veb-saytdan pulsuz əldə edilə bilər.

**Bu kurs tələbələrə şifahi keçirilə bilərmi?**

Müəyyən mənada, bu kursun üslubu artıq şifahidir, çünki əsas hissə – müzakirə vaxtıdır. Həmçinin savadsız tələbələr Müqəddəs Kitabın ayələrini əzbərləyə bilər, şəkilləri müzakirə edə bilər və ev tapşırıqlarını yerinə yetirə bilərlər.

Hərçənd, ev tapşırığı üçün yazıb-oxumaq mütləq deyil. Sərbəst oxuya bilməyən tələbələr üçün bu qaydalar verilir:

- Belə adamı qrupda bir köməkçiyə tapşırın. Köməkçi zəif oxuyan tələbə ilə dərsi əvvəlcədən görüşüb keçməlidir ki, o, mövzunu yaxşı başa düşsün. Sonra, müzakirə vaxtı onlar birlikdə oturmalıdırlar və köməkçi kitabda düzgün səhifəni və ya şəkli tapmaqda yardım edəcək. Köməkçi ailə üzvü və ya başqa şəxs ola bilər.
- Yadda saxlayın ki, qrupda olan savadsız adamların həyat təcrübəsi daha çox olur. Onların fikri çox dəyərlidir. Onlara müzakirədə fəal iştirak etmək üçün şərait yaradın ki, başqa tələbələr bundan faydalana bilsinlər.

**Bu kurs bilavasitə İslam barədə danışırmı?**

Dərslik İslam barədə danışmır. Bunun səbəbi təhlükəsizlikdir. Dərslik müsəlman ölkəsində yaşayan imanlılar üçün tərtib edilmişdir, buna görə də dərslikdə İslamın tənqidi onlara təhlükə yarada bilər (Qərbdə bu, daha kiçik problemdir). Həmçinin dərsliyin məqsədi İslam deyil, İsa və Onun təlimidir. Bu kurs Məsihin keçmişdə müsəlman olan davamçılarının problemləri barədə danışır. Tələbələrə yeni məsihçi terminlərinin mənasını aydın etmək üçün kursda bəzi müsəlman terminləri də istifadə olunur. Bu barədə daha ətraflı «Müsəlman terminləri və mədəniyyətinə aid məsələlər» bölməsində qeyd olunur.

«*Müəllimlər üçün vəsait*» isə İslam barədə açıq danışır. Məqsəd məsləhətçilərə mədəniyyət barədə məlumat verməkdir. Həmçinin təhlükəsizlik problemini görmədiyimiz üçün bu vəsaitdə İslama istinad edirik. Hərçənd, ehtiyac yaransa, İslamın adı çəkilməyən variant da çap edə bilərik. Lütfən, bu variant sizə lazımdırsa, mənimlə əlaqə yaradın.

## Rəy verin!

Bizə rəylərini yazıb göndərənlərə çox minnətdarıq. Bu, ikinci dərci təkmilləşdirməkdə çox kömək etdi. Gələcəkdə nəşrləri daha da mükəmməl etmək üçün öz təklif və rəylərinizi bizə göndərməyinizi xahiş edirik. Növbəti suallara cavab yazıb bizə göndərin

1. Hansı müzakirə sualını daha yaxşı vermək olar və necə?
2. “Mədəniyyətə aid nümunələr” bölməsinə nə əlavə etmək olar?
3. Hansı mövzunu əlavə etmək olar?
4. Hansı video və məşğələləri təklif edirsiz?
5. Müsəlman mədəniyyətindən və ya əvvəl müsəlman olan imanlıların şəhadətindən hansı nümunələri təklif edərdiniz?

*comefollowmecourse@gmail.com* ***ünvanına rəyinizi bizə göndərin. Köməyinizə görə sağ olun!***

**Tim Qrin**
**comefollowmecourse@gmail.com**
**come-follow-me.org**

# Mədəniyyətə aid nümunələr

*Dərsə hazırlaşarkən "Mədəniyyətə aid nümunələr" bölməsini oxuyun. Bunlar müsəlman mədəniyyəti ilə az tanış olan şəxslər üçün yazılıb və hər həftənin dərsi üçün zəruri məlumatı təmin edir.*

## *1-ci dərs*

### Yeni imanlıya hansı həqiqəti öyrətmək ilə başlamaq gərəkdir

Bu dərsin əvvəlində müsəlmanla Məsihin davamçısı arasında söhbət verilir. müsəlmanın münasibəti adi olsa da, bütün müsəlmanlar belə düşünmürlər.

«Mənim ardımca gəlin» kursu Məsihin davamçıları üçün nəzərdə tutulur, lakin 1-ci dərs iman addımlarını izah edir, çünki:

- Bu, siz məsləhətçiyə tələbələrin ruhani dərrakəsini müəyyən etməkdə kömək göstərir.
- Məsihi qəbul etməyən adama bu imkan verilir.
- Tələbələrə müsəlman tanışına həqiqəti izah etməyi öyrədir.

Bu dərsdə təqdim olunan iman addımları adi həqiqətlərdir. Sonuncu «Məsihin cəmiyyətinə qoşulmaq» bəndi Qərbdə çox vaxt az vurğulanır. Keçmişdə müsəlman olan imanlılara cəmiyyətsiz yaşamaq çox çətindir. Onlar «Məsihin cəmiyyətini» təşkil olunmuş kilsə, məsihçilərin cəmiyyəti və ya başqa imanlılarla gizli görüş yeri hesab edirlər. Hər halda, onlar üçün cəmiyyət olduqca vacibdir. 7-ci dərsdə bu barədə daha ətraflı danışacağıq.

### Yeni imanlılar və baha qiymət

Müsəlmanlar İsanın ardınca gedəndə çox baha qiymət ödəyirlər. Hərçənd, keçmişdə müsəlman olan bəzi imanlılar bunu təbii hesab edirlər. 13-cü sual qiyməti, 14-cü sual isə dəyəri təsvir edir. Tələbələrin vəziyyətinə uyğun olaraq, bu həqiqətləri tənzimləmək üçün Allahdan müdriklik diləyin.

## *2-ci dərs*

### Cihad

Qərb sakinləri «Cihad» sözünü eşidəndə xəbərlərdə olan dini ekstremistlər barədə fikirləşirlər. Ərəb dilində isə "Cihad" sözünün mənası «mübarizə etmək»-dir. Silahlı münaqişə buraya daxil olsa da, İslam bunu «kiçik cihad» adlandırır. «Böyük cihad» özünü Allahın mənəvi standartlarına itaət etdirərkən onların qarşılaşdığı mübarizədir. Bu, günaha qarşı apardığımız ruhani döyüşə bənzəyən bir anlayışdır. Bunu belə izah etmək olar. Hərçənd, tələbələrə qarşı həssas olun. "Cihad" termini onlar üçün dini ekstremizmdirsə, bu analogiyanı gətirməyin.

### Dua pozaları

20-ci sualdakı şəkildə duada əllər birləşdirilməyib, açıqdır. Siz heç özünüzə bu sualı vermisinizmi: "Nə üçün məsihçilər dua edərkən adətən gözlərini yumur və əllərini birləşdirirlər?" Bu, səhv deyil, lakin Müqəddəs Yazı heç vaxt bizə bunu etməyi öyrətmir və bir çox dua nümunələrini bizə təsvir edir. müsəlmanlar çox vaxt Allaha dua edərkən əllərini açırlar. Sizin tələbələriniz də belə edə bilərlər. Allahın yanına boş əllər ilə gəldiyimizi, Ondan mərhəmət dilədiyimizi qeyd etmək yaxşı olar. İstəsəniz, əvvəllər dua etdikləri pozada davam edə biləcəkləri barədə tələbələrə söyləyə bilərsiz.

# 3-cü dərs

## Allahı «Ata» çağırmaq

Müsəlmanlar üçün Allah tamamilə uzaqdır və O, Öz ilahiliyini heç kimə vermir. Onlar üçün Ərəb dilində şərik sözünün mənası “məxluqu Allaha bərabər etmək”dir. müsəlmanlar inanırlar ki, atalıq – cinsi fəaliyyətə aid olan insani anlayışdır; buna görə də Allahı «Ata» çağırmaq “şərik”dir. Lakin biz Allahı «Ata» çağıranda Onun bizə yaxın olduğunu və Məsih vasitəsilə bizimlə yaxın əlaqədə olmaq istədiyini vurğulayırıq. Onun bizim kimi insani olduğunu nəzərdə tutmuruq. 3-cü dərsdə bu barədə daha çox qeyd edilir.

## Allaha yaxınlıq

Müsəlmanlar çox vaxt Allahı uzaq və əlçatmaz hesab edirlər. Allahın insanlara «boğazdakı damardan da yaxın» olduğunu qeyd etsələr belə, bu, ikitərəfli ünsiyyəti nəzərdə tutmur. Allah ilə yaxın münasibət əksər müsəlmanlar üçün qəribədir, baxmayaraq ki, İslamın Sufi hərəkatı bunu təbliğ edir. Məsihçilikdə isə Allah ideyası tamamilə fərqlidir – Allah insanları xilas etməyə çalışır və Özünü «Ata» çağırmağa dəvət edir.

# 4-cü dərs

## Üçbirlik

Müsəlmanlar ilahi təbiəti və ya übirlikdə olan Ata ilə Müqəddəs Ruhun münasibətini tam dərk etmədən İsa Məsihi qəbul edə bilərlər. Bundan sonra onlar bunu dərk etməyə çalışırlar, buna görə də 4-cü dərs dərinliyə getməsə də, üçbirlik mövzusunu izah edir. Burada tam dərk edə bilməsək də, Ata Allah, Oğul Allah və Müqəddəs Ruh Allah ilə həyatımızda yaşadığımız vurğulanır.

Keçmişdə müsəlman olan bəzi imanlılar İsadan dönürlər, buna səbəb qismən bundan ibarətdir ki, üçbirlik barədə izah onları qane etmir. Buna görə də bu, vacib mövzudur. Həmçinin onlar bu təlimi müdafiə etməyə qadir olmalıdırlar, çünki müsəlmanlar onlara hücum edəcəklər. Hərçənd, biz bu mövzunu tam dərk edə bilmirik və bəzən bu izah onlar üçün mənəvi zəifliyin əlamətidir. Bir məsləhətçi kimi, siz öz tələbələrinizlə bu müzakirəyə getməyin dərinliyini özünüz müəyyən etməlisiniz.

Müqəddəs Ruh Allahı bizə göstərir, Ata ilə ünsiyyəti mümkün edir və tədricən bizi daha çox İsaya bənzər edir. İslamda insani cəhdlərə görə bu dərs Allaha məqbul həyatın Müqəddəs Ruhun qüdrəti ilə mümkün olduğunu vurğulayır. Keçmiş müsəlmanlar üçün bu, çox vacibdir. Bu dərslərin təliminə görə biz hər gün Allahın Ruhu ilə dolmalıyıq, həyatımızı idarə etməsini diləməliyik. Bu kurs Pentekost təliminə aid mübahisələrdən yan keçir.

## Qurban və əhd

Quran və Hədislər qurbanın günahı aradan qaldırdığını rəsmi öyrətməsə də, İslam çox vaxt bunu nəzərdə tutur. Bu, müsəlmanların Eid al-Adha bayramında qeyd olunur. müsəlmanlar İbrahimin qurbanını yada salırlar (Yaradılış 22 ilə müqayisə edin). müsəlmanlar qurbanın günahı aradan qaldırmasına inanmasalar da, onlar bunu Allah ilə qurban gətirən adam arasında bağlanan əhdə aid etmirlər.

Çıxış 24-də heyvanların qurban gətirilməsi yalnız günahı aradan qaldırmır, həmçinin Əhdin rəmzi və möhürüdür. Əhdi-Cədiddə Məsih Öz qanı ilə bu əhdi möhürlədi. Tələbələriniz bunu başa düşməlidirlər: Məsihin qurbanı keçmiş günahlardan azad etsə də, biz günah etməyə azad deyilik! Əksinə, biz Ona bağlıyıq. 15-ci dərsdə biz bunu daha təfsilatla öyrənəcəyik (17-22-ci suallar).

## Sufi düşüncəsində şagirdlik

Sufilik bir çox müsəlman ölkələrində mövcuddur. Sufilikdə müəllim Ərəbcə «*mürşid*» və ya Urdu dilində «*pir*» adlanır. Müəllimin tələbələr üzərində səlahiyyəti çox böyükdür və tələbələr ona hər şeydə itaət edəcəklərinə and içirlər.

Tələbələrinizin keçmişindən asılı olaraq, bu analogiya İsa Məsihlə bizim aramızda olan öhdəliyi anlamaqda kömək edə bilər (baxmayaraq ki, tələbələriniz İsanı «*mürşid*» adlandırmaq istəməyə bilərlər).

## Müsəlmanlar, Müqəddəs Ruh və Cəbrayıl

Bu dərsin 8-ci sualına aid cavabların arasında "Cəbrayıl" cavabı da var. Bir çox müsəlman Müqəddəs Ruhu mələk Cəbrayıl hesab edir.

# *5-ci dərs*

## Dua

3-cü dərsdə biz qeyd etdik ki, məsihçilərin Ata Allah anlayışı yaxın və şəxsi münasibəti göstərir. Bu da müsəlmanlar üçün özgə anlayışdır. Bu, duaya da təsir göstərir, çünki məsihçilər duanı ünsiyyət hesab edirlər. müsəlmanlar üçün isə dua gün ərzində Allahı yadda saxlamaq və Onun rəğbətini qazanmaq üçün nəzərdə tutulan məcburi ayindir. müsəlmanlar həmçinin qeyri-rəsmi dua etsələr də (bəziləri mistik meditasiya da edirlər), Məsihin davamçıları olanlar Allah ilə yeni münasibətdən zövq alırlar. Tələbəyə əvvəlki və indiki duaları barədə sual verə bilərsiz.

## Sufi meditasiyası

Sufi mistikləri müsəlmanların bəzi ənənələrinə böyük təsir göstəriblər. Sufi poeziyası insanın Allaha olan arzusunu təsvir etmək üçün insani məhəbbətdən istifadə edir; aşiq sevgilini axtardığı kimi, insan da Allaha can atır (məsihçilikdə isə bu, əksinədir!). Sufi meditasiyasında ritmli fırlanma rəqsi var; dikr (Ərəb dilində) və ya zikr (Urdu) adlanır. Bunun məqsədi transa bənzər vəziyyəti əldə etmək və Allahın hüzurunu hiss etməkdir.

## Müsəlmanlar, dua və «*vudu*» dəstəmaz

Müsəlmanlar həmişə ənənəvi duadan əvvəl dəstəmaz alırlar. Tələbələriniz dua etməzdən əvvəl günahların etirafı barədə düşünə bilərlər. Əlbəttə, bizi təmizləyən etiraf deyil, Allahın Özüdür. Hərçənd, bu anlayış tələbələrə aydın deyilsə, bu barədə danışmağa dəyməz.

## Dua siyahısının tərtibatı

Dua siyahısı Cümə gününə aiddir, çünki bəzi müsəlman ölkələrində Cümə istirahət günüdür. Digər yerlərdə istirahət günü Bazardır. müsəlman dostlarının və ailə üzvlərinin adlarını yazmaq tələbələr üçün müdrik addım olmaya bilər, çünki onlarla birgə yaşayırlarsa, onlar bu dərslik kitabını aşkar edə bilərlər. Həmçinin dua siyahısını mobil telefonda təklif edə bilərsiz («PrayerMate»).

# 6-cı dərs

## Müsəlmanlar və Müqəddəs Yazıların Allahdan ilham alması

Müsəlmanlar Müqəddəs Yazıları başqa cür dərk edirlər. Onlar üçün Quran səmalarda yazılmış və mələk Cəbrayıl vasitəsilə Məhəmmədə verilmiş Allahın əbədi kəlamıdır. Məhəmməd Ərəb dilində Cəbrayılın söylədiklərini yazmışdı. Məsihçilər isə inanırlar ki, Allah adamları Müqəddəs Yazıları qeydə almağa ilhamlandırdı və ya hərfi mənada «üfürdü». Allah Öz ilahi məqsədləri üçün insani yazıdan istifadə etdi və onu səhvdən qorudu. müsəlmanlar Ərəb dilində Quranı Allahın yeganə Kəlamı hesab edirlər; bütün tərcümələr daha aşağı səviyyədə hesab olunurlar. Məsihçilər isə inanırlar ki, Müqəddəs Kitab istənilən dilə tərcümə olunsa da, yenə də Allahın Kəlamıdır.

Əksər müsəlmanlar inanırlar ki, Müqəddəs Kitab dəyişdirilib. Tələbələriniz onun etibarlı olduğuna şübhə ilə yanaşa bilərlər, lakin öz müsəlman dostlarına bunu izah etməyə ehtiyac duya bilərlər. Həmçinin onlar müxtəlif tərcümələrə görə çaşqınlığa düşə bilərlər. Onlar İlahi Müqəddəs Yazının nə üçün insanların həyatını təsvir etdiyini dərk edə bilmirlər.

## Hekayələr və Allahın vəhyi

Müqəddəs Kitab Yaradılışdan Vəhyə qədər böyük hekayələrlə doludur. Hekayələrin mərkəzində Allah Özünü insanların yanına göndərir. Quran Allahın xasiyyətini təsvir edir və Allahın standartlarına uyğun yaşamağı öyrədir; qısa hekayələrin təsviri olsa da, bunlar xronoloji ardıcıllıqla təqdim olunmur və bunların ümumi bir mövzusu yoxdur. İslamda Allah Özünü kitab göndərməklə göstərir. Məsihçilikdə isə Allah Özünü göndərməklə Özünü göstərir; bu, Müqəddəs Kitab hekayəsinin əsas mövzusudur.

# 7-ci dərs

## İki xüsusi daş

Milyonlarla müsəlman Məkkəyə həccə gedib. Kəbənin qara daşı onların ibadət mərkəzidir. Bizim üçün isə Məsih Özü ibadət mərkəzi və qiymətli daşdır, ruhani evin künc daşıdır!

## Bölünmüş mənliyin şəfası

Pakistanda yaşayan Britaniyalı bir qız öz şəxsiyyəti barədə çaşqınlıqda olaraq böyüdü. Bir hissəsi Britaniyalı, digər hissəsi isə Pakistanlı müsəlman idi. Məsihi qəbul edəndən sonra o, yeni mənlik əldə etdi və bu, «ecazkar» idi. Bu barədə ona çox güclü təsir edən Müqəddəs Kitab ayələri bunlar oldu: 1Peter 2:9-10.

## Ümmət

Müsəlmanların ümumdünya cəmiyyətə məxsusluğu çox güclüdür. Onlar bunu "Ümmət" adlandırırlar. Onların fikrincə, ideal Ümmət Allahın qanununa (şəriətinə) riayət edən cəmiyyətdir. Nəzəriyyədə bu cəmiyyət İslam rəhbərləri (xəlifələr) tərəfindən idarə olunmalıdır. Bu qlobal cəmiyyəti hər il zəvvarlıqda görmək olur. müsəlmanlar bir çox ölkələrdən Məkkəyə gedirlər, hamısı eyni paltar geyinirlər. Əslində, bölünmələr və diskriminasiya (irqi diskriminasiya daxil olmaqla) İslam Ümmətinin lazımi səviyyədə yaşamadığını göstərir.

Müəyyən mənada bu, məsihçilərin ideal ümumdünya cəmiyyətidir. Dünyada yaşayan məsihçilərin də lazımi səviyyədə yaşamadığı göstərilir. 1Peter 2:9 bəzi Ərəb tərcümələrində "Allahın xalqı" üçün «Ümmət» sözündən istifadə edir. Tələbələrinizlə oxşarlığı və fərqi müzakirə etmək yaxşı olardı.

## Təhlükə barədə

Bəzi müsəlman ölkələrində imanlılar üçün birlikdə görüşmək təhlükəlidir. Bəzən polislər imanlıları aşkar etmək üçün özlərini imanlı adlandıraraq qrup təşkil edirlər. Onlar imanlıları ifşa etmək üçün onların adını, əlaqə nömrələrini və şəkillərini əldə edirlər və bununla onlara böyük ziyan vura bilərlər. Belə vəziyyətlərdə imanlılar gizli qalmalı və çox ehtiyat etməlidirlər. Müqəddəs Ruh onlara kimə etibar etməli olduqlarını göstərəcək. Onlar şəkil və video çəkilişlərindən çox ehtiyat etməlidirlər. Hərçənd, orada başqa təhlükələr də var.

Hamı ehtiyat etsə və heç kimə etibar etməsə, imanlıların cəmiyyəti heç vaxt böyüməz.

Həmçinin təklikdə olan imanlılar tez soyuyurlar. Onların ehtiyac vaxtı köməyi olmur. Uşaqları heç vaxt imanlıların cəmiyyətinə getməsələr, onlar əvvəlki dinə qayıdacaqlar. İmanlılar öz övladlarına ən yaxşısını arzulayırlarsa, onlar Məsihin cəmiyyətində öz yerlərini tapmalıdırlar. Buna görə də İsanın davamçıları ilə görüşəndə bəzi təhlükələr olur. Görüşməsək isə təhlükə daha böyükdür.

Keçmişdə müsəlman olan imanlılar Qərbdə məsihçi cəmiyyətinə qoşulanda adətən təhlükə ilə qarşılaşmırlar. Lakin bəzi vəziyyətlərdə onlar yenə də gizli qalmağı üstün tuta bilərlər (məsələn, ailəyə xəcalət gətirməmək üçün). Məsihçi olduqlarını kimə və nə vaxt söyləmək – bu onların şəxsi qərarı olmalıdır. Məsihçilər müsəlmanlara onlar barədə xəbərçilik etməməlidirlər.

## *8-ci dərs*

## Keçmişdə müsəlman olan imanlılar və müsəlman cəmiyyəti

Məsihə gələn müsəlmanlar çox vaxt əvvəlki müsəlman cəmiyyəti ilə Məsihdə yeni cəmiyyətləri arasında qalırlar. Ailə və cəmiyyət bağları İslamda çox güclüdür və Məsihin davamçıları çox vaxt sevdikləri adamlar tərəfindən rədd olunurlar. Daha sonra onlar bu münasibətləri necə bərpa edə bilərlər? Onlar Məsihin cəmiyyətində yeni «ailə» tapacaqlarmı? Bu ailə əvvəlki ailə kimi mehriban olacaqmı? Bunlar çox ağır suallardır. 8-ci dərs öyrədir ki, Məsihin davamçıları iki cəmiyyətə məxsusdur: köhnə və yeni. Buna görə də onlar mümkün qədər öz vəzifələrini yerinə yetirməyə çalışırlar (bu, imanlıların birinci nəslinə aiddir, lakin çox vaxt keçmişdə müsəlman olan imanlıların həyatında kəskin münaqişələr baş verir).

## *9-cu dərs*

## Təqib olunan imanlılara məsləhət

Qərbdə yaşayan məsihçilər bəzən təqibin nə olduğunu təsəvvür etmirlər. Biz onun təsirini kifayət qədər dəyərləndirmirik və ya biz onu ideallaşdırırıq. Keçmişdə müsəlman olan imanlılar təqiblə rastlaşanda onlara müdrik məsləhət vermək vacibdir. Məsləhət həm təcrübi, həm də psixoloji səviyyələri özündə birləşdirməlidir. Əslində, keçmişdə müsəlman olan imanlı üçün öz ailəsində və öz cəmiyyətində qalmaq, sakitlik yaranana qədər müqavimət göstərənlərə səbir ilə cavab vermək daha yaxşıdır. Böyük təhlükə olanda isə yeni imanlı üçün köçmək daha düzgün olar. Daha sonra o, öz ailəsi ilə münasibəti bərpa etməyə çalışmalıdır. Keçmişdə müsəlman olan imanlılar Qərbdə yaşayırlarsa, həyati təhlükə ilə qarşılaşmırlar.

Keçmişdə müsəlman olan imanlılar ailə tərəfindən rədd olunanda onların hansı hissləri keçirdiklərini, bundan sonra ailələri üçün necə darıxacaqlarını anlamaq vacibdir. Təqibi xeyir-duaya çevirmək üçün Allahın ona münasibətini əldə etmək gərəkdir. Bu dərsin məqsədi də elə bundan ibarətdir.

# 10-cu dərs

## Qisas dövrəsi

Bu dərs nəsillərlə davam edən qan davası olan ölkələr üçün yazılmışdır. müsəlmanların hamısı qisası doğrultmasa da, bir çox müsəlman mədəniyyətində qisas güclüdür. Bütün mədəniyyətlərdə rast gələn günahlı insani təbiət və güclü görünmək istəyi, ənənəvi cəmiyyətlərdə şərəf hissi müsəlmanları əksər hallarda qisas almağa gətirib çıxarır. Buna görə də Məsihin “düşmənlərinizi sevin” əmrini eşidən müsəlmanlar (bu həftənin əzbər ayəsidir) tamamilə yeni təlim ilə rastlaşırlar. Bir çox müsəlmanı Məsihə cəlb edən də elə budur.

Keçmişdə müsəlman olan imanlıların bir çoxu onları təqib edənlərə qarşı ürəklərində acılıq və inciklik hissini saxlayırlar (məsələn, 15-ci sual). Məsihdə böyümək üçün bundan azad olmaq gərəkdir. Buna görə də bu dərsdə bağışlanma mövzusu dəfələrlə təkrar olunur. Bu mövzunu müzakirə edəndə güclü hisslər yaransa da, nəticədə şəfa ola bilər!

5-ci sual düşmənlərini bağışlayan İsanı düşmənlərinə lənət oxuyan rəhbərlərlə müqayisə edir. Bu, b.e. 680-ci ilində Kərbəla döyüşündə ölən Hüseyni nəzərdə tutur. Şiə müsəlmanları bunu yaxşı yadda saxlayırlar. Məsihin ölümünü də məsihçilər yaxşı xatırlayırlar. Tələbələrə bu barədə söyləməyinizi özünüz qərar verin. Bu, onların şiə İslama münasibətindən asılıdır.

# 11-ci dərs

## İslamda nikah

Bütün mədəniyyətlərdə olduğu kimi, müsəlmanlar arasında da bəzi nikahlar xoşbəxt, bəziləri isə münaqişə ilə doludur. Buna görə də ümumi söz demək çətindir. Gizli zorakılıq və ağrıların olmasına baxmayaraq, müsəlman ailə həyatı çox vaxt cəlbedicidir.

İslam alimləri nikaha aid Quranın təlimi üzrə bir fikirdə deyillər. Kişilər üstünlük təşkil edən cəmiyyətlərdə qadınlar təzyiq altında yaşayırlar və bu, Quranın göstərişlərindən daha çoxdur. Hərçənd, bu kurs əksər müsəlman cəmiyyətlərində qəbul edilmiş münasibəti təsvir edir. Məsələn, kişi arvadını istəyəndə döyər, istəyəndə asanlıqla boşayar. Dörd arvad ala bilər. Arvadı oğul dünyaya gətirmirsə, ərin təzə arvad almağa haqqı var. İslamda arvadın da hüquqları var, lakin bunlar kişinin hüquqlarından daha zəifdir. Əslində, nikah daha çox əhd deyil, müqavilədir.

Bu dərsin məqsədi tələbələrinizə nikah anlayışını Müqəddəs Kitaba uyğunlaşdırmaqda kömək etməkdir. Bu dərsdə adi müsəlman anlayışları qeyd olunur və Müqəddəs Kitaba uyğun təlim ilə müqayisə edilir. 10-cu sualda məşhur Quran ayəsinə istinad edilir: «arvad sənin tarlandır» (Surə 2:223). Müqəddəs Kitaba görə, kişi bir qadınla ömürlük evlənməli və arvadına fədakar məhəbbət göstərməlidir. 11-ci dərs bu böyük mövzunu yalnız başlayır və tələbələriniz artıq nikahdadırlarsa və ya nikaha hazırlaşırlarsa, bu mövzuda daha çox təlim vermək faydalı olar. Həmçinin uşaqlara tərbiyə ilə maraqlanırlarsa, bu mövzuya da vaxt ayırmaq yaxşıdır.

## İslamda ana

İslamda ananın dəyəri çox böyükdür. müsəlman oğulları anaya böyük hörmət göstərməli, anaya sadiq olmalıdırlar. Adətən, oğullar anaya daha çox emosional cəhətdən bağlıdırlar. Həmçinin ənənəyə görə, əksər müsəlman mədəniyyətində gəlin valideynlərinin evini tərk edir və ərinin ailəsinə gəlir. Kişi isə ailəsini tərk etmir. O, arvadından çox anasına bağlı qalır. Ana da əksər hallarda bu üstünlükdən istifadə edir. Dərsdə bu məsələlərə nəzər salırıq. Lakin bunlar ümumi hallardır və Qərb ölkələrində ailədə qohum əlaqələri o qədər də güclü deyil.

# 12-ci dərs

## Mübahisəli məsələlər və onların həlli

Bütün cəmiyyətlərdə yaşayan insanların mübahisəli məsələləri olur. müsəlman cəmiyyətləri istisna deyil. 7-10-cu suallarda mübahisəli məsələlərin pis yol ilə həlli təsvir olunur. Çox vaxt müsəlman cəmiyyətlərində qisas, boyun qaçırma və ya iyerarxiya üstün tutulur. Şayiələr də problemi çətinləşdirir. Əlbəttə, bu problemlər digər cəmiyyətlərdə də rast gəlir.

Bir çox müsəlman şərəf/xəcalət mədəniyyətlərində böyüyüb. Düzgün və ya səhv anlayışı onların yerli cəmiyyətindəki mövqeyindən asılıdır. Ailə cəmiyyətdə rüsvay olursa, qisas almaqla şərəfi bərpa etmək mümkündür. İsanın günlərində Şərqdə belə adətlər olub. Qərbdə yaşayanlar üçün isə İsanın bağışlamaq təlimi şəxsi səviyyədə tətbiq edilir. Lakin şərəf/xəcalət mədəniyyətində böyüyənlər üçün isə İsanın əmri bütün cəmiyyətə aiddir. Qisas isə ailədə nəsillər boyu davam edə bilər.

Məsihin davamçılarına əvvəlcə sevinclə qoşulandan sonra keçmişdə müsəlman olan imanlılar çox vaxt münaqişə ilə qarşılaşır və məyus olurlar. Şagirdlik prosesində bunu nəzərə almaq olduqca vacibdir. Mübahisəli məsələləri məhvedici deyil, bərpaedici yol ilə həll etməyin yollarını da öyrənmək lazımdır. 12-ci dərsdə bəzi təcrübi addımlar təklif olunur.

## Allahın emosiyaları varmı?

İslamda Yaradan Allah məxluqlarından ayrıdır və onlardan fərqlənir. müsəlmanlar insani hərəkətlərin Allahı şad və ya kədərli etdiyinə inanmırlar. Onlara görə, Allah bizim ağrımızı hiss etmir, çünki bu halda O, insani səviyyəyə enir və bizə bənzər olur. Məsihçilər isə inanırlar ki, insan bədənində gələn Məsih Allahı göstərdi; Məsih bizim səviyyəmizə enməyi və bizim kimi əzab çəkməyi könüllü seçdi. İsa Məsih güclü hisslər keçirdi (mərhəmət, qəzəb, sevinc, kədər) və bizə Allahı göstərdi. Keçmişdə müsəlman olan imanlılar bunu başa düşəndə Allah haqqında təsəvvürləri dəyişir, çünki O, ağrını hiss edir (11, 18-ci dərslərə bax.). Bizim günahlarımız Allahı kədərləndirir (12-ci dərs).

# 13-cü dərs

## Müsəlmanlar və şəhadət (Şahada)

Müsəlmanlar üçün şəhadət İslamın kəlmeyi-şəhadətidir (Şahada): “Allahdan başqa Allah yoxdur, Məhəmməd Onun rəsuludur”. Şahada – İslamın əsasıdır və müsəlmanların beş şərtindən biridir. Yeni doğulmuş körpənin qulağına kəlmeyi-şəhadəti pıçıldayırlar və gündə beş dəfə namazda təkrar edirlər.

Məsihçilərin şəhadəti isə İsa Məsihin ölülərdən dirilməsidir. O, həqiqətən, Rəbdir (Romalılara 10:9). Bu şəhadət məsihçiliyin əsasıdır. Buna görə də keçmişdə müsəlman olan imanlılara kəlmeyi-şəhadəti Məsihin dirilməsi və Rəbb olması ilə müqayisə etmək faydalı olar. Hərçənd, tələbələriniz İslamın terminindən istifadə etməyinizi bəyənməyə bilərlər, buna görə də onların istəklərinə həssas olun.

Əhdi-Cədiddə «şəhadət» üçün istifadə edilən yunan sözü «şəhid» sözü ilə eyni köklüdür. Ərəb dilində də belədir. Şəhadət (şahid) – şəhadət (Şahada) – şəhid ola bilər (şəhid). Keçmişdə müsəlman olan imanlılar üçün bu, hərfi məna daşıyır. Bəziləri imana görə ölüblər, məsələn, bu dərsdə adı çəkilən Mehdi Dibaj. Bir çox İranlı məsihçi ondan və başqa İranlı şəhidlərdən nümunə götürürlər. 13-cü dərs bunları əlaqələndirir və bu, tələbələr üçün faydalı ola bilər.

Keçmişdə müsəlman olan imanlılar müsəlman ailə üzvlərinə Məsih barədə necə, nə vaxt şəhadət etməli olduqlarına dair çaşqınlıq hissi keçirirlər. Onlar şəhadət etməkdən çəkinir və ya şəhadət etmədiklərinə görə özlərini təqsirkar hiss edə bilərlər. Tələbələr bu sahədə öz hissləri barədə danışanda çox emosional ola bilərlər; ailə üzvlərinin Məsihə gəlməsini çox arzulayırlar. İmkan verin onlar öz hisslərini ifadə etsinlər.

## Cəsarət, yoxsa ehtiyat?

Keçmişdə müsəlman olan bəzi imanlıların şəhadəti və ruhani böyüməsi zədələnib, çünki onlar başqalarına Məsih barədə söyləməkdən çəkinirlər. Başqaları isə çox cəsarətlidirlər və bu da lazımsız münaqişələrə gətirib çıxara bilər. Buna görə də təcrübəli məsləhətçilər keçmişdə müsəlman olan imanlıları tədricən şəhadət etməyə hazırlamalıdırlar. Onlar həmişəlik gizli qalmamalıdırlar. Məsihin davamçıları nə vaxt həqiqəti açmalıdırlar? Bu, şəraitdən asılıdır. Ailənin münasibətini, ölkədəki azadlığı nəzərə almaq lazımdır.

Həmçinin yadda saxlayın, «gizli» və «açıq» mövqe arasında bir ortaq nöqtə var. Keçmişdə müsəlman olan bir çox imanlı etibar etdiyi bəzi adamlarla açıq, digərlərinə isə qapalıdır. Bu, tədricən açılan bir prosesdir. Hərçənd, keçmişdə müsəlman olan imanlıları qohumları ilə iman barədə bölüşməyə öyrətmək lazımdır.

Şəhadətçilik mövzusu keçmişdə müsəlman olan imanlılar üçün çox vacibdir. 13-cü dərs bu məsələni izah edir, lakin bunlar tələbələr üçün fərdi tətbiq olunur. Buna görə də çoxlu müdriklik və dua tələb olunur.

## «Körpü» diaqramı

Diaqram №2 məşhur “körpü” diaqramına bənzəyir, lakin müsəlman mədəniyyətinə uyğunlaşdırılıb:

- Allahın şəkli verilmir.
- Allahı bizim səviyyədə deyil, yuxarıda göstərir.
- Körpü barədə deyil, doğru yol barədə danışır.

Bunu adi körpü diaqramı kimi də istifadə etmək olar. müsəlman anlamalıdır ki, Cənnətə keçmək üçün dar körpüdən keçməliyik. Bəzi müsəlmanlar hesab edirlər ki, bu körpü tükdən də nazikdir və bir çoxları Cənnətə keçə bilməyəcəklərinə görə narahatdırlar.

Biz izah edə bilərik ki, bizi bu körpüdən sağ-salamat keçirə bilən yeganə şəxs İsa Məsihdir. Niaqara şəlaləsindən nümunə buna kömək edir. İsa Məsih bizi Cənnətə aparmağı təklif edir, lakin biz Ona özümüzü etibar etməliyik. Bu dərsdə siz Niaqara şəlaləsinə aid qısa video göstərə bilərsiz.

Rəy verin! Lütfən, tələbələrinizə diaqramın hər iki variantını göstərin: şaquli (bu dərslikdə verildiyi kimi) və üfüqi (Cənnətə körpü). Onlardan məsləhət alın: müsəlmanlar üçün hansı diaqram daha aydındır? Lütfən, comefollowmekursu@gmail.com ünvanına bu barədə yazın və lazımdırsa, bu dərsliyi dəyişə bilərik.

# *14-cü dərs*

## Keçmişdə müsəlman olan imanlılar və vəftiz

Vəftiz keçmişdə müsəlman olan imanlılar üçün əhəmiyyətlidir. Bu, onların Məsihə və Onun cəmiyyətinə aid olduğunu göstərir. Onların müsəlman ailələri və cəmiyyəti vəftizi xəyanət hesab edirlər. Onların fikrinə görə, vəftiz olunan insan əvvəlki ailəsini inkar edir və hamıya böyük xəcalət gətirir. Bu, ailəni və cəmiyyəti çox qəzəbləndirir. Bəzi müsəlman ölkələrində onlar imanlını hətta öldürə də bilərlər.

Qərbdə təhlükə daha azdır, lakin əzab və rədd olunma hələ də, mümkündür. Bunu bilmək və ailənin şokunu, xəcalətini mümkün qədər azaltmaq vacibdir.

Buna görə də imanlını vəftizə hazırlayarkən yalnız ruhani tərəfi deyil, həmçinin sosial tərəfi də nəzərə almaq gərəkdir. İmanlı ilə növbəti məsələləri müzakirə edin:

- Onlar nə vaxt vəftiz olunmalıdırlar? (Adətən Allah bunu onlara Öz Ruhu vasitəsilə göstərəcək. Buna görə də onları tələsdirməyin. Vaxt gələndə isə onları ləngitməyin).
- Vəftizdə kim iştirak etməlidir? (Ən azı, yaxın və etibarlı dostlar. Bəs, məsihçi cəmiyyətinin başqa üzvləri necə? Bəs, müsəlman qohumlar necə? Bu sualları imanlı ilə müzakirə edin).
- İmanlı vəftiz barədə müsəlman ailəsinə əvvəlcədən deyəcəkmi? (Bu, əsasən, ailə vəziyyətindən asılıdır).
- Şəkil çəkiləcəkmi? Şəkillərin yayılmasına nəzarət olunacaqmı? (Rəqəmsal şəkillər və Facebook dövründə bu, çox vacib sualdır! Vəftiz şəkillərinin cəmiyyətdə yayılması imanlılar üçün təhlükəli ola bilər və ailələrinə xəcalət gətirər. Qadın imanlını bir kişi suda vəftiz edəndə şəklə çox ciddi nəzarət olunmalıdır. Lakin vəftizdən sonra qrup şəkli böyük problem yaratmaz).
- Keçmişdə müsəlman olan imanlı qadın sudan çıxanda yüngül görünməməsi üçün nə tədbir görülür? (Nazik paltar islananda bədənə yapışır. Qalın paltar geyinmək, sudan çıxan kimi dəsmala bürünmək lazımdır).
- Vəftiz barədə şəhadətnamə verilə bilərmi? (Qərbdə bu, problem deyil, lakin ciddi müsəlman ölkələrində həm vəftiz edən, həm də vəftiz olunan şəxs üçün təhlükəli ola bilər. Lakin vəftizin təsdiqi yaxşıdır. Bunu

müzakirə edin).

## İslamda dəstəmaz

İslamda gündə beş dəfə namazdan əvvəl dəstəmaz almaq mütləqdir. Hamamda çimmək və qüsl almaq təmizlənmək üçün nəzərdə tutulur. Yeni müsəlmanlara öyrədirlər ki, İslama gələndə onların günahları yuyulur. Qüsl bunun rəmzidir. İslamdan Məsihə gələnlər üçün isə vəftiz yeni həyatın rəmzidir.

# *15-ci dərs*

## İslamda şəriət və qanuna riayət

15-17-ci dərslər İslamdan Məsihə dönənlərə aid çox əhəmiyyətli mövzuya toxunur. İslamda qanun vacibdir. Doğrudan da, Ərəb dilində «şəriət» sözü adi "qanun" deyil, həyat tərzidir. müsəlman alimi Badru Katereqqa yazmışdı: şəriət – «müsəlmanların fərdi və ictimai həyatda riayəti üçün nəzərdə tutulan təfsilatlı qaydalardır". Şəriət müsəlmana "yeməyin qaydasını, qonağı qəbul etmək yolunu, satmağı, almağı, heyvanı kəsməyi, özünü təmiz saxlamağı, yatmağı, ayaq yoluna getməyi, ölkəyə rəhbərlik etməyi, ədalətli olmağı, dua etməyi" öyrədir (Katereqqa və Şənk: İslam və məsihçilik, Uzima Press, Keniya (1980), səh.67). Beləliklə, müsəlmanlar şəriət ilə təkcə öz həyatlarını deyil, həm də bütün cəmiyyəti və mədəniyyəti idarə edirlər. Qanuna itaət vasitəsilə onlar Allahın xeyir-dualarını bu həyatda, gələcək həyatda isə mükafatları almağa ümid edirlər.

İslamı tərk edənlər təfsilatlı qanundan azad olduqlarına sevinirlər, lakin bir çox sual qarşısında çıxılmaz vəziyyətdə qalırlar. Məsihçinin həyatında qanun nə əhəmiyyət daşıyır? Qanun əhəmiyyətsizdirsə, istədiyimizi edə bilərikmi? Qanun varsa, onun mahiyyəti nədir? Nə üçün biz «Məhəbbət qanunu»na riayət edirik: mükafat axtardığımıza görə, yoxsa minnətdarlığa görə? Nə vaxt oruc tutmağı və nə qədər nəzir verməyi necə müəyyən edə bilərik? Rəbb Məsihə hansı qaydalara görə riayət etməliyik?

Beləliklə, 15-17-ci dərslərdə verilən ilahiyyat Qərbdəki düşüncədən fərqlidir. Müəyyən mənada bu, Müqəddəs Kitabın ilahiyyatına yaxındır (baxmayaraq ki, Musanın Qanunu ilə və İslamın şəriəti arasında fərqlər mövcuddur). Əhdi-Ətiqdə Allahın Qanununun məqsədi, Fariseylərin ifratçılığı və İsanın yeni «Məhəbbət qanunu» keçmişdə müsəlman olan imanlılar üçün çox maraqlıdır.

Bu dərslərdəki məlumat sizin üçün yenidirsə, yeni imanlıdan sizə aydınlıq gətirmək üçün izahları xahiş edin. Keçmiş müsəlmanların bəziləri üçün biz məsihçilərin yeni şəriət ilə yaşadığımızı dərk etmək asan olur. Digərləri isə keçmiş həyatdakı təcrübələrinə görə şəriət sözünü xoşlamırlar. Lakin onlar yenə də bilməlidirlər ki, biz yeni Rəbbə xidmət edərkən istədiyimiz kimi yaşamağa azad deyilik.

## Müsəlmanlar və doğru yol

Hər gün müsəlmanlar dua edirlər: "Bizi doğru yol ilə apar". Onlar hesab edirlər ki, minlərlə peyğəmbər Allahın doğru yolunu öyrətmək üçün gəlmişdir. Quranda bu peyğəmbərlərin bəzilərinin adları çəkilir. Maraqlıdır ki, əksəriyyəti Müqəddəs Kitabdan götürülüb: Adəm, Nuh, İbrahim, Musa, Davud, İsa və digərləri.

Müsəlmanlar inanırlar ki, bütün peyğəmbərlər insanlara Allahın «doğru yolunu» və şəriəti göstərmək üçün gəlmişdilər. Buna görə də şəriətə riayət etməklə onlar mükafat və xeyir-dua əldə edə bilərlər. Hərçənd, biz doğru yolu tanıdığımız və bu yol ilə getmək istədiyimiz halda, bunu edə bilirikmi? Edə bilmiriksə, bunun səbəbi nədir? Bu, 15-ci dərsin ilahiyyatının başlanğıcıdır.

## «Böyük» və «kiçik» günahlar

Müsəlmanlar öyrədir ki, bəzi günahlar digərlərinə baxanda daha ciddidir. Allah yalan kimi «kiçik» günahlara fikir vermir, lakin «böyük» günahları cəzalandırır. Həmçinin insanın ürəyində pis niyyət olsa və bu niyyəti yerinə yetirməsə, bu, günah deyil. Məsihin təliminə görə isə ürəkdəki ehtiras artıq günahdır (13-cü suala bax.).

Bu dərs öyrədir ki, Məsihin müqəddəs qanunu çox yüksək tələblərə malikdir. Asan göründüyünə baxmayaraq, mənəvi cəhətdən Məsihin qanununa riayət etmək İslamın şəriətinə riayət etməkdən çətindir.

# *16-cı dərs*

## Müsəlmanların itaət etmək niyyəti

16-cı dərs Allahın qanunu barədə danışmaqda davam edir. Bu mövzu 15-ci dərsdə başlayır. Dərsin əvvəlində mükafat və ya cəza qorxusu səbəbi ilə Allahın qanununa itaət minnətdarlıq səbəbi ilə itaət ilə müqayisə olunur. müsəlman Məsihə gələndə bu, əsaslı tərzdə dəyişir.

Biz sevirik, çünki Allah əvvəlcədən bizi sevdi və Məsihin çarmıxda ölümü ilə bunu təsdiq etdi. Buna görə də cavabında biz «Məhəbbət qanunu»na riayət etmək istəyirik. Məhəbbət qanunu Allahı sevmək və qonşumuzu özümüz kimi sevmək deməkdir.

## Keçmişdə müsəlman olan imanlılar və düşmənçilik

Keçmişdə müsəlman olan imanlıların bir çoxu düşmənçiliyə böyük əhəmiyyət verən mədəniyyətdən gəlirlər. Qərbdə yaşayan məsihçilər isə evlərinə adamları qəbul etməyi öyrənməlidirlər. Keçmişdə müsəlman olan imanlı xəbərdarlıq etmədən evinizə gəlibsə, onu qəbul edəcəksinizmi? məsihçi cəmiyyətində adamlar keçmişdə müsəlman olan imanlıya bir ailədə olduqlarını söyləyirsə, yaşamağa yeri olmayan imanlını evinə qəbul edəcək, yoxsa küçədə qoyacaq?

# *17-ci dərs*

## Keçmişdə müsəlman olan imanlılar və şəriət qaydaları

Bu, 15-ci və 16-cı dərslərdə verilən təlimləri yekunlaşdırandan sonra Məsihin davamçılarına davranış barədə sual verir. Bizdə İslamda olduğu kimi, təfsilatlı qaydalar yoxdur.

İslamın iki «şərt»inə nəzər salırıq. Bu qaydalar müsəlmanlara dəqiq nə etməli olduqlarını deyir. Onlar Ramazan ayında gün çıxandan gün batana qədər oruc tutmalı və Zəkat (xeyriyyə vergisi) ödəməlidirlər. Bəs, Məsihin davamçıları nə etməlidirlər? Bu dərs Müqəddəs Kitaba uyğun prinsipləri öyrədir və müxtəlif məsihçi cəmiyyətlərinin fərqli davranışını təsvir edir. Beləliklə, bir müəllim kimi, öz məsihçi cəmiyyətinizdəki adəti tələbələrinizə öyrədin, lakin yadda saxlayın ki, imanlı bu prinsipləri dərk etməlidir. İmanlı dəqiq qayda istəyirsə, qaydanı ona söyləyin, lakin o bilməlidir ki, qayda onun həyatını idarə etməməlidir. Rəbb İsaya itaət etməyi və ilk növbədə Onun rəhbərliyinə itaət etməyi onlara öyrədin.

## Keçmişdə müsəlman olan imanlılar və Ramazan

Bir çox müsəlman ölkələrində Ramazan vaxtı bütün ailə birgə oruc tutur. Bu, birliyin rəmzidir. Xəbərdar olmalısız ki, Ramazan vaxtı keçmişdə müsəlman olan imanlılar xüsusilə öz ailələri üçün darıxırlar (həmçinin onlar Milad vaxtı ailələri üçün çox darıxırlar çünki bu vaxt məsihçilər öz ailələri ilə məşğul olurlar və əvvəllər müsəlman olan imanlılar tənha qalırlar və bayram etməyə bir yaxını olmur).

Keçmişdə müsəlman olan imanlılar hələ də öz müsəlman ailələrində yaşayırlarsa, Pərvinin sualı ciddidir: “Ramazanda oruc tutmaq lazımdır, yoxsa lazım deyil?” Bəzi məsihçilər hesab edirlər ki, oruc vasitəsilə ailəyə sədaqəti bildirmək mümkündür. İmanlı İslamın borcuna görə deyil, İsanın yolunda oruc tuta bilər. Bununla təqibə hədəf olmaqdan yan keçər. Digər məsihçilər isə inanırlar ki, bu məsələdə möhkəm durmaq və ailədən ayrı olmaq, aydın şəhadət etmək və yalandan vaz keçmək vacibdir. Lakin bu halda oruc tutmaqla yaxşı şəhadət göstərməyəndə müsəlmanlar məsihçiləri bu məsələdə tənbəl hesab etməyəcəklərmi?

Tələbələrlə müxtəlif nöqteyi-nəzəri müzakirə edin. Yadda saxlayın ki, çox şey ailədəki vəziyyətdən asılıdır. Onlar Ramazanda oruc tutmağı qərara alsalar, başqa vaxt Rəbb onları istiqamətləndirəndə oruc tutacaqlarmı?

## Müsəlmanlar və nəzir

Zəkat və ya xeyriyyə vergisi müsəlmanın illik kapitalından (illik gəlirindən deyil) təxminən 2,5%-ni təşkil edir. İldə bir dəfə bunu hesablamağın qaydası var. Adamlar haraya verəcəyini özləri sərbəst seçirlər və buna görə də ya kasıba kömək edirlər, ya da İslamın yayılmasını dəstəkləyirlər. Həmçinin bir çox müsəlman bu məqsədlə (və ya məscidin xərcləri üçün) il ərzində də nəzir verir.

# *18-ci dərs*

## Müsəlmanlar və fal

Müsəlman üçün «tale» və «fal» anlayışlarının vacib olduğunu bilən Qərb sakinləri təəccüblənəcəklər. İslamdan əvvəl bu anlayışlar bir çox mədəniyyətdə tarix boyu mövcud olub. Bugünkü qarışıq inanclar «xalq İslamı» adlanır. Həmçinin İslamın özündə Allah uzaqdadır. O, hər şeyi əvvəlcədən müəyyən edirsə və insanlar bunu dəyişə bilmirlərsə, həyatı tale idarə edir. Bundan başqa, Allah yüksəkdə olduğuna görə müsəlmanlar Onun qayğıkeşliyinə əmin deyillər. Buna görə də onlar daha yaxın olan başqa ruhani vasitələrdən kömək istəyirlər. Bütün bu faktorlar bu gün müsəlmanlara təsir göstərirlər.

Duaya cavab, ruhani qüvvə və ya gizli bilik axtarışı bəzi müsəlmanları cadugərliyə gətirib çıxarır. Məsihə

gələndən sonra onlar buxovlardan azad olmalıdırlar. Digərləri isə mədəniyyətin təsiri altında, məsələn, qollarında və ya maşınlarında “müdafiə” gəzdirirlər.

18-ci dərs bu mövzuya aid Müqəddəs Kitaba uyğun təlimi verir. Lakin səhv hərəkətlərə işarə etməkdənsə, bunun arxasında dayanan dünyagörüşünə nəzər salmaq gərəkdir. Keçmişdə müsəlman olan imanlılar bizim səviyyəmizə qədər enən (və ağrımızı hiss edən), bütün ruhani qüvvələrə üstün gələn (onlara qalib gələn) Məsihə tam etibar edirlərsə, ehtiyac vaxtı onlar başqasına deyil, Məsihin Özünə müraciət edəcəklər. Həmçinin Məsihin ölümü zülmət qüvvələrinə qalib gəldi və bizi şər qüvvələrdən qorxu hissindən azad edir.

## Müsəlmanlar və ruhani qüvvələr

Bir çox müsəlman inanır ki, «ruhani qüvvələr» bunlardır:

- Mələklər – (buraya Müqəddəs Kitabda adı çəkilən bəzi mələklər də aiddir, məsələn, Cəbrayıl). Hər kəsin yaxşı və pis əməllərini qeydə alan şəxsi mələklər;
- «Pis göz» – paxıllığın gözəgörünməz təsiri adamlara ziyan vura bilər. Məsələn, gözəl körpəyə göz dəyə bilər;
- Tale – adamların gələcəyi artıq yazılıb və onlar taleyi dəyişə bilməzlər;
- Cin – ruhani varlıqdır. Yaxşı ola bilər, lakin əksər hallarda şər ruhdur. Məsələn, xəstəliyə səbəb olur;
- Şər ruhlar – Müqəddəs Kitabdakı anlayışa uyğundur.

Qrupdakı tələbələr müsəlmanların şər təsirlərə qarşı gördüyü tədbirlər barədə məlumat verə bilərlər. Məsələn, adamlar və maşın üçün gözmuncuğu, yazılı dualar, üzərlik və s.

Müsəlmanlar həmçinin müqəddəs adamlarda və ya müqəddəs yerlərdə (müqəddəslərin qəbri daxil olmaqla) olan görünməz «xeyir-dualara» inanırlar. Bunlara toxunaraq onlar bu xeyir-duanı əldə etməyə çalışırlar. Bəzən adamlar pirdə olan ağaca sap və ya parça bağlayırlar və bu, duaları, yaxud əhdlərini xatırladır. Onlar kor-koranə onlara itaət edirlər və onlar vasitəsilə Allahı axtarırlar.

Bəzi müsəlmanlar müəyyən məqsəd ilə (şəfa və s.) sədəqə verirlər (məsələn, pul və ya bir heyvanı qurban kəsirlər). Bu, İbrahimin xatirəsinə ildə bir dəfə gətirilən qurbandan fərqlidir.

## Hüzrdə ehsan

Bir çox müsəlman mədəniyyətində hüzrə getmək, ev sahibi ilə oturub ona təsəlli vermək təbiidir. Bununla onlar dərdə şərik olduqlarını göstərirlər. Bu, Müqəddəs Kitabın dövründəki mədəniyyətə yaxındır (məsələn, Yəhya 11). Qərbdə bu gün belə adətlər qalmayıb.

Hərçənd, müsəlmanlar təsəlli verərkən «bu, Allahın işidir» deyirlər. Yəni biz öz taleyimizi qəbul etməliyik. 6-cı sualda biz qeyd edirik ki, keçmişdə müsəlman olan imanlı daha yaxşı təsəlli verə bilər. Bu təsəlli Allahın fərqli təsəvvüründən gəlir: Allah yaxın gələrək dərdimizə şərik olur.

# *19-cu dərs*

## Müsəlman mədəniyyətində ayaq yumaq

İsanın günlərində olduğu kimi, bir çox müsəlman elə mədəniyyətdə yaşayır ki, ayaqlar çox çirkli hesab olunur. Kiminsə yanında ayaq qaldırıb oturmaq və ya kiminsə üstünə ayaqqabı tullamaq böyük təhqirdir. Buna görə də kiminsə ayağını yumaq İsanın həlim nümunəsini göstərməkdir.

## Keçmişdə müsəlman olan imanlı qruplarında rəhbərlik məsələləri

Adətən, keçmişdə müsəlman olan imanlıların cəmiyyətlərində birlik olmur. Bu həm müsəlman ölkələrində, həm də, Qərbdə müşahidə olunur. Bir müsəlmanın Məsihin davamçısı olması çətindir; bunlar üçün bir yerdə toplaşmaq daha da çətindir. Yetkin rəhbərlik altında da bunların birliyi çətin məsələdir. Keçmişdə müsəlman olan imanlı qrupları üzərində rəhbərlik mövzusu çox vacibdir.

«Mənim ardımca gəlin» kursu yeni imanlılar üçün nəzərdə tutulur. Buna görə də rəhbərlik mövzusundan az bəhs edilir. Bu dərsdə bu mövzuya çox qısa toxunulur, lakin daha sonra, tələbələr hazır olanda siz bu mövzunu dərindən tədqiq edə bilərsiz.

# 20-ci dərs

## Müsəlmanlar, zəvvarlıq və cənnət

Müsəlmanlar üçün həyatda ən azı bir dəfə Məkkəyə zəvvarlıq etmək öhdəlikdir. Dünyada yaşayan müsəlmanların az qismi buna nail olsa da, bu, böyük şərəf hesab olunur. Bu kurs İslamın şərtlərinə istinad edir, lakin bunların dərinliyinə getmir, çünki keçmişdə müsəlman olan bəzi imanlılar İslam anlayışlarından tam dönməyi qərara alırlar.

Bu dərsdə məsihçinin səmaya zəvvarlığı İslamdakı zəvvarlıqla müqayisə olunur. İslamda səmalar bir çox ləzzəti olan cənnət kimi təsvir edilir. 20-ci dərsdə səmalarda əsas sevincin səbəbi Allah ilə olmaq və Onun yaxın hüzurundan əbədi ləzzət almaqdır. müsəlmanlar dar körpüdən cənnətə keçəcəklərinə inanırlar. Körpü tük kimi nazikdir və bu körpüdən cəhənnəmə aşmaq çox asandır.

## Yerusəlim və Sionizm

Müsəlmanlarla bu mövzunu müzakirə etmək asan deyil. Keçmişdə müsəlman olan imanlılar çox vaxt çaşqınlıqda qalırlar. Onların müsəlman tərbiyəsi Yəhudilərə nifrət etməyi və Sionizmə qarşı çıxmağı tələb edir. Lakin Məsihin davamçısı olandan sonra onlar Əhdi-Ətiqdə Allahın Yəhudilərlə bağladığı əhdi dərk etməli və «Sion» anlayışını qəbul etməlidirlər. Bundan başqa, onlar Yəhudilərə aid peyğəmbərliklərin müxtəlif məsihçi şərhləri ilə rastlaşırlar. Bəzi məsihçilər müasir İsrailin siyasətini dəstəkləyir və hətta Ərəbləri düşmən hesab edirlər. Keçmişdə müsəlman olan imanlılar İsrailə qarşı müsbət mövqe tutsalar, onların müsəlman qohumları onları xain hesab edəcəklər. Keçmişdə müsəlman olan imanlılar üçün bu, çaşqınlıq və əzab yaradır. Buna görə də onlar nə edə bilərlər? Bu dərs bu mövzuya çox qısaca toxunur. Siz də dərin getməməlisiz. Lakin bu mövzuya qarşı həssas olmağı unutmayın.

Zəvvarlığa aid olan 20-ci dərsdə müzakirə vaxtı Yerusəlim barədə sual verilə bilər. Bu gün Ərəblər və Yəhudilər Yerusəlimi ələ keçirməyə çalışırlar. Məsihin davamçıları kimin tərəfini tutmalıdırlar? Məsihçilərin fikri müxtəlifdir. Bəzi dəlillər bunlardır:

- Məsihin davamçıları həmişə ədalətin tərəfində olmalıdırlar. Həm Yəhudilərin, həm də Ərəblərin hərəkətlərini düzgün qiymətləndirməlidirlər.

- İsa duanın istiqamətini («qibləni») dəyişib. Buna görə də Yerusəlim imanımızın mərkəzi deyil.

- Bəzi Ərəblər Məsihə inanırlar; bəzi Yəhudilər Məsihə inanırlar. Müxtəlif xalqlardan olan Məsihin davamçıları bacı-qardaşdırlar.

# İkinci hissə:
# Dərsə aid göstərişlər

# Birinci görüş

| **Hər bir şagirdə aid məqsədlər:**<br>a. Bu kursu keçdiyinizə görə sevinin və həftənin ev tapşırığını yerinə yetirməyi unutmayın.<br>b. Hər dərsin ev tapşırığını necə yerinə yetirəcəyinizi öyrənin.<br>c. Dərslik kitabına görə pulu ödəyin və ya növbəti dərsə pulu gətirməyə söz verin. | **Hazırlayın:**<br>Hər tələbə üçün dərslik kitabını əldə edin. |
|---|---|

## *Dərsin əvvəlində*

**Giriş hissəsi:** Bu, yeni qrupdursa, hər kəsdən özünü təqdim etməyi xahiş edin. Onlar öz həyatları, işləri və ya ailələri barədə bir söz deyə bilərlər. Hərçənd, bəzi tələbələr qrupa etibar edənə qədər bir söz deməməyi üstün tuturlar. Problem deyil.

**Dua ilə başlayın:** Bu kursdan faydalanmaq üçün Allahdan kömək istəyin.

## *"Mənim ardımca gəlin" kursunu izah edin*

### "Nə?" – bu kursun məzmunu

**Kitabları öyrənin:** Dərslik kitabını hər tələbəyə verin.

*Yaxşı olar, onlar müəyyən miqdarda ödəniş etsinlər. Bu halda onlar kitabı daha çox dəyərləndirəcəklər. Lakin pul istəmək qərarını özünüz qəbul edin. Savadsız və ya zəif oxuyanlara aid məlumat əlinizdəki "Müəllimlər üçün vəsait"in birinci hissəsində, «Tez-tez verilən suallar» bölməsində verilir.*

**Dərslik kitabında Mündəricat səhifəsini açın:**
- Bir nəfərdən mövzuların siyahısını oxumağı xahiş edin.
- Tələbələrdən xahiş edin cütlərə bölünərək hansı dərslər ilə daha çox maraqlandıqları barədə bölüşsünlər və bunun səbəbini izah etsinlər? Sonra onlar bu barədə bütün qrup ilə bölüşsünlər.

### "Nə üçün?" – bu kursun məqsədi

**Kursun məqsədi bunlardır:**
- Bu kursun məqsədi bizə Məsihin davamçıları kimi böyüməkdə kömək göstərməkdir.
- Biz hamımız şagirdik; mən də, sizin kimi, şagirdəm. Birlikdə biz Allaha yaxın olmaq, Onu daha yaxşı tanımaq, Ona etibar etmək, Ona itaət etmək və Məsihin cəmiyyətində öz vəzifəmizi yerinə yetirmək istəyirik.
- Bunu izah edin: Bir qrup Əfqan birlikdə bu kursu öyrənəndən sonra onlar dedilər: "Bu kitabın yaxşı cəhəti odur ki, hər qardaş və bacı, gənc və ya yaşlı olmasına baxmayaraq, öz həyatlarındakı sualları, problem və dərdləri ilə açıq bölüşə bilərlər. Bu, tələbələrdə maraq yaradır və onlar sərbəst olurlar, yalnız özləri üçün deyil, başqaları üçün də dua edə bilirlər".
- Sual verin: "Bu Əfqan qrupu kimi, siz də birlikdə öyrənmək istəyirsinizmi?"

### "Necə?" – bu kursun üslubu

**Dərslik kitablarının 3-cü səhifəsini açın** və birlikdə diaqrama nəzər salın.

- İzah edin: Bu kurs üç üslubdan istifadə edir:
  1. Ev tapşırığı bizə təlimi yadda saxlamağa və başa düşməyə kömək edir;
  2. Müzakirə öz fikrimizi söyləməyə və digərlərindən öyrənməyə kömək edir;
  3. Ev tapşırığı gündəlik həyatımızda dərsi icra etməkdə kömək edir.
- Hər hissənin məqsədi nədir: ev tapşırığı, müzakirə və yeni ev tapşırığı.

  *Bu sual tələbələrə dərsin üslubunu anlamaqda kömək edəcək.*

**Dərslik kitablarının 6-cı səhifəsini açın:** Tələbə üçün göstərişlər.
- Hər tələbə bir cümləni oxumalıdır.
- Kimə isə məlumat aydın deyilsə, bunu söyləməyi xahiş edin.

# 1-ci dərs

**1-ci dərsi birlikdə açın:** Məsihin davamçısı olmaq barədə (1-ci səhifə).

- «Həyatımızın məqsədi» başlığı altında olan ilk iki paraqrafı oxuyun. Həmçinin növbəti nitqi oxuyun.
- Öz sözlərinizlə sual verin: həyatınızın məqsədi nədir? Müzakirə edin. Tələbələr öz fikrini söyləməlidirlər. Siz də, bir məsləhətçi kimi, öz fikrinizlə bölüşməlisiniz.
- Bir nəfər 2-ci sualı ucadan oxumalı, sonra isə cavab verməlidir. Dərsin sonunda verilən cavabların siyahısı ilə düzgün cavabı yoxlamağı tələbələrə öyrədin.

**Cavablarınızı yoxlayın:**

- Kitab sizin müəlliminizdir. Məhz buna görə o, sizə hər dərsin sonunda cavabları verir. Buna görə də siz öz cavablarınızı yoxlaya bilərsiz. Lakin bu, o demək deyil ki, siz cavabları kitabdan köçürməlisiz. Xeyr! Əvvəlcə öz cavablarınızı yazın, sonra isə onların düzgün olub-olmamasını yoxlayın.
- Cavab siyahısında «şəxsi cavab» və ya «müzakirə üçün» yazılırsa, suala düzgün cavab yoxdur, çünki hər kəsin öz fikri və təcrübəsi var.

**Müzakirə üçün suallar:**

- 1-ci dərsin cavablarının siyahısında 5-ci və ya 13-cü suallara cavab nədir?

  *«Şəxsi cavab». Hər kəs öz fikrini yazmalıdır. Tələbələr öz fikirlərini yazmalıdırlar və müzakirə vaxtı bu barədə danışmağa hazır olmalıdırlar.*
- Bu sualların cavabını yazmayıb, cavab yerini boş qoymalısınızmı?

  *Çox vaxt tələbələr öz fikirlərini yazmırlar. Buna görə də biz bunun vacibliyini vurğulayırıq.*
- Belə suallara şəxsi cavablarımız nə üçün vacibdir? Cavab yerini boş qoymaq olmazmı?

  *Yazanda biz bu barədə daha dərindən düşünürük və bunu daha yaxşı yadda saxlayırıq. Həmçinin müzakirə vaxtı digərləri ilə bölüşməyə artıq hazır oluruq.*

# Ev tapşırığı

**Dərslik kitabındakı dərsi hər həftə tamamlayın:**

- Növbəti görüşdən əvvəl, lütfən, 1-ci dərsi evdə tamamlayın.
- Axırda, lütfən, dərsə aid yoxlama işini yerinə yetirin. “Dərsə aid yoxlama işi”ndə olan suallar dərsdə artıq cavab verdiyiniz sualların yekunudur. Buna görə də biz sizə cavabları vermədik. Cavabları bilmirsinizsə, dərsə yenidən nəzər salın.

## *Dərsin sonu*

| **Birinci görüşü tamamlamaq üçün:** | **Birlikdə dua edin:** |
| --- | --- |
| • Sualı olan kəslərdən öz suallarını verməyi xahiş edin.<br>• Növbəti görüşün dəqiq vaxtını və yerini izah edin.<br>• Növbəti görüşdən əvvəl evdə 1-ci dərsi oxumağı tələbələrə xatırladın. | Bu kursun başlanğıcında hər birimizlə bu həftə ərzində danışmağı Allahdan xahiş edin. |

# 1-ci dərs: Məsihin davamçısı olmaq barədə

| Hər bir şagirdə aid məqsədlər: | Mədəniyyətə aid nümunələr: |
|---|---|
| a. Tələbənin Məsihin davamçısı olub-olmaması barədə bilməlisiniz.<br>b. O hələ Məsihin davamçısı deyilsə, bunun yolunu bilməlidir.<br>c. Əzbərləyin: Matta 11:28. | • Keçmişdə müsəlman olan imanlılarla başlanğıc addımları<br>• Yeni imanlılar və risklər<br>**Hazırlayın:** 15-18-ci suallar üçün video təklif olunur. |

## *Dərsin əvvəlində*

**Bugünkü dərs üçün dua edin.**

**1-ci dərsin sonundakı İCMAL bölməsində cavabları yoxlayın:**

**1-ci sual:** Matta 11:28-ci ayəni birlikdə əzbər deməyi məşq edin. Onu birlikdə oxuyun. Alınır?

**2-ci sual:** (1) günahdan; (2) qurban; (3) etibar; (4) cəmiyyətinə.

Tələbələrdən Müjdənin müəllifinin adını soruşun.

*3 və 4-cü suallara onlar növbə ilə cavab verə bilərlər. Yaxud onlar kitablarını dəyişib bir-birinin cavabını yoxlaya bilərlər.*

**Bugünkü mövzunu söyləyin:** Bu gün biz İsa Məsihin Şimon Peteri Onun davamçısı olmağa çağırdığı barədə oxuyacağıq və biz də Məsihin davamçıları olmağı öyrənəcəyik.

*İzah edin ki, hər sualı müzakirə etmək üçün kifayət qədər vaxt yoxdur. Lakin adamlar istənilən sualı anlamayanda sual verməyi onlardan xahiş edin. Həmçinin onlarda bu vaxta qədər yaranan sualları verməyi onlardan xahiş edin.*

## *Müzakirə*

### Giriş sözü (və 1-2-ci suallar)

**Giriş sözü:**
İki nəfərdən həyatın mənası barədə iki kişinin fikrini oxumağı xahiş edin. Müəllimin suallarını onlara verin.

- Həyatınızın məqsədi nədir? *Öz fikrinizi axırda söyləyin.*



### İsanın davamçısı olmaq barədə (3-4-cü suallar)

**3-cü sual: Birlikdə çərçivədə verilmiş ayələri oxuyun. Sual verin:**

- Ayəni bir nəfər öz sözləri ilə yenidən söyləsin. *Digərləri cavabları yazaraq boş yerləri doldura bilərlər.*
- Özünüzü Şimonun yerində təsəvvür edin. İsanın bu möcüzəsini görəndə nə hiss edərdiz? *Çox güman ki, cavablar bunlar olacaq: Onun qüdrətinə təəccüb. Onun yanında günahkar. Çağırılmağın şərəfi.*
- İsanın davamçısı olmaq üçün Şimon Peter hansı dörd addımı atdı? *1. Günahdan döndü. 2. Ödəyəcəyi qiyməti dərk etdi. 3. Özünü Məsihə etibar etdi. 4. Məsihin cəmiyyətinə qoşuldu.*

### Birinci addım: Günahdan dönmək (5-11-ci suallar)

**8-10-cu suallar:** 8-ci sualın birinci paraqrafını oxuyun. *Vaxt varsa, tələbələrdən xahiş edin, 151-ci səhifədə olan Əlavə 2-yə nəzər salsınlar və bunu bir-birinə izah etsinlər.*

- İki nəfərdən xahiş edin, İmran ilə Şaiqin sözlərini oxusunlar. *İki nəfərdən xahiş edin, İmran ilə Şaiqin sözlərini oxusunlar.*
- İmkan verin hər kəs özü barədə düşünsün. Biz daha çox kimə bənzəyirik: İmrana və ya Şaiqə? *Bunlardan hansının İsaya ehtiyacı var? Şaiqin. İsa kimi yuyub təmizləyəcək? Nə üçün? Şəxsi cavablardır.*
- Təəssüf ilə tövbənin arasında fərq nədədir? *9-cu suala baxın. Tövbə – yeni istiqamət, həyat tərzinin dəyişməsidir.*
- Şaiqin həqiqətən tövbə etməsini nədən bilərik? *Onun həyatı dəyişəcək.*

## İkinci addım: Qurban verməyə hazır olmaq (12-14-cü suallar)

**12-ci sual:**
- Sizcə, Şimon İsanın ardınca gedəndə nəyi qurban verəcəyini düşünürdü?
- Həyatınızda bu seçimi etmisinizmi?

*Bu qərarı qəbul etmisinizmi?*

*Tələbələr bir-birinə etibar edirlərsə, onlar bu suala açıq cavab verəcəklər.*

**13-14-cü suallar:** Çərçivədə verilmiş İsanın sözlərini oxuyun.
- Sizcə, bu hekayənin mənası nədir?
- 13-cü suala necə cavab verdiniz?
- İsanın ardınca gedərkən böyük qurbanlar verməyə dəyərmi?
- 14-cü suala necə cavab verdiniz?

*Məsihin ardınca gedəndə böyük qurbanlar verməli oluruq, lakin O, buna dəyər. O, ən yaxşı mirvaridən dəyərlidir! Onun ardınca getməyə dəyər.*

*O, bundan böyük qiyməti ödədi.*

## Üçüncü addım: Özünüzü Məsihə etibar edin (15-18-ci suallar)

**“Etibar” oyununu birlikdə oynayın:** *Bu, müəyyən yaşda və müəyyən xasiyyətdə olan adamlar üçün yaxşıdır. Hamı üçün yaramır. Bu oyunun tələbələrinizə uyğun olduğunu müəyyən edin. Yaxud, yutubdan Çarles Blondin barədə videoya baxın və oradan sualları götürün.*

Eyni cinsdə, eyni çəkidə və eyni hündürlükdə olan tələbələri cütlərə bölün. Bir nəfər Yıxılan, digəri isə Tutan olsun. Yıxılan ayaqlarını birləşdirib, arxası Tutana tərəf düz dayanmalıdır. Tutan əllərini açıb Yıxılanı tutmağa hazır olmalıdır.
- Yıxılan əvvəlcə Tutandan onun hazır olduğunu dəqiq bilməlidir və sonra bədənini düz tutaraq arxaya yıxılmağa başlamalıdır. Tutan onu vaxtında tutmalıdır!
- Tutan və Yıxılan şəxslər rollarını dəyişsinlər.

**Tutana etibar edin:**
- Özünüzü Tutana tam etibar edəndə nə hiss etdiniz?
- İsa Məsihə etibar etmək Tutana etibar etməyə bənzəyir. Əvvəlcə qorxuludur, lakin hər dəfə bizi tutacağına əmin olandan sonra Ona daha çox etibar etməyi öyrənirik.

**16-cı sual:** Üç nümunəni oxuyun. Yorğun uşaq, xəstə və sərnişin.
- Bu üç nəfər nə üçün bir-birinə etibar edir? Çünki onlar digər şəxsə etibar edirlər.
- Biz İsaya eyni yol ilə etibar edə bilərikmi? Bəli, O, hər bir insandan daha etibarlıdır.
- İsanın bizə nə edəcəyinə etibar edirik? Məsələn, günahlarımızı bağışlayacağına, həyatımıza gələcəyinə, xeyirxah işlər görmək üçün bizə qüdrət verəcəyinə, bizi müdafiə edəcəyinə, bizə istiqamət verəcəyinə, səmalara sağ-salamat catdıracağına.
- “Yıxılmaq” hərəkəti zamanı özünüzü necə hiss etdiniz. Həyatınızın hər bir sahəsində İsaya belə etibar edə bilərsinizmi? Şəxsi cavablar.

## Dördüncü addım: Məsihin cəmiyyətinə üzv olun (19-20-ci suallar)

**20-ci sual:** Müəllimin sözlərini oxuyun.
- Müəllim hansı üç növ adamı təsvir edir?
- Siz bunların hansına aidsiniz?



*Məsihin davamçıları, Məsihin davamçısı olmağa hazırlaşanlar, bu barədə düşünmək istəyənlər. Özünüz qərar verin: tələbələr bu suala açıq cavab versinlər, yaxud bu barədə sakitcə düşünsünlər.*

## Dərsin sonu

**Bugünkü təlimə riayət edin:** Bugünkü dərs sizə necə təsir göstərdi? **Ev tapşırığını birlikdə oxuyun.**
- Ev tapşırığını birlikdə etmək üçün bir dostunuz varmı?
- Növbəti həftə dərsdən əvvəl 2-ci dərsin cavablarını yazın.

**Birlikdə dua edin:**
Allaha şükür edin ki, biz İsa Məsihdə Onu şəxsən tanıya bilərik.

# 2-ci dərs: Məsihdə yeni həyat

**Hər bir şagirdə aid məqsədlər:**
a. Məsihdə yeni həyata görə sevinmək.
b. Əzbərləmək: 2Kor.5:17.
c. Yeni insanı, yeni doğulmanı və yeni təbiəti aldığımızı anlamaq.
d. Köhnə təbiətə qarşı ruhani döyüşdə iştirak etməyə hazır olmaq.

**Mədəniyyətə aid nümunələr:**
- Cihad
- Duanın pozaları

**Hazırlayın:**
19-cu suala aid video klip.

## Dərsin əvvəlində

**Bugünkü dərs üçün dua edin. Ötən həftənin ev tapşırığına nəzər salın:**
- Bir nəfər, lütfən, 1-ci dərsdən ev tapşırığını oxusun.
- Bu barədə diqqətlə düşündünüzmü? Biz bu barədə bugünkü müzakirə vaxtı danışacağıq.

**2-ci dərsin sonundakı İCMAL bölməsində cavabları yoxlayın:**

**1-ci sual:** a) yenidən; b) seçilmiş adamları

**2-ci sual:** köhnə, yeni

**3-cü sual:** şəxsi cavablar. Yoxlayın ki, bütün tələbələr öz kitablarında nə isə yazsınlar.

**4-cü sual:** Məsihdədirsə, yeni, köhnə, yeni

**Bugünkü mövzunu söyləyin:** Bu gün biz Rəbbimiz İsa Məsihin bizə verdiyi yeni həyat barədə öyrənəcəyik. Buraya yeni insan, yeni doğulma və yeni təbiət daxildir. Bu, maraqlıdır!

## Müzakirə

### Giriş sözü və 1-4-cü suallar

**1-4-cü suallar:** Birlikdə 1Peter 1:1-2-ni oxuyun. *Tələbələrin Müqəddəs Kitabı hələ yoxdursa, ayələri çap edin.*

Allahın istiqamətləndirməsi ilə bu məktubu kim yazıb? Həvari Peter. 1-ci dərsdə barəsində öyrəndiyimiz həmin Şimon Peterdir.
- Peter bu məktubu alan adamları hansı sözlərlə təsvir edir? «Allahın seçilmişləri»; həmçinin «yayılmış qəriblər». Onlar bu dünyada özlərini evlərindəki kimi hiss etmirlər.
- Evdən uzaqda, qərib olmaq nədir? Şəxsi cavablar. 3-cü suala baxın.

### Yeni insan (5-7-ci suallar)

**5-ci sual:** Bütün sualı oxuyun.
- Kimsə sizə heç kafir və ya mürtəd deyibmi? Özünüzü necə hiss etmisiniz? *Bunlar imanlılara adi hücumlardır.*
- Allahın gözündə siz kimsiz?
- “Allahın seçilmiş adamları” olmaq necədir? *Bu, əladır; xüsusilə, cəmiyyət bizi rədd edəndə.*

### Yenidən doğulma (8-13-cü suallar)

**8-ci sual:** Tırtıl ilə kəpənəyin şəklinə baxın. Onlar necə fərqlidirlər?
- Tırtıl kəpənəyə çevriləndə, əvvəlki məxluq olaraq qalır, yoxsa dəyişir?
- Bu nümunə İsa Məsihdə yeni doğulmaya necə bənzəyir?



*Müəyyən mənada eynidir, lakin “yenidən doğulduğuna” görə kəpənək tamamilə fərqli görünür, yüksəklərə uça bilir.*

*Müəyyən mənada biz əvvəlki kimi, adamlar olaraq qalırıq, lakin ruhani dəyişiklik daxilimizdə baş verir və bu, tırtılın kəpənəyə dönməsinə bənzəyir. Həyatımız fərqli olur və biz Allahın Ruhunda öz həyatımızı yaşayırıq.*

**11-ci sual:** Ayəni oxuyun (1Pet.1:3).

- Məsihin ardınca gedənlərə yeni həyatı kim verir?
- O, bunu nə üçün edir?
- Bu yeni doğulma bizə nə verir?

*Allah Özü, Rəbbimiz İsanın Atası.*
*Böyük mərhəmətinə görə.*
*Canlı ümid. Biz Məsihdə yeni həyatımızı arxayın yaşaya bilərik. Bu həyat hətta ölümdən sonra belə, davam edəcək.*

**12-ci sual:** Həkimin sözlərini oxuyun və üç nəfərdən üç cavabı oxumağı xahiş edin:

- İsa kimi bir həkimi təsəvvür edin. O, ruhani cəhətdən xəstə olan adamlara yeni doğulmanı təklif edir.
- Xəstə A necə adamdır?
- Xəstə B necə adamdır?
- Xəstə C necə adamdır?
- Biz ruhani cəhətdən yenidən necə doğuluruq?



*A: Məsihə inanır, lakin Onun davamçısı olmaqdan qorxur.*
*B. Məsihə heç iman etmir.*
*C. Məsihin təklifinə iman edir və Ona etibar edir, Onu öz həyatına qəbul edir.*

*Məsihin təklifini qəbul etməklə, xəstə C kimi Ona etibar etməklə. Biz Ona deyirik: "Lütfən, qəlbimə daxil ol". 13-cü suala bax.*

**13-cü sual:** Nitqi oxuyun. *İsanı hələ qəbul etməyən tələbələri sizə yaxınlaşıb təklikdə söhbət etməyə dəvət edin.*

## Yeni təbiətimiz (14-16-cı suallar)

**14-15-ci suallar:** Müxtəlif tələbələr müxtəlif şərhləri oxuya bilərlər.

- Bəs, biz necə? Məsihin davamçıları olandan sonra bizim hisslərimiz və ya xasiyyətimiz necə dəyişib? 15-ci suala aid nə yazmısınız? *Tələbələrin yadına salın dərs vaxtı öz cavablarını yazsınlar ki, indi bölüşməyə hazır olsunlar. Məsihin davamçısı olmayan tələbə bu suala cavab verə bilməz, lakin onlar imanlının həyatında gördüyü dəyişikliklər barədə bölüşə bilərlər.*
- Bundan sonra və ya dərsin sonunda həyatınızdakı bu dəyişikliklərə görə birlikdə Allaha şükür edin.

## Ruhani döyüş (17-20-ci suallar)

**17-18-ci suallar:** 18-ci sualın şəklinə baxın.

- Adamlardan hansı köhnə təbiəti göstərir?
- Köhnə təbiətə aid hansı xüsusiyyətlərlə mübarizə aparırsınız?
- 17-ci suala aid ayəni oxuyun. Köhnə təbiətimizə qarşı müharibədə qalib olmaq üçün nə etməliyik?



*Paltar kimi, köhnəni çıxarıb təzəni geyinməliyik.*

**19-cu sual:** Fermer barədə məsəli oxuyun.

- Keçilər nəyi təmsil edirlər? *Onlardan yeni təbiəti kim göstərir?*
- Qara keçini necə yemləyirsiz?
- Ağ keçini necə gücləndirmək olar?

*Variant: Qara və ağ keçilərin döyüşməsi barədə video göstərin. Yutubda axtarın: "Goat bucks fighting" və ya bu ünvana keçin: http://www.youtube.com/watch?v=HG24G-dGzrQ*

*Bir məsləhətçi kimi, siz də öz çətinlikləriniz barədə bölüşün. İzah edin ki, bu, davam edən bir döyüşdür. Allah Öz Ruhu ilə bizdə yaşayır və bizə qalib olmaq üçün qüvvət verir. Flp.4:13.*

**Birlikdə ayəni əzbərləyin:**
Kim Məsihdədirsə, yeni yaradılışdır, köhnə şeylər keçib-getdi, təzə şeylər gəldi! (2Kor.5:17).

## *Dərsin sonu*

| **Bugünkü təlimə riayət edin:** **Ev tapşırığını birlikdə oxuyun.** | **Birlikdə dua edin:** |
|---|---|
| Bugünkü təlim həyatınızı necə dəyişdi?<br>Ev tapşırığını yerinə yetirməkdə davam edin! Bu, həqiqətən, vacibdir. Hər həftə öyrəndiklərinizlə bölüşməyə hazır olaraq dərsə gəlməyiniz çox vacibdir. | Bizi dəyişən Allaha şükür edin və hər gün ruhani döyüş üçün Ondan kömək istəyin. |

# 3-cü dərs: Ata Allah

**Hər bir şagirdə aid məqsədlər:**
a. Ata Allah ilə ünsiyyətdən zövq almaq.
b. Nə üçün Məsihin davamçıları İsanı "Allahın Oğlu" deyə çağırırlar? Bunu sadə dildə başa salmağı bacarmalıdırlar.
c. 1Yəh.3:1-i əzbərləyin.
d. Ata Allahın şərtsiz, təmənnasız məhəbbətini dərk etmək və bu məhəbbətlə uşaqları sevmək.

**Mədəniyyətə aid nümunələr:**
- Allaha «Ata» demək.
- Allaha yaxın olmaq.

**Hazırlayın:**
Dərsin sonunda «Atanın məhəbbət məktubu» adlı videoklip və ya bir mahnı.

## *Dərsin əvvəlində*

**Bugünkü dərs üçün dua edin. Ötən həftənin ev tapşırığına nəzər salın:** Köhnə təbiətinizdən üç pis vərdiş ilə mübarizə apardınızmı? Bu, necə idi? Var gücünüzlə mübarizə apardınızmı? İrəliləyiş oldumu?

**3-cü dərsin sonundakı İCMAL bölməsində cavabları yoxlayın:**
**1-ci sual:** a) Ata; b) Ata **2-ci sual:** a) Düz; b) Düz; c) Düz
**3-cü sual:** məhəbbət, övladları.

**Bugünkü mövzunu söyləyin:** müsəlmanlar hesab edirlər ki, Allaha "Ata" deyərək müraciət etmək Ona şərik qoşmaqdır (bax. «Mədəniyyətə aid nümunələr»). Lakin ruhani mənada bu, mümkündür. Məsihin davamçıları kimi, bu, bizim üçün böyük şərəfdir.

## *Müzakirə*

### İsa Allahı "Ata" adlandırırdı (3-9-cu suallar)

**4-cü sual:** Ayələri oxuyun.
- Neçə «Oğul» və «Ata» sözünü qeyd etdiniz?
- Nə üçün bizim müsəlman dostlarımız "Oğul" və "Ata" anlayışına etiraz edirlər?

- *4 dəfə Oğul, 4 dəfə Ata olmalıdır.*
- *Onlar zənn edirlər ki, məsihçilərin təliminə görə, Oğulu dünyaya gətirmək üçün Allahın qadın ilə cinsi yaxınlığı olub. Lakin bu, məsihçilər üçün də təhqirdir.*

**6-cı sual:** Əhdi-Ətiqdə Allaha xüsusilə yaxın həyat yaşayan, Allahın bəzi xüsusiyyətlərini göstərən və ya Onun səlahiyyəti ilə hərəkət edən adamlara "Allahın oğulları" deyildiyini gördük.
- Bu ayələrdə hansı sözlər İsa Məsihin Allaha Ata kimi yaxın olduğunu göstərir?
- Hansı ifadələr İsa Məsihin Atası kimi Allahın xüsusiyyətlərini əks etdirdiyini göstərir?
- Hansı ifadələr İsa Məsihin Atası kimi Allahın səlahiyyətində hərəkət etməsi barədə danışır?

- *"Ata Oğulu sevir və Özünün etdiyi hər şeyi Ona göstərir".*
- *"Ata nə edərsə, Oğul da onu edər". "Atanın Özündə həyat olduğu kimi Oğula da Özündə həyat olmağı bəxş etdi".*
- *"Oğula hörmət etməyən Onu göndərən Ataya da hörmət etmir". "Hökm çıxarmaq səlahiyyətini də Ona verdi".*

**7-ci sual:** Birinci paraqrafı oxuyun.
- Öz mədəniyyətinizdə elə olur ki, kiməsə «oğul» deyirsiz, əslində isə bu, fiziki məna daşımır?

**8-ci sual:** Birinci paraqrafı oxuyun.
- İsa Məsihin hansı sözü Allah ilə eyni təbiətə malik olduğunu göstərir? *«Məni görən də Məni Göndərəni görür».*

**8-ci sualın qalan hissəsini oxuyun.** *İki nəfərlik qruplara bölünün. Bir nəfər Məsihin davamçısının rolunda olmalıdır. Üç dəqiqə ərzində digər şəxsə qısaca izah edin (sanki, o, qeyri-məsihçidir): nə üçün biz İsa Məsihə «Allahın Oğlu» deyirik. İndi rollarınızı dəyişin; ikinci şəxs digərinə eyni izahı versin.*

## Biz də Allaha “Ata” deyə bilərik (10-18-ci suallar)

**11-ci sual:** 1Yəh.3:1-i, sonra isə 11-ci sualın birinci paraqrafını oxuyun.

- Biz İsa Məsihə “Allahın Oğlu” deyə bilərik. Məsih vasitəsilə Allaha “Ata” deyəndə etdiyimiz irəliləyişi müzakirə edin.
- Nə üçün biz Allahı ruhani mənada “Ata” çağıra bilərik?

*Çünki Allah bizi “böyük Qardaşımız” İsa vasitəsilə Öz ruhani övladları kimi qəbul edib.*

**Əzbərlədiyiniz 1Yəh.3:1-ci ayənin praktiki cəhətinə nəzər salın.**

- Hər sözü bir kağız parçasında yazın və bunları qarışdırın.
- Sözləri düzgün qaydada düzüb ayəni bir daha söyləməyi tələbələrdən xahiş edin.
- Sonra 2 və ya 3 sözü götürün və ayəni bir daha söyləyin.
- Bütün sözləri götürənə qədər bunu davam edin. Tələbələr bütün ayəni əzbər deməlidirlər.

**12-ci sual:** Bütün sualı oxuyun.

- İnsani atamızın məhəbbəti ilə Səmavi Atanın məhəbbəti arasında fərq nədir? *İnsani ata bizi nailiyyətlərimizə görə sevə bilər, Səmavi Atamız isə bizi olduğumuz kimi sevir.*
- Allah bizi həmişə sevir, yoxsa biz yaxşı davrananda? *Həmişə.*
- Öz övladlarımızı biz həmişə sevməliyik, yoxsa onlar yaxşı davrananda? *Həmişə.*

**13-cü sual (a):** Yer üzündəki ata ilə heç kimin mükəmməl münasibəti olmur.

- Uşaqlıqda yer üzündəki atanız necə olub?

*Adamları öz həyatından xatirələrlə bölüşməyə ruhlandırın, lakin həssas olun, çünki bəzi tələbələrdə mənfi xatirələr ola bilər, onlar ataları barədə hörmətsiz sözlər demək istəməzlər.*

**13-cü sual (b):** 13-cü sualın ikinci və üçüncü paraqrafını oxuyun.

- Allahın bizimlə oğulu yerə yıxılmağa qoyan ata kimi davranmasından qorxuruqmu?

*İmkan verin tələbələr qorxu hissləri barədə olduğu kimi danışsınlar. Sonra onları əmin edin ki, Allah heç vaxt bizi pis vəziyyətdə qoymaz! O vəd edib: «Səni heç vaxt atmaram, səni heç vaxt tərk etmərəm» (İbr.13:5).*

**14-15-ci suallar:** 15-ci sualda ayələri oxuyun (Luka 15:20-24). *O, ailəyə şərəfsizlik gətirən oğlunu qəbul edir.*

- İsanın hekayəsində atanın hansı cəhəti gözəldir? *Allah sevən ata kimidir. Şərəfsizlik etsək belə, O, bizi qəbul edir, bağışlayır!*
- Sizcə, İsa Məsih bu hekayədə bizə Allah barədə nə öyrədir?

**16-cı sual:** Nazirin hekayəsini oxuyun.

- Nazirin vəziyyətində kim olub? Ola bilsin, onlar hələ rədd olunmayıblar. *Lakin ailə onların məsihçi olduğunu biləndə bu ola bilər.*
- Nazirin atası ilə Səmavi Atamız arasında fərq nədədir? *Səmavi Atamız heç vaxt bizi rədd etməz!*

**18-ci sual:** Bütün sualı oxuyun. Zəburdan bu ayəni birlikdə təkrarlayın.

**«Ata-anam məni atsa belə, Rəbb məni qəbul edər».**

### *Dərsin sonu*

**Bugünkü dərsin təliminə riayət edin:** Bugünkü dərs həyatınızı necə dəyişdi? **Ev tapşırığını birlikdə oxuyun.**

- Ev tapşırığını birlikdə etmək üçün bir dostunuz varmı?
- Ev tapşırığını yerinə yetirməkdə davam edin!

**Axtarın:** «Atanın məhəbbət məktubu» yutubda müxtəlif dillərdə var.

**Yaxud mahnı oxuyun:** Atanın məhəbbəti barədə mahnı.

**Birlikdə dua edin:** Allaha təşəkkür edin ki, biz Ona yer üzündəki atamızdan da çox etibar edə bilərik. Hətta valideynlərimiz bizi rədd edəndə belə, O, həmişə bizi qəbul edir.

# 4-cü dərs: Müqəddəs Ruhun qüdrəti ilə Məsihə itaətli olmaq barədə

**Hər bir şagirdə aid məqsədlər:**
a. Fikirilərinizdə, sözlərinizdə və əməllərinizdə Rəbbə itaət etməyi qərara almaq.
b. Əzbərləmək: 1Peter 1:15.
c. Allahı Üçbirlikdə qismən izah edən nümunəni gətirmək.
d. Müqəddəs Ruh ilə daha çox dolmağı arzulamaq.

**Mədəniyyətə aid nümunələr:**
- Üçbirliyi təcrübədə yaşamaq
- Qurban və əhd
- Sufi düşüncəsində şagirdlik
- Müsəlmanlar, Müqəddəs Ruh və Cəbrayıl

**Hazırlayın:** Əyani vəsaitlər: stəkanlar, sini və ya tas, kiçik çirkli daşlar, bir səhəng su.

## *Dərsin əvvəlində*

**Əyani vəsaitlə başlayın:** *Çirkli daşlar ilə dolu stəkana su tökün.*
Bu suyu kim içər? Nə üçün içməz? Biz bunu daha sonra müzakirə edəcəyik.
*Çirkli stəkanı hələlik bir kənara qoyun. Hamı üçün stəkanlara təmiz su tökün.*

**Bu həftənin dərsi üçün dua edin. Ötən həftənin ev tapşırığına nəzər salın:** Uşaqlara şərtsiz və təmənnasız məhəbbət göstərməyin hansı yollarını tapdınız? Bunu həyatda necə tətbiq etdiniz?

**4-cü dərsin sonundakı İCMAL bölməsində cavabları yoxlayın:**
***1-ci sual:*** bütün cavablar düzdür ***2-ci sual:*** b)
***3-cü sual:*** Sizi çağıran Allah müqəddəs olduğuna uyğun olaraq siz də bütün həyat tərzinizdə müqəddəs olun. (1Pet.1:15). ***4-cü sual:*** b)

**Bugünkü mövzunu söyləyin:**
Rəbb İsa və Onun Ruhunun həyatımızda necə işlədiyi barədə öyrənəcəyik. Həmçinin Ata, Oğul və Müqəddəs Ruhun birlikdə vahid Həqiqi Allah olduğu barədə öyrənməyə çalışacağıq.

## *Müzakirə*

### İsa Məsih həyatımızda işləyir (2-6-cı suallar)

**4-cü sual:** Birinci paraqrafı oxuyun.
- «Əhd» nə deməkdir?
- Allah bizimlə bu əhdi necə bağladı?
- Biz Allah ilə Onun adamları kimi əhd bağlamışıqsa, bunun mənası nədir?

İkinci paraqrafı oxuyun, «bu əhd…» sözləri ilə başlayın.
- Bu cümlənin bizim üçün mənası nədir?

*Əhd qərar və həsr olunmaqdır, razılaşmadır; bunu pozmaq olmaz. (bax. 3-cü sual)*
*Çarmıxda bizə görə tökülmüş Məsihin qanı vasitəsilə.*
*Allah Öz tərəfindən əhdi pozmayacaq. Biz də əhdi pozmamalıyıq. Biz Onun seçilmiş adamlarıyıq.*
*Biz İsaya müqəddəs adamın şagirdindən daha çox bağlı olmalıyıq. Çünki Məsih istənilən müqəddəs insandan bizim üçün daha çoxunu edib!*

**5-ci sual:** Üç şəklə baxın.
- Sizcə, hansı çox vacibdir: Rəbb İsaya əməldə, sözdə və ya düşüncəmizdə itaət etmək? *Bunların üçü də çox vacibdir və biz heç birini kənara qoymamalıyıq!*
- Məsih sizə Ona fikirlərinizdə, sözlərinizdə və ya əməllərinizdə itaət etməkdə necə yardımçı olub?

### Bizim həyatımızda Müqəddəs Ruhun işi (7-12-ci suallar)

**8-ci sual:** İkinci paraqrafı oxuyun.
- Müqəddəs Kitabın təliminə görə, Müqəddəs Ruh kimdir?
- Məsihin davamçısı olduğunuza görə həyatınızda Allahın hüzuru əvvəlkindən daha realdırmı? Lütfən, öz təcrübənizlə bölüşün.

*Dünyada və xüsusilə Məsihin davamçılarında fəal olan Allahın şəxsi hüzuru.*

**11-ci sual:** Birinci paraqrafı oxuyun.



- Birinci (a) hissəyə aid hansı cavabı yazdınız?
- İkinci (b) hissəyə aid hansı cavabı yazdınız və nə üçün?
- Bu dərsin nümunələri sizə necə faydalı oldu?

*a) Elmi cəhətdən, şüa və ya istilik olmasa, biz günəşi görə və ya hiss edə bilmərik.*
*b) Allah Öz Oğlunu göndərməsəydi, biz Onun necə olduğunu bilməzdik. Allah Öz Ruhunu göndərməsəydi, biz Onunla təcrübədə yaşaya bilməzdik?*

**Üçbirlik barədə:** 1Peter 1:2-9-u oxuyun.

*Bu ayələr bizə, Allahın Üçbirliyini dərk edə bilməsək də, təcrübədə yaşamağın mümkünlüyü barədə öyrədir.*

- 2 və 3-cü ayələrdə Ata Allah, Allah Ruh və Oğul Allah bizim üçün nə edib?
- 5-ci ayə: Yer üzündə yaşayarkən bizi nə qoruyur?
- 6-cı ayə: Hətta sınaqlarda belə, nə etməliyik?
- Biz Allahı görə bilmirik və Onu Üçbirlikdə tam anlamırıq.

*Ata: Bizi əvvəlcədən tanıdı, seçdi, baxmayaraq, biz Onu tam dərk etmirik. Allah bizə yenidən doğulmanı verdi. İsanın Qanı bizi təmizləyir. Onun Ruhu Oğula itaət etməyimiz üçün bizi təqdis edir.*
*Allahın qüdrəti.*
*Biz sevinməliyik.*
*Lakin buna baxmayaraq, Ona qarşı nə hiss edirik? (8-9-cu ayələr). Biz Onu sevirik, biz Ona inanırıq, "təsvirolunmaz və izzətli sevinc"lə doluruq, xilası qəbul edirik.*

**12-ci sual:** Birinci paraqrafı bütöv oxuyun.

- Bu günə qədər Müqəddəs Ruh bu siyahıdakılardan sizi nəyə qadir edib?
- Beləliklə, Allahın Ruhunun həyatımızda fəal olması zəruridir, yoxsa seçimdir?

## Müqəddəs Ruh bizi müqəddəs edir (13-16-cı suallar)

**Əyani vəsaitlərlə davam edin:** *Daşlarla stəkanı götürün, deyin:*

Heç kim bu çirkli suyu içmək istəmir! *Bu stəkan kimi, həyatımız günah və xəcalət ilə doludursa, təmizlənməliyik.*

- Bu stəkanı necə təmizləmək olar? *Daşları atmaq, təmiz su ilə stəkanı yumaq – bunu göstərin: daşları çıxarın və təmizlənənə qədər stəkana su tökün (dolub daşdırın).*

**14-cü sual:** Bütün sualı oxuyun.

- Sizcə, müqəddəs olmaq nə deməkdir? Nümunə gətirin.

*Tam müqəddəs olmaq üçün Allah kimi olmalıyıq! Məsələn, fikirlərimiz təmiz olmalıdır, digər adamları ruhlandırmalıyıq, pislik etməməliyik və s.*

**15-ci sual:**

- Məqsədimiz hansı standart olmalıdır?
- İnsan Allah kimi müqəddəs ola bilərmi?
- Daha əvvəl oxuduğumuza görə, bizi kim müqəddəs edir?

*Allahın standartı – O, müqəddəs olduğu üçün biz də müqəddəs olmalıyıq.*
*Xeyr, öz gücümüzlə bu, qeyri-mümkündür. Bir çox dinlərdə adamlar müqəddəs olmağa çalışırlar və buna nail olmayanda çox məyus olurlar.*
*Allahın Ruhu bizi müqəddəs edir (2-ci ayə). Çirkli stəkanı yuyan təmiz su kimi, biz də Onun Ruhu ilə təmizlənirik.*

**16-cı sual:** Ayəni əzbərləyin (1Pet.1:15) və əllərinizi qaldırıb birlikdə dua edin, Allahdan sizi Ruhu ilə doldurmağı xahiş edin.



## Müqəddəs Ruh bizim həyatımızı doldurur (17-20-ci suallar)

**20-ci sual:** 20-ci sualı oxuyun. *Bu paraqrafı stəkan və sudan istifadə edərək nümayiş etdirin. Səhəngdəki sudan və çirkli stəkanlardan istifadə edin. Daşan su yerə tökülməsin deyə, altına qab qoyun.*

Biz dua edəndə və hər gün Allaha yaxın yaşayanda O, Öz Ruhu ilə bizi doldurur. Bəzən O, bizi tez, bəzən isə tədricən doldurur. O, bizə daim Ruhla dolu olmağı əmr edir. Hər gün biz Müqəddəs Ruh ilə daha çox dolmalıyıq!

## *Dərsin sonu*

Bugünkü təlimə riayət edin:
Bugünkü təlim həyatınızı necə dəyişdi?
**Ev tapşırığını birlikdə oxuyun.**
Müqəddəs Kitab və ya Əhdi-Cədidiniz varsa, növbəti həftə dərsə gətirin. *Mümkünsə, tələbələrə doğma dilində Müqəddəs Kitabı və ya Əhdi-Cədidi əldə etməyə kömək edin.*

**Birlikdə dua edin:** İndi Allaha həyatda bizi murdar edən bütün «çirkli daşları» etiraf etməyin vaxtıdır. *Adamlara sakitlikdə bir qədər vaxt keçirmək imkanı verin. Hər kəs öz günahlarını etiraf etməlidir.* Bunu göstərmək üçün daşlardan istifadə edə bilərsiniz. Allahdan xahiş edin ki, Müqəddəs Ruh bizi təmizləsin, bizi müqəddəs etsin və dolub-daşdırsın.

# 5-ci dərs: Allah ilə ünsiyyət

**Hər bir şagirdə aid məqsədlər:**
a. Hər gün və bütün gün ərzində Allah ilə danışmağa qadir olmaq.
b. Duanın bir adət deyil, Allah ilə ünsiyyət olduğunu anlamaq.
c. Duanın növbəti hissələrini öyrənmək: etiraf, minnətdarlıq və xahiş.
d. Rəbbin Duasını əzbərləyin.

**Mədəniyyətə aid nümunələr:**
- Duanın ilahiyyatı
- Sufi meditasiyası
- Müsəlmanlar, dua və dəstəmaz
- Dua siyahısının tərtibatı

**Hazırlayın:** fəaliyyətlərə aid başlıqlar (14-cü sual), kağız və ya kiçik kartlar, qələmlər, qayçı, yapışqan.

## *Dərsin əvvəlində*

**Birlikdə dua edin. Ötən həftənin ev tapşırığına nəzər salın:** Hər gün duada Allahdan sizi Müqəddəs Ruh ilə doldurmağı xahiş etdinizmi? Müqəddəs Ruhu gündəlik həyatınızda necə gördünüz?

**Ötən həftə əzbərlədiyiniz ayəni təkrar edin (1Pet.1:15):** Hər kəsdən xahiş edin ayəni təkrarlasın.

**5-ci dərsin sonundakı İCMAL bölməsində cavabları yoxlayın:**

**1-ci sual:** a)

**2-ci sual:** üzr, minnətdarlıq, xahiş (istənilən ardıcıllıqla).

**3-cü sual:** daim dua edin.

**4-cü sual:** Rəbbin duası, 14-cü sualdakı kimi.

**Bugünkü mövzunu söyləyin:** 1-ci sualdakı şəklə baxın. Allah böyük Padşah kimidir. O, bizi nə üçün dinləyir? Çünki *O, Səmavi Atamızdır, bizi sevir və övladlarını eşitməyi xoşlayır!*

## *Müzakirə*

### Ata Allah ilə söhbət (2-5-ci suallar)

**3-cü sual:** Birinci paraqrafı oxuyun.
- Nə üçün bizə Allah qarşısında müqəddəs adamın vəsatətçiliyi gərək deyil? *Biz Allahın ruhani övladlarıyıq; buna görə də, Ona yaxınlaşmağa hüququmuz var!*

**4-cü sual:** Birinci paraqrafı oxuyun.
- Bu cavabların hansını qeyd etdiniz? *Biz hər şey barədə Allah ilə söhbət edə bilərik!*
- Allah ilə nə barədə söhbət etməyə çətinlik çəkirsiniz? Nə üçün?

### Adət və şəxsi dua (6-10-cu suallar)

**9-cu sual:**
- Hansı səbəblərə görə adamlar ənənəvi duaları edirlər? Nə üçün onlar sərbəst dua edirlər? *Məsələn, adamlar namaz qılaraq Allahı razı salmağa çalışırlar. Sərbəst duanı ehtiyaca görə edirlər.*
- Dua edərkən əsas niyyətimiz nə olmalıdır? *Allaha yaxınlaşmaq və Ona yaxın həyat yaşamaq.*

**10-cu sual:** Birinci paraqrafı və ayəni oxuyun (1Pet.1:8).
- Bu «təsvirolunmaz və izzətli sevinci» heç hiss etmisinizmi? Hisslərinizi təsvir edin.
- Bəzi adamlar Allaha yaxın olmaq üçün fırlanırlar (dikr və ya zikr). Biz Allahın ürəyini necə tanıyırıq? *İsa Məsih vasitəsilə. Atanın ürəyinə aparan Yol Odur!*

### Daim dua edin (11-13-cü suallar)

**12-13-cü suallar:**
- 1Sal.5:17 bizə nəyi əmr edir? *Biz daim dua etməliyik.*
- Təcrübədə bu, necə mümkündür? *Müqəddəs Ruh vasitəsilə biz Allaha bütün gün yaxın ola bilərik, 13-cü suala aid istinada baxın və ya tələbələrin həyatından nümunələrə diqqət yetirin.*
- 13-cü suala aid siyahıdan hansını seçdiniz?
- Sonuncu bənddə «hər yeməkdən əvvəl»-dir. İmkanınız varsa, bunu özünüzə vərdiş etmisinizmi? *Bu, yaxşı vərdişdir. müsəlmanlarla birgə yaşayan tələbələr yeməkdən əvvəl dua edə bilməsələr də, bəziləri bunu şəhadət kimi edirlər.*
- 13-cü sualın sonundakı nitqi oxuyun.

## Rəbbin Duası (14-15-ci suallar)

**Rəbbin Duasını əzbərləyin:** İsanın şagirdləri bir dəfə Ondan xahiş etdilər: “Bizə dua etməyi öyrət”. İsa onlara Rəbbin Duasını öyrətdi. *Bir nəfərdən Mat.6:9-13-ü ucadan oxumağı xahiş edin (hər tələbə öz dilində oxusun). Sonra hər bir tələbə duanın bir cümləsini öz dilində bir kağız parçasında yazsın. Kağız parçalarını qarışdırın və tələbələrdən xahiş edin cümlələri düzgün ardıcıllıqla yerləşdirsinlər.* İştirakçılar sığınacaq axtarırlarsa, onlara bu duanı əzbərləmək xüsusilə vacibdir.

- Rəbbin Duasını söyləyəndə mükafat qazanırıqmı? Rəbbin Duasını bir dəfə deyil, on dəfə desək, mükafatımız daha böyük olacaqmı?
- Sizcə, hansı dildə dua etmək daha yaxşıdır: ingilis, ərəb və ya öz doğma dilinizdə?

*Xeyr! Rəbb İsa dedi: «Dua edəndə bütpərəstlər kimi boşboğazlıq etməyin. Çünki onlar düşünür ki, çox söz söyləməklə eşidiləcəklər» (Mat.6:7).*

*Bəziləri “Ən yaxşısı ərəb dilidir” deyir. Lakin biz doğma dilimizdə dua etsək, Atamıza ürəyimizi aça bilərik və ehtiyaclarımızı sərbəst söyləyə bilərik.*

## Üzr diləmək, minnətdarlıq və xahiş (16-22-ci suallar)

**16-cı sual:** Rəbbin Duası 3 növ duanı birləşdirir: üzr diləmək, minnətdarlıq və xahiş. *Tələbələrdən xahiş edin Rəbbin Duasından hər cümləni 3 növə aid etsinlər. 3 növün başlıqlarını kağıza yazıb divardan asa bilərsiz və ya masanın üstünə qoya bilərsiz.*

**17-ci sual:** Bütün sualı oxuyun.

- Üzr istəyəndə Allahın bizi bağışlayacağına və təmizləyəcəyinə biz necə əmin ola bilərik?

*Çünki O, bunu vəd edir. 1Yəh.1:9: «Günahlarımızı etiraf ediriksə, Allah sadiq və ədalətli olduğu üçün günahlarımızı bağışlayacaq və bizi hər haqsızlıqdan təmizləyəcək».*

**20-ci sual:** Matta 7:7-11-i Müqəddəs Kitabdan birlikdə oxuyun.

*Tələbələrə ayələri tapmaqda kömək lazım ola bilər. Müqəddəs Kitabda ayələri tapmağı 6-cı dərs izah edir.*

- 7-ci ayədə İsa nəyi əmr edir? — *İstəyin, axtarın və qapını döyün.*
- 7-ci ayədə İsa Məsih nəyi vəd edir? — *Sizə veriləcək, tapacaqsınız, qapı açılacaq. Bu vədlər 8-ci ayədə təkrarlanır.*
- İsa 9-11-ci ayələrdə nə deyir? — *Səmavi Atamız xeyirxahdır, Öz övladlarına yaxşı şeyləri verməyi sevir.*
- Duanıza Allah necə cavab verib? — *Bəzən istədiyimiz şeylər bizim xeyrimizə deyil. Buna görə də oğul ilan istəyəndə sevən ata ona ilanı verərmi?*
- Beləliklə, nə üçün biz duada istədiyimiz hər şeyi almırıq? — *İstədiyimizi almayanda sevən Atamıza etibar edə bilərik. O, bizə cəza vermir. O, bizim ehtiyaclarımızı bilir.*

**22-ci sual:** Biz kimin ehtiyacları üçün dua edə bilərik? 22-ci sualda hansı cavabı seçdiniz?

## *Dərsin sonu*

**Tətbiq:** Bugünkü təlim həyatınızı necə dəyişdi? Bundan sonra necə dua edəcəksiz?
**İcmal: Ev tapşırığına nəzər salın.** Dua siyahısını tərtib etməyin yolunu müzakirə edin. Təhlükə yoxdursa, adları yazıb qutuya qoymağa onları ruhlandırın. Mobil telefon üçün dua proqramını da onlara məsləhət edə bilərsiz (dua əlavələri).

**Ruhlandırın:** Ev tapşırığını yerinə yetirməkdə davam edin! Növbəti həftə Müqəddəs Kitabınızı və ya Əhdi-Cədidinizi gətirin.
**Dua edin:** Dua həyatında ilhamlanmaq üçün Rəbbin Duasından istifadə edin. Allahdan xahiş edək, Ona yaxın həyat yaşamaqda və “daim dua etməkdə” bizə kömək etsin.

# 6-cı dərs: Bizə verilən Allah Kəlamı

**Hər bir şagirdə aid məqsədlər:**
a. Hər günü Allaha həsr olunmuş vaxt ilə başlamağı özünüzə vərdiş edin.
b. Allaha həsr olunmuş vaxt ərzində bu üç addımdan istifadə etməyi öyrənmək.
c. Müqəddəs Kitabdan ayələri tapmağı öyrənmək.
d. Müqəddəs Kitabı oxumağı arzulamaq.

**Mədəniyyətə aid nümunələr:**
- Müsəlmanlar və Müqəddəs Yazının Allahdan ilham alması
- Hekayələr
- Allah Özünü açıqlayır

**Hazırlayın:** Tələbələrə paylamaq üçün dəftər (mümkünsə, həmçinin özünüzlə bir nümunə gətirin). Tələbələrin doğma dildə Müqəddəs Kitabı yoxdursa, onlara kitabı çap və ya rəqəmsal variantda əldə etməyə kömək edin.

## *Dərsin əvvəlində*

**Ötən həftənin ev tapşırığına nəzər salın:** Ötən həftə ərzində Rəbbin Duasını deyirdinizmi? *İndi bu duanı birlikdə deyin. Ötən həftə istifadə etdiyiniz kağız parçalarından istifadə edərək duanı cümlələrdən yığın və hər kəs bir cümləni deyərək, dua edin.*

**6-cı dərsin sonundakı İCMAL bölməsində cavabları yoxlayın:** **1-ci sual:** a) Əziz; b) zəifləyib ölərlər.

**2-ci sual:** «b» düzgün cavabdır. «a» düzgün deyil, səbəb “yalnız” sözüdür.

**3-cü sual:** Ətiq, Cədid **4-cü sual:** hazırlaşın; oxuyun; dua edin

**Bugünkü mövzunu söyləyin:** Bir nəfəri sevəndə məhəbbətinizi necə göstərirsiniz? *Məsələn, onunla vaxt keçirirsiniz, söhbət edirsiniz, onların dediklərinə qulaq asırsınız.* Ötən həftə biz Allah ilə söhbət etməyi öyrəndik. Bu gün isə biz Allahın bizimlə Müqəddəs Kitab vasitəsilə danışmağı barədə öyrənəcəyik. *Bir nəfərdən xahiş edin Zəbur 19:9-10-u oxusun.*

## *Müzakirə*

### Allahın Kəlamı üçün susamaq (1-5-ci suallar)

**1 və 2-ci suallar:** 1-ci sualda şəklə baxın. Sonra ayəni oxuyun.
- Körpə süd istədiyi kimi, biz həqiqətən Allahın Kəlamı üçün susayırıqmı?

### Müqəddəs Kitab Allahın Kəlamıdır (6-10-cu suallar)

**8-ci sual:** Bütün sualı oxuyun. Bəzi qeyri-məsihçilər Müqəddəs Kitabı insani kitab hesab edirlər. Bu kitab insanlar tərəfindən yazılmışdır və insani hekayələr barədə yazır.
- Buna baxmayaraq, bunun Allahın Kəlamı olduğunu biz necə izah edə bilərik? *“Müqəddəs Ruh tərəfindən yönəldilən insanlar Allahdan gələn sözləri söylədilər”.*
- Kitabın dəyişdirilmədiyini nədən bilərik? *Minlərlə əlyazmalar muzeydə saxlanılır və tərcüməçilər onlara müraciət edərək bizi əmin edirlər ki, orijinal mətn olduğu kimidir.*

**10-cu sual:** Birinci paraqrafı oxuyun. *Müxtəlif dillərə tərcümə edənlər barədə* məlumat əldə edə bilərsiniz.
- Müqəddəs Kitab hansı dillərdə yazılmışdır? *Vikipediyada axtarın: Müqəddəs Kitabın tərcümələri.*
- Öz dilinizə Müqəddəs Kitabı kim tərcümə edib? Doğma dilinizdə öz Müqəddəs Kitabınız varmı?

Müqəddəs Kitabın tərcüməsi mətni dəyişmək demək deyil. Tərcümə Allahın sözlərini eşitməyə bizə kömək edir. *Müqəddəs Kitabı siz dükandan və ya məsihçi cəmiyyətlərindən bir çox dillərdə əldə edə bilərsiniz. Müqəddəs Kitabın rəqəmsal və audio variantlarını, smart telefonlar üçün xüsusi applikasiyaları bir çox saytlardan götürmək olar (məsələn, www.biblegateway.com; «mybible», «andbible», və «bible.is».*

### Müqəddəs Kitabın müxtəlif hissələri (11-15-ci suallar)

**12-14-cü suallar:**
- Musanın Tövratı və Zəbur Müqəddəs Kitabın hansı hissəsindəndir?
- Müqəddəs Kitabın hansı hissəsi İncil kimi tanınır?

*Öz Müqəddəs Kitabınızdan istifadə edərək tələbələrə onun müxtəlif hissələrini göstərin. Tövrat və Zəbur – Əhdi-Ətiqdədir.*
*İncil – Əhdi-Cədiddədir. Çox vaxt bütün Əhdi-Cədidə “İncil” deyilir. Əslində isə hər bir Müjdə İncildir.*

- Əhdi-Ətiq Əhdi-Cədidi ləğv edirmi?

*Xeyr, bizə hər ikisi gərəkdir. Birlikdə onlar Allahın Müqəddəs Kitabını təşkil edirlər. Müqəddəs Kitab tarix boyu Allahın insanlarla ünsiyyəti barədə yazır.*

**15-ci sual:** Müqəddəs Kitabın mündəricatını açın. Tələbələrə 1Peter 1:3-ü tapmağa kömək edin və bir nəfərdən ayəni oxumağı xahiş edin.

- Biz hər gün Allah ilə keçirmək üçün xüsusi vaxt ayırsaq, bu dərsin əvvəlindəki körpə (B) kimi güclü və sağlam böyüyərik.
- Gündəlik həyatda bu, necə mümkündür?

*Hər tələbə öz Müqəddəs Kitabında və ya Əhdi-Cədidində bu ayəni tapmalıdır.*

*Tələbələrdə Müqəddəs Kitabın müxtəlif tərcümələri varsa, sözlər fərqli olduğu halda orijinalın yazıldığı Yunan dilinə müraciət etməyin faydalı olduğunu izah edin.*

## Allah ilə gündəlik vaxt keçirmək (16-22-ci suallar)

**18-ci sual:** Bütün sualı oxuyun.

- (a) və (b) hissələrinə aid nə yazmısınız?
- Hər gün Allah ilə tənha olmaq üçün özümüzə uyğun vaxtı və yeri seçməliyik. Siz buna necə vərdiş edə bilərsiz?

*Hər bir tələbədən bu suala cavab verməyi xahiş edin. Tələbələrdən kimsə bu suala cavabı yazmayıbsa, xahiş edin, yazsınlar.*
*Bunu edəndə biz öz fikrimizi nəzərə alırıq və beləliklə, daha çox öyrənirik.*

**22-ci sual:** İkinci paraqrafı oxuyun. *Hər tələbədən öz fikri ilə bölüşməyi xahiş edin.*

## Əlavə 1: Allah ilə gündəlik keçirdiyim vaxt

**1-ci addım: Hazırlaşın:** Padşahın görüşünə getsəydiniz, hazırlıq görərdinizmi? *Çimmək, gözəl geyim.*

- Allahın görüşünə gedəndə necə hazırlıq görmək gərəkdir? *Tələbələrdən xahiş edin, birinci addımı izah etsinlər.*

**Birlikdə hazırlaşın:** məsələn, duanı birlikdə edin, lakin hər kəs ürəyində öz günahlarını Allaha etiraf etsin.

**2-ci addım: Oxuyun:** Allah ilə keçirdiyimiz gündəlik vaxtda "2-ci addım" nədir?

- Bu vaxt biz nə etməliyik?

**1Peter 1:13-15-i birlikdə öyrənərək "2-ci addım"ı məşq edin.**

- 1Peter 1:13-15-i ucadan oxuyun, sonra tələbələrdən bu ayələri özləri üçün oxumağı xahiş edin. *Bir neçə dildən istifadə olunursa, hər dildə ayələri oxumağı adamlardan xahiş edin.*
- Hansı söz sizə xüsusi təsir göstərir?
- Bu vacib məqamı yadda saxlamaq üçün nə edəcəksiniz? *Mümkünsə, qeydlər edin, əzbərləyin və s.* ***Yazı dəftərinizi nümunə kimi göstərin.***
- Allahın sizə bu gün söylədiyi sözə necə itaət edəcəksiz?
- Heç bir körpə südü ağzına alıb tüpürmür. Lakin biz Allahın Kəlamını oxuyandan sonra ona itaət etməsək, eyni olur.

*Tələbələri yazı dəftərində ayələri, duaları, itaət etmək arzularını və s. qeyd etməyə ruhlandırın. Siz onlara yazı dəftərini hədiyyə edə bilərsiniz. Mümkünsə, öz yazı dəftərinizi onlara bir nümunə kimi göstərin.*

**3-cü addım: Dua edin:** Allah ilə keçirdiyimiz vaxtda "3-cü addım" nədir?

- Dua – Səmavi Atamız ilə söhbətdir. Allah ilə nə barədə söhbət edə bilərik? *"3-cü addım"a aid müxtəlif ifadələrə baxın.* ***İndi bu addımlardan istifadə edərək dua edin.***
- Ötən həftə biz adamların adlarını qeyd etdiyimiz dua siyahısı barədə danışmışdıq. Kimsə bu siyahını yazıb həftə ərzində istifadə edibmi? Bu necə idi? *Hamını yazı dəftərinin arxasında bu siyahını yazmağa ruhlandırın.*
- Allah ilə gündəlik keçirdiyimiz vaxt barədə kimin təklifi və ya sualı var?

## *Dərsin sonu*

**Bugünkü təlimə riayət edin:** Bugünkü təlim həyatınızı necə dəyişdi? İndi hər bir kəs, hətta özünüz də bölüşməlisiniz).

- **Ev tapşırığını birlikdə oxuyun.** Bu həftənin ev tapşırığı çox vacibdir. Növbəti həftə biz xahiş edəcəyik öyrəndiklərinizlə bölüşəsiniz.
- Müntəzəm olaraq ev tapşırığını bir kimsə ilə görüşüb edə bilərsinizmi (məsələn, hər həftə)?

**Birlikdə dua edin:** Tələbələrə bu həftəyə aid xüsusi dua ehtiyacı barədə sual verin və bu ehtiyaclar üçün dua edin. Bizi sevdiyinə və hər gün bizimlə vaxt keçirmək istədiyinə görə Allaha təşəkkür edin.
Dua edin ki, Onunla vaxt keçirməyi vərdiş etməkdə sizə kömək etsin.

# 7-ci dərs: Məsihin cəmiyyətinin üzvləri

| Hər bir şagirdə aid məqsədlər: | Mədəniyyətə aid nümunələr: |
|---|---|
| a. İmanlıların cəmiyyətinə sadiq üzv olmaq.<br>b. 1Peter 2-ci fəsildən məsihçi cəmiyyətinə aid üç təsvir barədə öyrənmək.<br>c. Əzbərləmək: 1Peter 2:9.<br>d. 1 Peterdə müxtəlif ayələri tapmağı öyrənmək. | • İki xüsusi daş<br>• Bölünmüş şəxsiyyətin şəfası<br>• Ümmət<br>• Riskin ölçülməsi |

**Hazırlayın:** "Lego" və ya digər konstruktor, təməl üçün bir böyük kərpic. Bax. "Giriş sözü".

## *Dərsin əvvəlində*

**Görüş üçün dua edin. Ötən həftənin ev tapşırığına nəzər salın:** Allah ilə hər gün vaxt keçirə bildinizmi? Bu, sizə Səmavi Atanıza yaxın qalmaqda kömək etdimi? Kimdə alınmadısa, maneələr nə idi? Bu həftə ərzində onlara necə qalib gələ bilərsiniz?

**7-ci dərsin sonundakı İCMAL bölməsində cavabları yoxlayın:**

**1-ci sual:** a) ev; b) seçilmiş; c) ailə **2-ci sual:** İsa Məsih

**3-cü sual:** (1Pet.2:9).

**Bugünkü mövzunu söyləyin:** *Müxtəlif rəngdə və ölçüdə olan Lego və ya digər konstruktorun hissələrini bir yerə yığın.*

Kimsə belə yerdə yaşaya bilər? Xeyr. Ev tikmək üçün kərpiclər birgə tikilməlidir!

*Əvvəlcə böyük kərpici qoyun, üzərinə isə müxtəlif hissələrdən ev tikməyə başlayın.*

Bu gün biz Məsihin cəmiyyəti - məsihçi cəmiyyəti və ya imanlıların cəmiyyəti barədə öyrənəcəyik.

## *Müzakirə*

### Giriş sözü (1-2-ci suallar)

**1-ci sual:** Muradın şəhadətini və 1-ci sualı oxuyun.

- Murad barədə nə fikirləşirsiz? 1-ci suala aid nə yazdınız? *Bəzi ölkələrdə keçmişdə müsəlman olan məsihçilər sərbəst görüşə bilərlər; digər yerlərdə isə bu, təhlükəlidir.*
- 2-ci sualdan sonra müəllimin sözlərini oxuyun.

### Ruhani ev (3-10-cu suallar)

**3-cü sual:** 1Peter 2:4-8-i açın. *Bir nəfərdən oxumağı xahiş edin.* *Kömək edin ki, hər bir tələbə ayəni aça bilsin.*

- 5-ci ayədə diri daşlar olan bizlər hörülüb nə oluruq? *«Ruhani ev».*
- 6 və 7-ci ayələr «künc daşı»nı təsvir edir. Künc daşı binada nə rol oynayır? *O, küncün aşağısında yerləşir və bütün divarlara istiqamət verir. Lego binasının künc daşını göstərin.*
- Sizcə, burada təsvir olunan qiymətli künc daşı kimdir? *Allah tərəfindən seçilmiş (6-cı ayə) və Onun davamçıları (7-ci ayə) üçün qiymətli olan İsa Məsih. (7-ci ayə). Bu Künc Daşını rədd edənlər daha sonra Onun tərəfindən məhkum olunacaqlar (8-ci ayə)*

*Qrupa müvafiqdirsə, bizim Künc Daşı ilə İslamın dua mərkəzi olan qara daşı müqayisə edin.*

**6-cı sual:** Sonuncu paraqrafı oxuyun.

- Düzgün cavab nədir? b)
- Bizim yaşadığımız yerdə məsihçilər harada görüşsələr daha yaxşıdır? *Bəzi ölkələrdə məsihçi cəmiyyəti rəsmi mövcud deyil, digər ölkələrdə isə imanlılar bir çox yerdə görüşürlər. Buna baxmayaraq, keçmiş müsəlman olan məsihçilər evdə görüşməyi üstün tuturlar. Variantları müzakirə edin.*

**7-ci sual:** İkinci paraqrafı oxuyun, «Rəbb İsa Öz davamçılarına dedi…» sözlərindən başlayın.

- Bu gün biz İsanın adı ilə yığışan iki və ya üç nəfər deyilikmi?
- Beləliklə, İsanın xüsusi hüzuru buradadır? *Biz Onu görmürük, lakin O, Öz Ruhu ilə bizimlədir.*

- Digər imanlılar ilə ibadət edəndə Onun hüzurunu hiss etmisinizmi? (bax. Q.9)

## Seçilmiş adamlar (11-18-ci suallar)

**1Peter 2:9-10-u oxuyun:** 9-cu ayədə hansı ifadəni ən çox xoşladınız və nə üçün?

- 10-cu ayə sizə necə təsir göstərir? *Keçmişdə müsəlman olan imanlıların əksəriyyəti üçün bu ayənin mənası çox böyükdür, çünki ayə onların Məsihdə və Onun cəmiyyətində yeni insan olduğuna əmin edir.*

**Biz kimik?** Əzbər ayəni məşq etmək üçün oyun. **1Peter 2:9**. *Bir nəfərə sual verin, «biz kimik?» Onlar cavab verirlər: «seçilmiş adamlar». Sonra növbəti şəxs sual verir: «biz kimik?», cavab belədir: «Padşahın kahin dəstəsi». Beləliklə, davam edin və qrupda hər kəs əmin olana qədər bu həqiqətləri təkrarlayın.*

**14-cü sual:** Bütün sualı oxuyun.

- Hansı xalqlardan və ya etnik qruplardan siz Məsihin davamçıları ilə rastlaşmısınız?
  - Bunları birləşdirən cəhət nədir?
  - Sizin vəziyyətinizdə öz etnik qrupunuzda, yoxsa qarışıq qrupda görüşmək yaxşıdır?

*Bunlar müxtəlif rəngdə/ölçüdə olan kərpiclərdir.*
*Konstruktorun rəngli hissələri kimi, biz hamımız fərqliyik, lakin imanlıların ümumdünya cəmiyyətini təşkil etmək üçün hamımız lazımıq. Hər ikisinin üstünlüyü var. Bunları müzakirə edin.*

**15-ci sual:** Sualın birinci hissəsini oxuyun.

- Bu ayəyə görə, Allah bizi nəyə çağırdı?
- Bu ayəyə görə, Allah bizi nə üçün seçdi?
- Buna görə də biz nə etməliyik?

*Qaranlıqdan nura.*
*9-cu ayə: qaranlıqdan Öz heyrətamiz nuruna.*
*Allahın çox gözəl işlərini elan etmək üçün.*
*Adamlara Allahın böyük işləri və Onun xeyirxahlığı barədə danışmalıyıq.*

**16-cı sual:** Bu şəklə baxın. Bu iki cəsarətli qadın Məsihin onları nur saçmağa çağırdığını bilir. Allahın ecazkar işləri barədə danışmaq üçün hansı imkanlarınız var?

## Ailə (19-22-ci suallar)

**22-ci sual:** Sualı oxuyun. Sualları müzakirə edin.

- **Müəllimin sözlərini oxuyun.** müsəlman ailənizə özünüz və imanınız barədə nə deyərsiz?
- Özünüzü "xristian", "məsihçi", yoxsa "Məsihin davamçısı" adlandırarsız?
- Müsəlmanlar üçün bu müxtəlif terminlərin mənası nədir?

*Allahın Kəlamına itaət etsək, adamları Məsihdə qardaş və bacı kimi qəbul edəcəyik. Bununla biz öz etnik və ya sosial şəxsiyyətimizi itirməyəcəyik, lakin Məsihdə yeni insan olaraq möhkəmlənəcəyik.*
*Bəzi yerlərdə «xristian» sözü alkoqol, donuz əti, cinsi nizamsızlıq və müsəlmanlara qarşı anlayışlarla əlaqəlidir. Digər yerlərdə isə "məsihçi" sözünü daha düzgün anlayırlar. Müqəddəs Kitab imanlılar barədə danışaraq müxtəlif terminlərdən istifadə edir. Seçim şəxsin özündən və vəziyyətdən asılıdır.*

## Məsihçi cəmiyyəti sizə lazımdırmı? (23-25-ci suallar)

**24-cü sual:** Bütün sualı oxuyun. Bu suala aid nə yazmısınız?

- Murad barədə. Sizcə, tənha olsa, imanda canlı olaraq qala bilərmi?
- 1-ci suala cavabınızı bir daha oxuyun. Bu gündən sonra Murada hansı məsləhəti verərdiniz?

**25-ci sual:** Tikdiyimiz ev kimi, güclü məsihçi cəmiyyəti olmağımız üçün güclü əlaqələrimiz olmalıdır.

- Burada bu cəmiyyəti tikməkdə necə davam edə bilərik?
- Sizin imkanlarınız nədir və ya Məsihin digər davamçıları ilə görüşə bilərsinizmi?

## *Dərsin sonu*

**Bugünkü təlimə riayət edin:** Bugünkü təlim həyatınızı necə dəyişdi?

- **Ev tapşırığını birlikdə oxuyun.**
- Bu həftə ərzində görüşmək üçün heç olmasa, bir nəfər imanlı varmı? *Yoxdursa, onlar qrupdan bir nəfərlə və ya sizinlə görüşə bilərlər.*

**Birlikdə dua edin:** Məsihdə qardaş və bacılara görə Allaha şükür edin və bir-birimizə etibar etmək üçün Ondan kömək istəyin. Allahdan xahiş edin ki, bizi güclü ruhani cəmiyyət ilə birləşdirsin.

# 8-ci dərs: İki cəmiyyətin üzvləri

**Hər bir şagirdə aid məqsədlər:**
a. Həm doğma cəmiyyətinə, həm də yeni məsihçi cəmiyyətinə xidmət etmək.
b. Rəbbin xətrinə rəhbərlərə tabe olmaq.
c. Əzbərləmək: 1Peter 2:17.

**Mədəniyyətə aid nümunələr:**
- Keçmişdə müsəlman olan imanlılar və müsəlman cəmiyyəti

**Hazırlayın: Kağız, marker, qələmlər.**

## *Dərsin əvvəlində*

**Birlikdə dua edin. Ötən həftənin ev tapşırığına nəzər salın:** Ən azı, bir məsihçi ilə görüşdünüzmü? Bunun sizə faydası oldumu? Ruhani cəhətdən daha güclü oldunuzmu?

**8-ci dərsin sonundakı İCMAL bölməsində cavabları yoxlayın:**

**1-ci sual:** a) ruhani; b) yer üzündəki

**2-ci sual:** tabe olmalıyıq

**3-cü sual:** (1Pet.2:17)

**Bugünkü mövzunu söyləyin:** Biz hansı müxtəlif cəmiyyətə aidik? *(məs. ailə, iş yeri, məhəllə, məsihçi cəmiyyəti). Hər kəsdən xahiş edin, öz cəmiyyəti barədə bölüşsün; axırda təkrarlamaq üçün bunları marker ilə yazın.*

Bu gün gəlin məxsus olduğumuz iki cəmiyyət barədə müzakirə edək. Eyni zamanda, iki cəmiyyətə necə aid ola bilərik? Hər ikisinə necə xidmət edə bilərik?

## *Müzakirə*

### İki cəmiyyətin üzvü

**1Peter 2:11-12-ci ayələri oxuyun:** *Hər kəs ayələri tapmalıdır.*
- Nə üçün 11-ci ayə bizi «qərib və gəlmə» adlandırır?
- Qeyri-məsihçilər davranışımıza diqqət yetirirlər. 12-ci ayəyə görə, biz onların arasında necə yaşamalıyıq?

**2-ci sual:** Birinci paraqrafı oxuyun.
- Allah bizi hansı iki cəmiyyətə xidmət etməyə çağırır?
- Kimsə deyir: «yer üzündəki cəmiyyətə xidmət etməməliyik, əsas ruhani cəmiyyətdir». Buna cavabınız nə olacaq?

**4-5-ci suallar:** 4-cü sualın (b) hissəsini oxuyun.
- Buna aid nə yazdınız? Lütfən, təcrübənizlə bölüşün.
- 5-ci suala aid yazdıqlarınıza görə, axmaqların cahilliyini susdurmağın ən yaxşı yolu nədir?

*Çünki həqiqi evimiz Məsihlə əbədiyyətdədir (1-ci sual).*
*Elə yaxşı həyat yaşamalıyıq ki, bizi mühakimə etdiklərinə baxmayaraq, onlar bunu görsünlər.*
*Ruhani olan məsihçi cəmiyyətinə və yer üzündəki cəmiyyətə.*
Müzakirə edin. *1Peter 2-ci fəslə görə, Allah bizi hər iki cəmiyyətə xidmət etməyə çağırır.*

*Vaxt verin hər kəs istədiyi kimi bölüşsün.*
*Yaxşılıq etmək.*

### Yaxşılıq etmək (5-9-cu suallar)

**7-ci sual:** Birinci paraqrafı oxuyun.
- Burada hansı cavabları qeyd etdiniz?
- Öz cəmiyyətimizə və xalqımıza necə yaxşılıq edə bilərik?

**8-ci sual:** İkinci paraqrafı oxuyun.
- Buna aid nə yazdınız?
- 7 və 8-ci suallara aid nə edə bilərsiniz?

*Hər tələbə öz vəziyyətlərinə uyğun ən azı, bir hərəkəti seçməlidir.*

## Hökumətə tabe olmaq barədə (10-13-cü suallar)

**1Peter 2:13-17-ni oxuyun:** *Bu mətni tələbədən oxumağı xahiş edin; qrupda müxtəlif dillər istifadə olunursa, ayələr hər dildə oxunsun.*

- 13-cü ayədə Allah bizə nə etməyi əmr edir? "Tabe olun".
- Kimin naminə tabe olaq? "Rəbb naminə".
- 16-cı ayəyə görə, Məsihdə azad olmaq – istədiyimizi etmək üçün azadlıq deməkdirmi?

*Xeyr, biz pislik etməyə azad deyilik. Biz «Allahın qullarıyıq». Bu barədə 15-ci dərsdə öyrənəcəyik.*

**13-cü sual:** Bütün sualı oxuyun.

- Bu suala aid nə yazdınız?

*Müzakirə edin. Belə vəziyyətlərdə imanlılar qərar qəbul etməlidirlər: onlar kiçik və ya böyük məsələlərdə güzəştə gedəcəklər, yaxud «İnsana deyil, Allaha itaət etmək daha vacibdir» (Həv.İş.5:29).*

- Dükanda işləyirsinizsə və müdiriniz sizə alıcıları aldatmağı tapşırırsa, nə edəcəksiz? Həvari Peterin məktubuna uyğun cavab verin.

*Müzakirə edin. Bu, çətindir! Biz Allaha itaətsizlik etmək istəmirik, lakin biz işimizi də itirmək istəmirik.*

## Müdirə itaət barədə (14-20-ci suallar)

**1Peter 2:18-ci ayəni oxuyun:**

| | |
|---|---|
| • Bu ayə kimə aiddir? | *Qullara.* |
| • Sizcə, qul kimi işləmək çətindirmi? | *Məsələn, siz çox işləyirsiz, lakin nə maaşınız, nə də azadlığınız var.* |
| • 18-ci ayədə qullar yalnız xeyirxah və mülayim, yoxsa həmçinin qəddar ağalara da tabe olmalıdırlar? | *Hər ikisinə itaət etməlidirlər.* |
| • Müdirimiz ədalətsizdirsə və ya adamlar zəhmətinizə qiymət vermirsə, 1Peter 2-ci fəsildən hansı təsəllini və gücü ala bilərik? | *Rəbbin naminə tabe olmalıyıq (13 və 18-ci ayələr). 20-ci ayə: xeyirxah iş görərək əzab çəkiriksə, bu, Allaha məqbuldur.* |
| • Rəhbərə tabe olmaq çətin olan vəziyyətlər olurmu? Lütfən bu barədə danışın. | *Dərsin sonunda bu barədə dua edəcəyik.* |

**19-cu sual:** İki nəfərə baxın.



- Oğlunuzun düzgün adam olub zibilçi olmasını, yoxsa şərəfsiz müəllim olmasını istəyərdiz?
- Sizcə, Rəbb nəyi istəyir?

**1Peter 2:17(a)-nı əzbərləyin:** *Hər kəsə lazımi hörməti və məsihçi sevgisini göstərin.*

- 1Peter 2:17(a)-nı əzbər kim deyə bilər? Hər kəsi ayəni deməyə ruhlandırın.
- Hansı sözlər bizə yer üzündəki cəmiyyətimizdə öz vəzifəmizi yerinə yetirməli olduğumuzu deyir?
- Hansı sözlər ruhani cəmiyyətdə öz vəzifəmizi yerinə yetirməli olduğumuzu deyir?

## *Dərsin sonu*

**Bugünkü təlimə riayət edin:** Bugünkü təlim həyatınızı necə dəyişdi? Kim bu dərsi öz həyatında tətbiq etməyə hazırdır?

**Ev tapşırığını oxuyun.**

**Ruhlandırın:** Dərsin əvvəlində yazdığınız siyahıya nəzər salın. Onlara necə xidmət edə bilərsiz? 7 və 8-ci suallara qayıdın və növbəti həftə ərzində cəmiyyət üçün bunu etməyi qərara alın. Yaxud bu dərslikdə təklif olunan ev tapşırıqlarından birini seçin.

Ev tapşırıqlarını yerinə yetirməkdə davam edin!

**Birlikdə dua edin:** *Cütlərə və ya qruplara bölünüb dua edin.*

Ədalətsiz hakimiyyətə və ya qəddar müdirə itaət etməkdə çətinlik çəkən qrup üzvü üçün dua edin.

Allahdan xahiş edin, bu həftə ərzində bizə yer üzündəki cəmiyyətimizə və ruhani cəmiyyətimizə xidmət etməkdə, eləcə də hökumətə Məsih naminə itaət etməkdə kömək etsin.

# 9-cu dərs: Təqibin səbəbləri

**Hər bir şagirdə aid məqsədlər:**
a. Buna əmin olmaq: bizi Allahın məhəbbətindən heç nə ayıra bilməz.
b. Bunu anlamaq: təqib olacaq, lakin Allah bunu xeyrimizə çevirəcək.
c. Nahaq yerə təqib olunmamaq üçün müdrik olmaq.
d. Əzbərləyin: 1Peter 2:21.

**Mədəniyyətə aid nümunələr:** Təqib yaşayan keçmişdə müsəlman olan imanlılara məsləhət

**Hazırlayın:** Kağız parçalarının üzərində Rom.8:36-dan sözləri yazın (12-ci sualda)

## *Dərsin əvvəlində*

**Dərs üçün dua edin.** Ötən həftənin ev tapşırığına nəzər salın: Cəmiyyətimizi, ehtiyacda olan insanları, səlahiyyətli şəxsi dəstəkləyərək nə etdiniz? O şəxs necə cavab verdi?

**9-cu dərsin sonundakı İCMAL bölməsində cavabları yoxlayın:**

**1-ci sual:** Ayənin mənası: Məsin bizim üçün nümunədir (1Pet.2:21).

**2-ci sual:** 1) dünya, nifrət edir; 2) Allah təqibə yol; 3) axmaq hərəkət; 4) Məsihin izi ilə.

**Bugünkü mövzunu söyləyin:** Bugünkü mövzu təqibdir. Bu, çox ağır mövzudur. Bəlkə, müzakirədə göz yaşları olacaq, çünki çətinliklər yaşamışıq. Lakin Allah təqibi xeyrə çevirir və biz bu barədə danışanda Allah qəlbimizə şəfa verə bilər.

## *Müzakirə*

### Birinci səbəb – dünya bizə nifrət edir (1-6-cı suallar)

**1-2-ci suallar:** 1-ci sualın hamısını və 2-ci sualın birinci hissəsini oxuyun.
- 2-ci suala hansı cavabı yazdınız? Başqa təqib yaşamısınızmı? Hələ də təqibdəsinizmi?
  *İndi dayanın və qrupdakı tələbələrdən təqibdə olanlar və ya keçmişdə təqib olunanların yaralarının sağalması üçün birlikdə dua edin.*

Hər kəs öz təcrübəsi barədə danışsın. Bu, vacib vaxtdır və göz yaşları ola bilər. Bunun təbii olduğu barədə adamları əmin edin.

**5-ci sual:** Naimlə həqiqətən baş vermiş hekayəni oxuyun. Nə hiss edirsiniz?

### İkinci səbəb – Allah təqibə yol verir (7-13-cü suallar)

**1Peter 1:3-7-ni oxuyun:**
- 4-cü ayəyə görə, irsimiz haradadır? Səmalarda
- Bu irs nə vaxt isə çürüyər, ləkələnər, solar? *Xeyr, yer üzündəki mirasdan fərqlidir!*
- 5-ci ayəyə görə, indiki zamanda bizi nə qoruyur? *Allahın qüdrəti*
- 6-cı ayəyə görə, cürbəcür sınaqlarda nə etməliyik? *Hədsiz sevinməliyik.*
- 7-ci ayə imanımızı nə ilə müqayisə edir? *Fani qızıldan daha çox dəyərlidir.*
- Qızılı nə üçün odda əridirlər? *Təmizləmək üçün, çünki təmiz qızıl daha dəyərlidir.*
- Beləliklə, nə üçün Allah təqibə yol verir? *İmanımızı sınamaq üçün və bizi təmizləmək, sağlam və güclü etmək üçün. Onun təmizləyən odu imanı qiymətli edir!*

**10-cu sual:** Bütün sualı oxuyun. Hansı cavabları qeyd etdiniz? Bu barədə nə hiss edirsiniz?
*Yalnız (a) düzgün cavabdır. Hərçənd, bu müzakirənin məqsədi tələbələri düzgünlüyə çıxarmaqdır. Onların şəxsi şübhə və çətinlikləri ola bilər. Sonra onlar düzgünlüklə ürəklərini Allahın Kəlamına aça bilərlər, buna görə də Allah onların düşüncəsini dəyişə bilər və onlara etibar etmək üçün qüvvət verə bilər ki, hətta əzab vaxtlarında belə, Allahın xeyirxahlığını tanısınlar.*

**11-ci sual:** Bütün sualı oxuyun. İkinci hissəyə aid nə yazdınız? *Öz həyatınızdan təcrübənizlə də bölüşün!*

**12-ci sual:** *Böyük çətinliklərdən keçəndə imanlılar bəzən hiss edirlər ki, Allah onları tərk edib və ya onlara cəza verir. Növbəti çalışma Allahın sevgisinə və onları heç vaxt tərk etməyəcəyinə tam əmin olmaqda onlara kömək edəcək. Əvvəlcə kağız parçaları üzərində bu sözləri yazın: «əzab», «çətinlik», «təqib», «aclıq», «çılpaqlıq», «təhlükə», «qılınc». Həmçinin daha iki kağız parçasında yazın: «ayıra bilər» və «ayıra bilməz». Bunları masanın üstünə qoyun. Nəhayət, bir kağız parçasına «ölüm» sözünü yazın.*

- **Rom.8:35-i** oxuyun. Bunlardan hansılar bizi Məsihin məhəbbətindən ayıra bilər? Hər kəs bir kağız parçasını götürsün; bunu «ayıra bilər» və ya «ayıra bilməz» başlığı altına yerləşdirsin.
- **Rom.8:36-nı** oxuyun. Bu ayə birlikdə ölüm ilə rastlaşan Naimin ailəsinə aiddirmi?
- Hamı birlikdə **Rom.8:37-39-u** oxuyun. Ölüm Naimin ailəsini Məsihin məhəbbətindən ayıra bilərmi? Xeyr! Onlar düz Allahın yanına getdilər.

«Ölüm» sözü ilə kağız parçasını «ayıra bilməz» başlığı altında qoyun.

- Ümumiyyətlə, bizi Məsihin məhəbbətindən nə isə ayıra bilərmi? *Xeyr, hətta ölüm ayıra bilməz!*

## Üçüncü səbəb – biz bəzən axmaqlıq edirik (14-17-ci suallar)

**14-cü sual:** Şakirin hekayəsindən sonrakı sualı oxuyun:

***Tələbələrin yadına salın ki, ev tapşırığı onlara müzakirə vaxtına hazırlaşmaqda kömək edir.***

- Nə fikirləşirsiniz?
  *Məsələn, o axmaqlıq etdi və ailəsinə xəcalət gətirdi, evdən qaçdı, atasını təhqir etdi.*
- Şakir nahaq yerəmi təqib olundu?
  *Bəli, nahaq yerə təqib olundu.*
- Nahaq təqibdən necə yan keçə bilərik?
  *Məsələn, ağsaqqallarımıza hörmət etməklə, ailələrimizi dəstəkləməklə, onlara xəcalət gətirməməyə çalışmaqla bu, mümkündür.*
- Lazımlı təqibdən yan keçməyə çalışmalıyıqmı?
  *Biz Məsihi inkar etməməliyik. Lakin biz köçə bilərik. 17-ci suala bax.*

**17-ci sual:** İkinci paraqrafı oxuyun.

- Bu sual barədə nə fikirləşirsiz? *Cavabın «düzgün» və ya «səhv» olması vəziyyətdən asılıdır. Həyatı təhlükədə olan şəxs bəzən köçmək qərarına gəlir. Hərçənd, təhlükə yoxdursa, vəziyyət düzələnə qədər onlar evlərində sakit yaşamağa çalışmalıdırlar. Onlar məsihçi olduqlarına baxmayaraq, ailəyə sədaqətini sübut etməyə çalışmalıdırlar.*

## Dördüncü səbəb – biz Məsihdən nümunə götürməliyik (19-22-ci suallar)

**1Peter 2:19-21-i oxuyun:**

- 20-ci ayə nahaq yerə əzabı necə təsvir edir?
- «Axı etdiyiniz günahlara görə döyülsəniz və buna dözsəniz, bu sizə nə şərəf gətirər?»
- Düzgün əzabı bu ayə necə təsvir edir?
  *«Amma siz yaxşılıq etdiyiniz üçün əzab çəkib dözsəniz, bu, Allah qarşısında tərifə layiqdir».*
- Təqib olunmağa məcburuqsa, 21-ci ayəyə görə, kimdən nümunə götürməliyik?
  *Rəbbimiz İsa tikanlı yol keçdi və Onun ardınca getmək bizim üçün şərəfdir!*

**İcmal. 1Peter 2:21:** *Müqəddəs Kitabdan ayələri əzbərləyərkən biz onlar barədə düşünməliyik. Bu, bizə Allahın söylədiyini eşitməyə və bizə aid istəklərini öyrənməyə kömək edir. Dərs ərzində siz bunu növbəti yollar ilə göstərə bilərsiz:*

1) Hər kəsdən xahiş edin, ürəyini Allah qarşısında sakitləşdirsin. Allahdan xahiş edin, Öz Kəlamı vasitəsilə hamımız ilə danışsın.
2) Hər kəsdən xahiş edin, ayəni bir dəfə tələsmədən, ucadan, birlikdə, əzbər söyləsin.
3) Hər kəs ayəni sakitcə və çoxlu təkrarlamalıdır, Allahı dinləməlidir və ayənin hər hissəsinə diqqət yetirməlidir. Bunun üçün ən azı, 5 dəqiqə ayırın.
4) Allahdan xahiş edin, hər birinizə göstərişlər versin. Bunun üçün bir neçə dəqiqə ayırın.
5) Qrup ilə və ya cütlükdə olduğunuz şəxs ilə Allahın sizə bu ayə vasitəsilə söylədiyini bölüşün və nə edəcəyiniz barədə danışın.

## *Dərsin sonu*

**Bugünkü təlimə riayət edin:**

- Bugünkü dərs həyatınızı necə dəyişdi?
- **Ev tapşırığını birlikdə oxuyun.** Tələbələr bugünkü mövzunu təkrarlayaraq gündə bir ayə üzərində düşünə bilərlər.

**Birlikdə dua edin:** Adamlardan qısaca dua etməyi, Allaha təqib vaxtına aid vədlərinə görə minnətdarlıq etməyi xahiş edin. Digər ölkələrdə təqib olunan imanlılar üçün, xüsusilə, keçmişdə müsəlman olan Məsihin davamçıları üçün dua edin.

# 10-cu dərs: Təqibə münasibət

| **Hər bir şagirdə aid məqsədlər:**<br>a. Bağışlamaq qisasdan yaxşıdır – buna əmin olmaq.<br>b. Sizi incidən şəxsi bağışlamaq üçün hərəkətlər etmək.<br>c. Əzbərləyin: Matta 5:44. | **Mədəniyyətə aid nümunələr:**<br>• Qisas və bağışlama<br><br>**Hazırlayın:** 4-cü suala aid Matta 5:44-ü bir böyük vərəqdə yazın və sözləri kəsərək bir-birindən ayırın. |
|---|---|

## *Dərsin əvvəlində*

**Ötən həftənin ev tapşırığı:** Hər gün Müqəddəs Kitab ayələri üzərində düşünə bildinizmi? Bu, necə idi? Hansı ayə sizə daha çox təsir etdi?

**10-cu dərsin sonundakı İCMAL bölməsində cavabları yoxlayın:**

**1-ci sual:** Bağışlamalıyıq

**2-ci sual:** Düşmənlərinizi sevin və sizi təqib edənlər üçün dua edin. Mat.5:44.

**Bugünkü mövzunu söyləyin:** Giriş sözünə diqqət yetirin; iki nəfər iki şəxsin sözlərini oxusun:

Siz özünüzü heç bu adamlar kimi hiss etmisinizmi? Tələbələrə öz hissləri ilə bölüşmək imkanını verin və hələ onların fikrini dəyişməyə çalışmayın. Bu gün biz Allahın istəyinə uyğun təqibə münasibət göstərmək barədə öyrənəcəyik və xüsusilə, düşmənlərimizi bağışlamaq barədə danışacağıq.



## *Müzakirə*

### Qisasın dövrəsi (1-3-cü suallar)

**2-ci sual:** Birlikdə şəklə baxın.

- Qisasın dövrəsini görəndə nəyə fikir verdiniz?
- Bağışlamaq çətin, qisas almaq isə asandır. Lakin bunlardan hansı daha böyük ziyan gətirir?

### Qisas əvəzinə bağışlamaq (4-16-cı suallar)

**4-cü sual:**

- İsa bizə qisas dövrəsini necə qırmağı öyrədir? *O, bizə sevməyi və düşmənlərimizi bağışlamağı öyrədir.*

> *Mat.5:44-cü ayəni bir böyük vərəqdə yazın və sözləri kəsərək bir-birindən ayırın. Hər tələbədən sözləri düzgün ardıcıllıqla düzməyi xahiş edin.*

**5-ci sual:** Bütün sualı oxuyun.

- Çarmıxa çəkilərkən İsa necə dua edirdi? «Ata, onları bağışla».
- İsa Məsih güclü rəhbərdir, yoxsa zəif? Onun gücü Ona nə etməyə imkan verdi? *Bağışlamağa*
- Biz İsadan hansı nümunə götürə bilərik? *Bağışlamaq zəifliyin deyil, gücün və cəsarətin əlamətidir.*
- Düşmənlərimizi bağışlamaq üçün bizə kim güc verəcək? *İsa, bizdə yaşayan Ruhunun qüdrəti vasitəsilə.*

**1Peter 2:21-25-i oxuyun:**

- 22-ci ayəyə görə, İsa əzab çəkməyə layiq idimi? *Xeyr, «O günah etməmişdir».*
- 23-cü ayəyə baxın. Təqibçilərindən qisas almaq və ya onlara lənət oxumaq əvəzinə İsa nə etdi? *O, heç kimi söymədi, hədələmədi. Əksinə, «ədalətli Hakimə Özünü təslim etdi».*
- 24-25-ci ayələrə baxın. İsa Məsih bizim üçün nə etdi? *O, çarmıxda bizim günahlarımıza görə cəza çəkdi, yaraları ilə bizə şəfa verdi, yolunu azmış quzuları Çobanın yanına qaytardı.*
- İsa Məsihin sizin üçün etdikləri barədə düşünəndə nə hiss edirsiniz?
- Düşmənlərimizi sevmək və bizi təqib edənlər üçün dua etmək çox çətindir. Buna görə də biz nə üçün bunu etməyə çalışmalıyıq? *Məsih ilk olaraq bizi bağışladı və bizi azad etdi. Düşmənlərimizi bağışlamaqda O, Özü bizə nümunə göstərir. O, bizə bunu əmr edir. Bağışlamaq qisas dövrəsini qırır və bizi inciklikdən azad edir.*

> **Nə üçün bağışlamaq gərəkdir?** *Vaxtınız varsa, bu mövzunun dərinliyinə gedin.*
>
> Cütlərə bölünərək tələbələr **Matta 18:21-35-i** oxusunlar; bir neçə dəqiqə ərzində ayələri müzakirə edin və sonra qrupa onların təlimi barədə məlumat verin. İmkan varsa, onlar hekayəni yenidən söyləsinlər və ya kiçik səhnəcikdə göstərsinlər.

**9-cu sual:** Fəridin hekayəsinin birinci hissəsini oxuyun.

- Fərid qisas alsaydı, nəticə nə olardı?

*O, iblisə təslim olardı. Onun iş yoldaşı da qisas alaraq qisas dövrəsini artırardı.*

**10-cu sual:** Fəridin hekayəsinin ikinci hissəsini oxuyun.

- Fərid qisas əvəzinə bağışladı. Bunun yaxşı nəticəsi nə oldu?

*Onun iş yoldaşı təəccüb etdi və daha sonra İsanın davamçısı oldu.*

**Hekayənin davamını oxuyun:** Bağışlama məktubunu yazandan sonra Fərid evə getdi. Lakin bir aylıq maaşını itirdiyinə görə çox narahat idi. O demişdi: «Gecə yata bilmirdim, vurnuxurdum, çapalayırdım. Nəhayət, dua etmək üçün durub eyvana çıxdım. Qapıdan içəri keçməyə hazırlaşırdım, birdən kimsə eyvana daş atdı. Daşın üstündə məktub var idi. Məktubu təhlükəsizlik məqsədilə bir neçə ay ərzində görüşmədiyim məsihçi qardaşım yazmışdı. Burada bir maaşım məbləğində pul da var idi. Mən təəccübləndim: Rəbb sədaqətlə qeydimə qalır!" (www.pneumafoundation.org/pi_7_2003.jsp)

- Fəridin yerində olub bu məktubu alsaydınız, nə hiss edərdiniz? *Hissləri müzakirə edin.*

**12-ci sual:** Məryəmin hekayəsini və sualı oxuyun.

- Sizcə, Allah nə üçün Fəridin maddi ehtiyacını qarşıladı, Məryəmə isə möcüzə ilə pul göndərmədi?
- Məryəmi nifrətdən nə azad etdi? *Beləliklə, Məryəm bağışlamağı seçdi. Sonra isə onun ürəyini sevinc doldurdu!*

*Biz bilmirik. Hər birimiz üçün ən yaxşısını Allah bilir və həyatımızda bizim xeyrimizə işləyir. Bəzən O, bizə möcüzə göstərərək imanımızı möhkəmlədir. Bu, Fərid ilə baş verdi.*
*Bəzən Allah bizə çətin yol ilə getməyə imkan verir. Çətinlik bizdə dözümü gücləndirir.*

**13-cü sual:** Sualı oxuyun. Buna aid nə yazmısınız?

*Bəzən etiraz etmək, xüsusilə, digər məsihçiləri dəstəkləyərək etiraz etmək düzgündür. Bəzən həvari Paul özünə qarşı ədalətsiz davranışı görəndə etiraz edirdi (məsələn, Həv.İş.16:35-37). Lakin bu, qisas deyil, qanuna uyğun etiraz olmalıdır.*

**15-ci sual:** Hekayəni oxuyun. Bu imanlıya onu döyənləri bağışlamaq asan idimi? Xeyr.

- Təqibçilərini bağışlamayanda o əzab çəkirdi. Sizcə, o, bunu deyəndə nəyi nəzərdə tuturdu? *Çox güman ki, o, qəlbindəki acıqdan əzab çəkirdi.*
- Siz heç inciyərək bağışlamaqdan imtina etmisinizmi? Nəticədə nə oldu?
- Sonra bağışlayanda və inciklikdən ürəyinizi təmizləyəndə nə baş verirdi?

## İndi cümlələri və nitqi oxuyun.

- Sizi incidən bir kimsəni xatırlaya bilərsinizmi? Həmin şəxsin adını boş yerə yazın və ürəyinizdə bunu deyin. *Adamlara bunu sakitlikdə etməyə imkan verin. Arxayınçılıq üçün tələbələr adları ucadan deməməlidirlər və ya adları yazmamalıdırlar.*
- Bunu edə bildinizmi? Bu sözləri deyəndə nə hiss etdiniz?

## Əzablarda sevinc (17-19-cu suallar)

**1Peter 4:12-16-nı oxuyun.** *Hər kəs ayələri öz Müqəddəs Kitabında tapmalıdır.*

- Bu ayələrdən ən xoşladığınız ayə hansı idi? Nə üçün?
- Əzabda Allah sizə necə sevinc vermişdi? Bu barədə danışın.

## *Dərsin sonu*

**Bugünkü təlimə riayət edin:**
Bu həftə ərzində vaxt ayırıb Allahdan xahiş edin, bağışlamağa ehtiyac duyduğunuz digərlərini sizə göstərsin. Bu, çətindir və siz bunu öz gücünüzlə edə bilməzsiniz. Heç kim sizi bağışlamağa məcbur edə bilməz, lakin siz bağışlamaq istəsəniz, Allah sizə güc verəcək. Sonra bu, sizin həyatınıza böyük sevinc gətirəcək!

**Bugünkü mövzu barədə siz kimə deyə bilərsiniz?**
Bağışlamayan xidmətçinin hekayəsi ilə bölüşə bilərsiniz (Matta 18:23-35).

**Ev tapşırığından istifadə edərək birlikdə dua edin:**
Duada bu addımlar ilə tələbələrə rəhbərlik edin:
**Birincisi,** Allahdan bağışlamalı olduğunuz şəxsi sizə göstərməyi xahiş edin.
**Sonra** 1 və 2-ci addımları tələsmədən oxuyun.
3-cü addımda birlikdə **dua edin**, hər kəs bağışlamalı olduğu şəxsin adını sakitcə desin.
Sonuncu addımı **oxuyun**. Bu yol ilə bağışlamaqda davam etmək üçün hər birimizə güc diləyin.

# 11-ci dərs: Ərlər və arvadlar

**Hər bir şagirdə aid məqsədlər:**
a. Allahın nikaha aid niyyətini anlamaq: bir kişi bir qadın ilə ömürlük birləşir.
b. Özündən çox həyat yoldaşını razı salmağa çalışır.
c. Qaydanı öyrənmək: kişi arvadını anasından üstün tutmalıdır.
d. Əzbərləyin: Yaradılış 2:24.

**Mədəniyyətə aid nümunələr:**
- İslamda nikah
- İslamda analıq

**Hazırlayın:** Kağız və qələmlər, 3-cü suala aid müzakirə edəcəyiniz məsələlər.

## *Dərsin əvvəlində*

**Ötən həftənin ev tapşırığı:** Sizi incidən bir nəfəri bağışlaya bildinizmi? Bundan sonra həyatınız necə dəyişdi? *Bölüşməyən və ya bağışlamağı çətin bilən tələbələr ilə təklikdə danışın.*

**11-ci dərsin sonundakı İCMAL bölməsində cavabları yoxlayın:**
**1-ci sual:** ata-anasını tərk edir və öz arvadı ilə birləşir; onlar bir bədən olurlar (Yar.2:24).
**2-ci sual:** bir, bir, ömürlük
**3-cü sual:** a) ərinə tabe olmaq; b) arvadı ilə ədəblə davranmaq
**4-cü sual:** "Mən öz həyat yoldaşımı necə xoşbəxt edə bilərəm?"

**Bugünkü dərs üçün dua edin. Bugünkü mövzunu söyləyin:** Həyat yoldaşımız ilə münasibətimiz çox vacibdir. Bu hətta valideynlərimizlə münasibətimizdən daha vacibdir. Bugünkü mövzu Allahın nikaha aid niyyətidir. ***Bugünkü dərsi tələbələrinizə uyğunlaşdırmaq vacibdir. Məsələn, tələbələriniz subaydırlarsa,*** *təklif edirik, adamları cinsə görə müzakirə qruplarına bölün; hər qrupun rəhbəri eyni cinsdə olmalıdır. Tələbələrinizə aid sualları müzakirə edin. Bu mövzu vacibdir, buna görə də tələsməyin və lazım gəlsə, onu təkrar müzakirə edin.*

## *Müzakirə*

### Allahın nikaha aid niyyəti (1-11-ci suallar)

**2-ci sual:** Hər cümləni oxuyun və sual verin:
- Şəxsən siz bu ifadə ilə razısınızmı?
- Niyə?

*Bu cavablar Müqəddəs Kitaba uyğundur, Allahın surəti ilə yaradılmış kişi və qadına aid təlimə əsaslanır, lakin cinslərin roluna dair məsihçilərin baxışları bəzi cəhətlərdən fərqlənir.*

**3-cü sual:** Əzbər öyrəndiyiniz ayəni təkrarlayın (Yaradılış 2:24).
- Allahın nikah üçün niyyəti nədir? *Sualı oxuyun.*
- Onların arasında bədəndə, düşüncədə və ruhda nə baş verməlidir? *Onlar birləşməlidirlər – bir bədən olmalıdırlar.*
- Yaşadığımız mədəniyyətdə nikah nə vaxt və necə başlayır?
- Məsihçilərdə bu, necə olmalıdır? *Yaşadığınız yerə aid bu məsələləri müzakirə etmək üçün vaxt ayırın. Məsələn, Qərbdə: həyat yoldaşını necə tapırlar, necə görüşürlər, birlikdə necə yaşayırlar, nikahdan əvvəl cinsi əlaqədə olurlar, toy necə keçir. Bunların məsihçilər üçün qaydasını söyləyin.*

**5-ci sual:**
Şəklə baxın.
- 5-ci suala aid nə yazmısınız? (a) və ya (b)?



*Bir çox tələbələr bu hal ilə tanışdırlar. Müqəddəs Kitaba görə, arvad birinci olmalıdır. Lakin Qərbdə valideynlərə hörmət məsələsinə az diqqət yetirilir.* ***4-cü sualı birlikdə oxuyun.***

*Növbəti boşanma mövzusunu ehtiyatla müzakirə edin və boşanan imanlılara Allahın lütfü və bağışlaması barədə öyrədin.*

**7-ci sual:** Matta 19:3-6-nı oxuyun. *Yaradılış 2:24.*
- O vaxt kişi üçün boşanmaq asan idi. 5-ci ayədə Məsih hansı ayəyə istinad edir? *Əslində, bəzi fariseylər öyrədirdilər ki, arvad xörəyi yandırsa, kişinin boşanmağa haqqı var!*
- Ər və arvad nikahlarını yalnız fiziki cəhətdən deyil, həmçinin qəlb və düşüncədə necə gücləndirə bilərlər? *Əsl dostlar kimi birlikdə vaxt keçirməklə, bir-biri ilə söhbət etməklə və birlikdə iş görməklə.*
- 6-cı ayədə Məsih necə deyir: nikah insani müqavilədir, yoxsa bundan daha da böyükdür? *İslam nikahın müqavilə olduğunu öyrədir. Müqəddəs Kitab deyir ki, nikahı pozmaq daha çətindir.*

- 6-cı ayədə qeyd olunan Məsihin sözlərinə görə, boşanma nə üçün səhvdir? *Allahın birləşdirdiyi adamları insanlar ayırmamalıdırlar. Həmçinin 9-cu ayəni oxuyun. Hərçənd, bəzən nikahlar hətta Məsihin davamçıları arasında da pozulur.*

**9-cu sual:** Sualı oxuyun. Hansı cavabları qeyd etdiniz? Sizcə, bu, nə üçün baş verir? *(a), (b) və (d) müsəlman cəmiyyətlərində adi haldır. (c) isə nadir hallarda olur.*
**10-cu sual:** Nitqi və sonuncu paraqrafı oxuyun. Burada nə yazdınız?
*Bu kişi arvadını öz mülkü hesab edir, Müqəddəs Kitab isə kişi və qadının eyni dəyərə malik olduğunu öyrədir.*
**11-ci sual:** Bütün sualı oxuyun. Allah bizim ağrımızı hiss edir. Bu, sizə necə kömək edir?
Bəlkə, tələbələriniz çətin vəziyyətdə yaşayırlar. İsa Məsih yer üzündə yaşayanda əzab çəkən adamlara mərhəmət göstərirdi. Nikahda biz bədbəxt olanda O, ağrılarımızı hiss edir. Tələbələr bunu biləndə təsəlli tapırlar.

## Peterin Birinci Məktubunda ərlər və arvadlar mövzusu (12-22-ci suallar)

**13-cü sual:** Bütün sualı oxuyun.
- Nə üçün arvad ərinə tabe olmaqda bəzən çətinlik çəkir? *Məsələn, ər xudbin, zalım və ya axmaq ola bilər və ya arvad özü istədiyi kimi yaşaya bilər.*
- Nə üçün ərə arvadına qarşı diqqətli olmaq bəzən çətindir? *Məsələn, bir çox ərlər arvadlarından xidmət gözləyirlər.*

**15-20-ci suallar:** İki nəfərdən arvadın (15-ci sual) və Təbrizin (20-ci sual) sözlərini oxumağı xahiş edin.
- Onlar kimi razı salmağa çalışırlar: özlərini, yaxud həyat yoldaşını?
- Allah daha çox kimin qeydinə qalmağımızı istəyir? Biz həyat yoldaşımızı necə razı sala bilərik? Yaxud o, bizi necə razı sala bilər? Həyat yoldaşınızı razı salmağa çalışdığınız barədə nümunə gətirin. Bunun çətin olduğu barədə danışın.



**21 və 22-ci suallar:** Birinci paraqrafı oxuyun.
- Arvadını və övladlarını döyməyən kişinin evdə səlahiyyəti ola bilərmi?

*Bəzi mədəniyyətlərdə arvadı döymək adi məsələdir, lakin Müqəddəs Kitab deyir: «Ərlər... arvadlarını öz bədənləri kimi sevməlidirlər» (Ef.5:28).*
- 1Peter 3:7 arvada qarşı münasibət barədə nə deyir? «Ey ərlər, siz də bunun kimi arvadlarınızla ədəblə, onların daha zərif varlıqlar olduğuna uyğun davranın».
- Təcrübədən buna aid bir nümunə gətirin.
- 22-ci sualı oxuyun: Buna aid nə yazdınız? Cavablar fərqli ola bilər, lakin sual ərlərə düşünmək üçün verilir: ər xudbin olmadan arvadı barədə necə diqqətli ola bilər?

## Məsih və sizin həyat yoldaşınız (23-26-cı suallar)

**24-cü sual:** Baş vermiş hadisə barədə və aşağıdakı sualı oxuyun. Nə düşünürsünüz? *Həyat yoldaşı Məsihə gələ bilər. Lakin gəlməsə belə, Məsihin davamçısı sağlam düşüncəli və sevən adam olanda evdə harmoniyanı saxlamaq asan olur.*

**26-cı sual (a):** Birinci paraqrafı oxuyun.
- Hansı cavabları qeyd etdiniz? Nə üçün?
- Övladlarınızı İsanın davamçıları kimi necə böyüdə bilərsiniz?

*Məsələn, nümunəvi məsihçi olmaqla; övladlarımıza vaxt ayırmaqla, diqqət göstərməklə, sevməklə, müdrik nizamla; səhv edəndə üzr istəməklə. Onlar üçün dua edin; dua edin və Müqəddəs Kitabı onlarla hər gün oxuyun; imanlılar ilə görüşəndə onları da yanınıza çağırın.*

**26-cı sual (b):** Müəllimin sözlərini oxuyun. **Bu çalışmanı qrupunuza görə uyğunlaşdırın.**
Tələbələrə kağız və qələm verin. 5 dəqiqə ərzində növbəti qeyd edilənlər barədə düşünün və yazın:
- Həyat yoldaşınız ilə münasibətinizi gücləndirmək üçün 5 təcrübi ideya.
- Yaxud subaysınızsa, yaxşı həyat yoldaşı olmaq üçün hansı 5 sahədə böyümək istəyirsiz?

## *Dərsin sonu*

**Bugünkü təlimə riayət edin:** Nikah barədə hansı əhəmiyyətli həqiqəti öyrəndiniz? Bunu həyatda necə tətbiq edəcəksiniz?
- Bu həftə ərzində yazdığınız ideyalardan hansını edəcəksiz?

**Ruhlandırın:** Müvafiqdirsə, məsihçi nikah kursunu təklif edin. Bu dərsə aid adamların sualları varsa, təklikdə söhbət edin.

**Birlikdə dua edin:**
Cinsə görə cütlərə bölünün və ya nikah cütlərinə bölünün. Nikaha aid öyrəndiklərinizə itaət etmək üçün Allahdan kömək diləyin.

# 12-ci dərs: Mübahisəli məsələlərin həlli

**Hər bir şagirdə aid məqsədlər:**
a. Mübahisəli məsələləri pis yollarla deyil, yaxşı yol ilə həll etməyi seçmək.
b. Mübahisəni yaxşı yol ilə həll etməyin üç addımını anlamaq və bunu həyatda tətbiq etmək.
c. Əzbərləyin: 1Peter 3:11.

**Mədəniyyətə aid nümunələr:**
- Mübahisəli məsələlər və onların həlli.
- Allahın hissləri olurmu?

**Hazırlayın:** Tələbələrinizə səhnəciyin uyğun olub-olmaması barədə fikirləşin. Dua vaxtı üçün mahnı və çarmıx hazırlayın.

## *Dərsin əvvəlində*

**Ötən həftənin ev tapşırığı:** Bu həftə ərzində nikahınızı gücləndirmək və ya həyat yoldaşınızı xoşbəxt etmək üçün nə etdiniz? Necə alındı? Subaysınızsa, ev tapşırığına aid nə etdiniz?

**12-ci dərsin sonundakı İCMAL bölməsində cavabları yoxlayın:**

**1-ci sual:** Mübahisəli məsələləri həll etmə yollarının üçü də pisdir.

**2-ci sual:** (1) hisslərinizi, (2) söhbət edin, (3) bağışlayın, bağışlanmanı.

**3-cü sual:** 1Pet.3:8

**Bugünkü mövzunu söyləyin:** Biz imanlılar üçün mükəmməl sülhdə yaşamaq və heç vaxt mübahisə ilə rastlaşmamaq mümkündürmü? *Nəzəriyyəyə görə, mümkündür. Təcrübədə isə qeyri-məsihçilər kimi, onların da mübahisəli məsələləri olur.*
*Hərçənd, qeyri-məsihçilər ilə müqayisədə, imanlı olduğumuza görə biz mübahisəli məsələləri daha yaxşı yol ilə həll etməliyik.*

## *Müzakirə*

### Məsihin davamçıları arasında olan mübahisəli məsələlər (1-5-ci suallar)

**5-ci sual:**
- (a) – (e) cümlələrindən hansıları qeyd etdiniz?
- (f) bəndinə aid öz təcrübənizdən nə yazdınız?

### Allah mübahisəli məsələmizi həll etmək istəyir (6-cı sual)

**6-cı sual:**
- Sizcə, hərəkətlərimiz Allahı kədərləndirə bilərmi? *İslam hərəkətlərimizin Allaha təsir göstərə bilmədiyini öyrədir. Müqəddəs Kitab isə bunun əksini öyrədir. Məsələn, Yaradılış 6:5-6-da Allah "peşman oldu və ürəyində kədərləndi".*
- Sizcə, bizim mübahisəli məsələlərimiz Allahı nə üçün kədərləndirir?

*Məsələn, Məsih bizə sülh gətirmək üçün böyük qiymət ödədi. O, bizim sülhdə yaşamağımızı istəyir. Həmçinin mübahisə qeyri-imanlılara pis şəhadətdir.*

**1Peter 3:8-12-ni oxuyun:**
- Hansı yaxşı hərəkətlər və münasibətlər bir-birimizlə sülhdə yaşamağımıza kömək edir (8-ci ayə)?
- Hansı pis hərəkətlərə yol verməməliyik? (9-cu ayə)
- Bunun əvəzində biz nə etməliyik?
- 10-cu ayəyə görə, daha nə etməliyik? Nə üçün?
- Bu ayələr mübahisədə davranışınızı necə dəyişəcək?
- Bu ayələrdən hansı ayəni əzbərləmək və təkrarlamaq gərəkdir?

*8-ci ayə: harmoniyada yaşamaq, başqasını sevmək; şəfqətli, mərhəmətli, həlim olmaq.*
*9-cu ayə: pisliyə pislik etmək və ya təhqirə təhqirlə cavab vermək.*
*Pislik edənə xeyir-dua verməliyik.*
*10-cu ayə: "dilini şərdən, ağzını hiylə danışmaqdan qoru".*
*Hamısını, çünki şər dillər və hiylə danışmaq mübahisəli məsələni oyadır.*

### Mübahisəli məsələlərin pis yollarla həlli (7-10-cu suallar)

**7-10-cu suallar:** Mübahisəli məsələnin həllinə aid üç pis yolu müzakirə edin.
- Adamlara və münasibətlərə onlar hansı mənfi təsiri göstərir?
- Bu pis yollarda kimin təcrübəsi var? Hansı mənfi nəticələr baş verib?

## Mübahisəli məsələləri həll etməyin yaxşı yolu (11-23-cü suallar)

**Mübahisəli məsələləri hansı üç addım ilə həll etmək olar? Hər birini müzakirə edəcəyik.**

### 1-ci addım: Hisslərinizi Allaha etiraf edin.

**11-13-cü suallar:** Digər şəxs ilə söhbət etməzdən əvvəl nə üçün hisslərimizi Allaha etiraf etməliyik?

*Allahın köməyi ilə biz özümüzü idarə edə bilərik. Bu, ən yaxşı yoldur. Sonra söhbət dərhal sakitləşir. Söhbətə qəzəblə başlasaq, vəziyyət daha da pisləşəcək.*

### 2-ci addım: Digər şəxs ilə söhbət edin.

**14-cü sual:** Nitqləri oxuyun.

- Onların müzakirəsində yaxşı cəhət nədir?
- Bunların hamısı onlara mübahisənin həllində necə kömək edir?

*Onlar sakitdirlər, diqqətlə qulaq asırlar, sözü kəsmirlər, hissləri təsvir edirlər, məhəbbətlə və düzgün danışırlar.*

**17-ci sual:**

- Burada nə yazdınız? Nə üçün?

*Problem barədə çox adama danışsaq, söhbət böyüyər və yayılar. Bu, küləyə atılmış toxumlara bənzəyir; ağrını artırır, barışı çətinləşdirir.*

- Vasitəçi kimi üçüncü şəxsi dəvət etmək yaxşıdırmı?

*Bunu müzakirə edin. Adətən məsələni iki nəfər arasında həll etmək daha yaxşıdır. Lakin bəzən onlar özləri məsələni həll edə bilmirlərsə, hər ikisinin hörmət etdiyi bir vasitəçiyə müraciət etmək yaxşıdır. Xüsusilə, mübahisədə olan bir nəfər digər tərəfi özünə tabe etdirməyə çalışanda bu, məsləhətlidir (bax.9-cu sual).*

### 3-cü addım: Üzr istəyin və bağışlayın.

**20-ci sual:** Nitqləri oxuyun.

- Bu söhbətdə kim üzr istəyir: Əli, yoxsa Kərim?

*Hər ikisi! Onların hər ikisi qismən təqsirkardır və onlar buna görə üzr istəyirlər.*

**Təcrübi məşğələ – Mübahisəli məsələnin həlli səhnəcikdə (5 dəqiqə + müzakirə)**

Qrupu cütlərə bölün və onlara rolları verin (1 və ya 2). Bir nəfər şəxs A, digəri isə şəxs B olmalıdır. Cütlər mübahisəni "həll etməyə" çalışmalıdırlar. Bundan sonra bir və ya iki cüt könüllü olaraq öz səhnəciklərini bütün qrupa göstərə bilərlər.

1. Dostuna borc pul verən (A) və vaxtında pulunu geri qaytarmayan şəxs (B). Beləliklə, şəxs A şəxs B barədə kiməsə şikayət edir.
2. Ər və arvad öz qohumlarını şam yeməyinə dəvət edirlər. Arvad (şəxs B) yeməyi gec gətirir, onun əri (şəxs A) qonaqların yanında ona qəzəblənir. Arvad ərinin onu təhqir etdiyini fikirləşir, əri isə arvadın onu təhqir etdiyini fikirləşir.

**Səhnəciklərdən sonra: Onlar üç addımdan istifadə etdilərmi? Bu, necə idi? Nə öyrəndiniz?**

**22-23-cü sual:**

- Biz nə üçün bağışlamalıyıq? *Çünki Allah bizi bağışlayıb.*
- Başqasını neçə dəfə bağışlamalıyıq? Matta 18:21-22-ni birlikdə oxuyun və müzakirə edin.
- 23-cü suala aid şəklə baxın. Barışanda keçirdiyiniz hissləri təsvir edin.
- Kimsə barışmaq istəmirsə, nə etməliyik? *Müəllimin sözlərini oxuyun.*

**Dua üçün vaxt ayırın; hər kəs mübahisəli məsələ barədə Allaha ürəyində söyləsin.**

## Dərsin sonu

**Bugünkü təlimə riayət edin:**

- Mübahisəli məsələlərin həllinə aid siz bu gün nə öyrəndiniz?
- Ev tapşırığını birlikdə oxuyun.
- Ev tapşırığı sizi digər şəxs ilə söhbətə hazırlayır. Siz söhbəti etməlisiniz. Allah deyən, düzgün vaxtda gedin və digər şəxs ilə söhbət edin.

**Birlikdə dua edin: Yadda saxlayın ki, biz bağışlamalıyıq!**

1. Birlikdə mahnı oxuyun və ya bağışlamaq barədə mahnı ilə səhnəciyi göstərin (ingilis və ya tələbələrinizin dilində). Məsələn, «Mən bağışlanmışam». Adamların fikrini cəlb etmək üçün çarmıx qoya bilərsiniz. Məsihin bizi bağışladığı barədə düşünmək üçün vaxt ayırın.
2. Adamlardan sakitcə dua etməyi xahiş edin ki, Allah onlara hamı ilə barışmağa və sülhdə yaşamağa kömək etsin.
3. Bu həftə ərzində bağışlamaq və barışmaq məsələlərinə xeyir-dua və müdafiə diləyərək dua edin.

# 13-cü dərs: Şəhadət etmək barədə

**Hər bir şagirdə aid məqsədlər:**
a. Məsih barədə adamlara danışmağı arzulamaq.
b. Kimə və nə vaxt deməyi seçəndə müdrik olmaq.
c. İsa Məsihin qurbanını izah edə bilmək.
d. Əzbərləyin: 1Peter 3:18.

**Mədəniyyətə aid nümunələr:**
- Müsəlmanlar və kəlmeyi-şəhadət
- Cəsarət, yoxsa ehtiyat?
- «Körpü» diaqramı

**Hazırlayın:** 13-cü suala aid videoklip (bir variant kimi)

## *Dərsin əvvəlində*

**Ev tapşırığının icmalı:** Mübahisəli məsələni həll edə bildinizmi və ya siz hələ də yaxşı imkan barədə dua edirsiniz? Nə baş verdi?

**Xeyirxahlığına görə Allaha şükür edin, sonra bu dərs üçün dua edin.**

**13-cü dərsin sonundakı İCMAL bölməsində cavabları yoxlayın:**
**1-ci sual:** a) qorxmayın; b) hazır olun; c) həlimlik, ehtiramla
**2-ci sual:** a) hazır olun; b) həlimlik, ehtiramla
**3-cü sual:** 10-cu suala baxın (1Pet.3:18).

**Bugünkü mövzunu söyləyin: Məsihdə yeni həyat barədə bizə kim dedi?** *Hər kəsdən bölüşməyi xahiş edin.*

Bizdə yeni həyat var, çünki kimsə bizə bu barədə söylədi. Eyni yol ilə biz də yeni həyatımız barədə bölüşməliyik və digərlərinə bu yolu göstərməliyik. Şəhadət bütün məsihçilərin öhdəliyidir.

## *Müzakirə*

### Məsih barədə şəhadət (1-ci sual)

**1Peter 3:14-18-i oxuyun.**
- 1Peter 3:14-15-dən şəhadətə aid hansı üç vacib qaydanı öyrəndik?

*«qorxmayın və lərzəyə düşməyin», «cavab vermək üçün hazır olun», «həlimliklə və ehtiramla» danışın.*

### Qorxmayın (2-7-ci suallar)



**5-ci sual:** Sualı oxuyun.
- Hansı tələbənin müsəlman ailə üzvləri məsihçi olduğunuzu bilir?
- Adətən siz şəkildəki kişi, yaxud qadın kimi dua edirsiz?

**6-cı sual:** Sualı oxuyun. Hansı cavabı yazdınız?
- Müsəlman qohumlarınız məsihçi olduğunuzu biləndə sınaqdan keçmisinizmi? Belədirsə, nə baş verdi və nəticədə nə oldu? *Müzakirə vacibdir, onları tələsdirməyin.*
- Hələ sınaqdan keçməmisinizsə, bunu söyləyəcəyiniz vaxtı müəyyən edə bilərsinizmi? Yoxsa bunu özünüzdən eşitmələrini istəmirsiz? *Hər halda, biz buna hazır olmalıyıq, çünki bu, gözlənilməyən vaxt baş verə bilər.*

### Cavab vermək üçün hazır olun (8-13-cü suallar)

**8-ci sual:** Tələbələrdən A, B və C barədə fikirlərini söyləməyi xahiş edin. *Cavablar belə ola bilər:*
*A. Oğul atanın səlahiyyətini və xasiyyətini göstərir. Biz hərfi mənada deyil, məcazi mənada «oğul» sözündən istifadə edirik. Məsələn, ərəb dilində «yol oğlu» – "səyahətçi" deməkdir; fars dilində isə «Kabil oğlu» Kabildə yaşayana deyilir. Azərbaycan dilində "el oğlu" ifadəsi mövcuddur, "xalqın ləyaqətli oğlu" mənasını daşıyır.*
*B. Biz ata-babalarımızı, nəslimizi və ailəmizi sevirik. Mən İsa Məsihin ardınca gedirəm. O, Qərbdən deyil, Şərqdən idi. Birinci minillikdə dünyadakı məsihçilərin əksəriyyəti Qərb sakinləri deyildilər. Bu gün də bu, belədir!*
*C. Məsihçilər Müqəddəs Kitabı dəyişməyiblər. Bu fikir düzgün deyil. Dünyanın muzeylərində bu gün minlərlə Müqəddəs Kitabın köhnə əlyazmaları var. Onları müqayisə etsək, Müqəddəs Kitabın mətninə etibar edə bilərik.*

**9-cu sual:** Nitqi oxuyun. Bu qadına nə cavab verərdiz?
**10-cu sual:** Sualı oxuyun və əzbər ayəni təkrarlayın.

## Təcrübə: Xoş Xəbəri adamlara demək barədə

**13-cü sual:** Qrupu cütlərə bölün.

- Birinci şəxs üç dəqiqə ərzində İsa Məsihin qurbanı barədə danışır. O, 13-cü suala aid yazdığı cavabdan istifadə etməlidir. Həmçinin istəsələr, Əlavə 2-dən istifadə edə bilərlər.
- Sonra rolları dəyişin. İndi ikinci şəxs üç dəqiqə ərzində izah edir.
- Yenə birlikdə qrupa qayıdın. Bu çalışma «cavab verməyə hazır» olmaqda sizə kömək etdimi?
- İsa Məsihin Qurbanını adamlara izah etməkdə 1Peter 3:18 sizə faydalı oldumu?

**Söhbətimizi peyğəmbərlərdən başlayaq:**

- Biz mütləq dərhal İsa və Əhdi-Cədiddən başlamamalıyıq. Əhdi-Ətiqin peyğəmbərlərindən başlayıb İsa Məsihə necə keçə bilərsiniz?

*Müsəlman dostlarımız bu peyğəmbərləri çox yaxşı tanıyırlar: Adəm, Nuh, İbrahim, Yusif, Musa və Davud. Lakin Quran onlar barədə çox məlumat vermir. Tövratda bu peyğəmbərlər barədə çoxlu maraqlı məlumatın olduğunu dostlarımıza deyə bilərik. Sonra, bu hekayələrdən istifadə edərək, biz onların mükəmməl qurban olan və Adəmin lənətini aradan qaldıran İsa Məsih barədə peyğəmbərlik etdikləri barədə danışa bilərik.*

***Vaxt varsa, yutubda İsa filmi (yaradılışdan başlayan variant) və ya «peyğəmbərlərin hekayəsi» filminə baxın. Hər ikisi 8 dəqiqədir və bir çox dillərdə verilir.***

## Həlimliklə və ehtiramla (14-18-ci suallar)

**16-17-ci suallar:** Sualları oxuyun.

- 17-ci suala aid, bu çətin vəziyyətlərin hər birində nə edərdiniz? *İlk iki vəziyyət vaxt getdikcə dəyişə bilər. Üçüncü isə daha ciddidir, çünki onun nəticələri həmişəlikdir.*
- Məsihə görə müsəlman qohumlarınızdan imtina etməyə məcbur olanda bunu «həlimliklə və ehtiramla» necə etmək olar? *Qəzəblə deyil, hörmətlə danışın. Gündəlik həyatda ailənizə əməldə xeyirxahlıq edin və onlara məhəbbətinizi göstərin. Onlara xəcalət verən hərəkətlər etməyin. Düzgün vaxtı seçin.*

## Həyat çörəyi (19-20-ci suallar)

**19-cu sual:**

- «Bu, bir dilənçinin başqa dilənçiyə çörəyi haradan tapmaq mümkün olduğu barədə söyləməsinə bənzəyir». Nə üçün bizə belə tapşırıq verilir?

*Məhkəmədə Mehdi Dibaj bu fars atalar sözü ilə belə cavab vermişdi: «Müjdə ilə bölüşməyimə qarşıdırlar. Lakin quyunun yanında gəzən kora xəbərdarlıq etməyən təqsirkardır.” Altı ay sonra o qətlə yetirildi. Cəsarətli şəhadəti onun həyatı bahasına başa gəldi. Şahid şəhid oldu.*

- Şəhadət ölümə dəyərmi? Nə düşünürsünüz?

**20-ci sual:** Hekayəni və sualı oxuyun.

- İsa Məsih barədə ailəmizə nə vaxt söyləyək? Bunu tələsərək həddindən tez, yaxud uzun müddət gözləyərək həddindən gec deyə bilərik. Tarazlığı necə tapaq?

***Təcrübəli imanlıların məsləhəti belədir:***

► Ailənizə müsbət dəyişiklikləri həyatınızla göstərsin; ►Ailənizin dinini tənqid etməyə tələsməyin; ►Məsihçi olduğunuzu tələsib deməyin; ► Müqəddəs Kitabın təlimini faydalı hesab etdiyiniz barədə sözü tədricən söyləyin; ►Ailəniz məsihçi olduğunuz barədə açıq sual versə, bunu inkar etməyin; ► Allaha onların ürəklərini hazırlaması üçün çoxlu dua edin; ► Əvvəlcə sizə daha yaxın olan ailə üzvlərinizə deyin; ►Ailəniz gözlədiyinizdən daha tez məsihçi olduğunuz barədə bilə bilər, lakin Allah vəziyyəti idarə edir və bu, sizin xeyrinizə olacaq.

## *Dərsin sonu*

**Bugünkü təlimə riayət edin:** Bu dərs həyatınızı necə dəyişdi?

- **Ev tapşırığını birlikdə oxuyun.** İsa barədə nə deyəcəksiniz?

**Birlikdə dua edin:** Tələbələrdən xahiş edin cütlərə bölünərək onların imanı barədə bilənlər haqda danışsınlar; sonra bir-biriniz üçün dua edin və yaxşı şahid (xüsusilə, öz ailəmizdə) olmaq üçün Rəbdən müdriklik, güc istəyin.

# 14-cü dərs: Vəftiz

| **Hər bir şagirdə aid məqsədlər:** | **Mədəniyyətə aid nümunələr:** |
|---|---|
| a. Vəftizə aid həqiqətləri anlamaq.<br>b. Keçmişdə vəftiz olunduqlarına görə minnətdar olmaq və ya gələcəkdə vəftizi planlaşdırmaq.<br>c. Əzbərləyin: Matta 28:19. | • Keçmişdə müsəlman olan imanlılar və vəftiz<br>• İslamda dəstəmaz |

## *Dərsin əvvəlində*

**Ötən həftənin ev tapşırığı:** Bu həftə ərzində şəhadət etmək və ya imanınızla bölüşmək imkanınız oldumu? İmkanı olmayanlara sual verin: *«Bu barədə dua edirsinizmi?»*

**14-cü dərsin sonundakı İCMAL bölməsində cavabları yoxlayın:**

**1-ci sual:** "Gedin, bütün millətləri Mənim şagirdim edin; onları Ata, Oğul və Müqəddəs Ruh adı ilə vəftiz edin" (Mat.28:19).

**2-ci sual:** a) yeni şəxs; b) günahlarım yuyuldu; c) cəmiyyətinin üzvü

**3-cü sual:** çox vacibdir

**Bugünkü mövzunu söyləyin:**



Şəkildəki Həmidə bənzəyirikmi? Vəftiz barədə hansı suallarınız var?

Bu gün biz suallarınızı cavablandırmağa çalışacağıq.

**Bugünkü dərs üçün dua edin** *və ya bir tələbədən dua etməyi xahiş edin.*

## *Müzakirə*

### Mən nə üçün vəftiz olunmalıyam? (2-3-cü suallar)

**2-ci sual:** Sualı oxuyun.

- Vəftiz olunmağın ən yaxşı səbəbi nədir? *Rəbbimiz İsa Məsih bunu əmr etmişdir.*
- Bilirsiz Məsih bu əmri nə vaxt verdi? *Dirilədən sonra, səmalara getməzdən əvvəl. O, şagirdlərinə başladığı işi davam etdirməyi tapşırdı. O vaxtdan etibarən məsihçilər insanları şagird edərək onları vəftiz edirlər.*
- Matta 28:19-cu ayəni kim əzbər deyə bilər? *Hər bir tələbədən bu ayəni söyləməyi xahiş edin.*

### Vəftiz nəyi göstərir? *Məsihdə yeni şəxs olduğumu* (4-8-ci suallar)

**4-cü sual:** Birinci paraqrafı oxuyun.

- Köhnə və yeni təbiətimizə aid vəftizin nəyi göstərdiyini öz sözlərinizlə izah edin. *Köhnə təbiətimiz ölür. Yeni təbiət yeni həyat yaşamaq üçün dirilir.*

**7-ci sual:** Firuzun hekayəsini oxuyun.

- Vəftiz olunaraq sudan çıxanda özünüzü Firuz kimi hiss etdinizmi?
- Nə hiss edirdiniz?

### Vəftiz nəyi göstərir? Günahlarım yuyulub (9-11-ci suallar)

**10-cu sual:** Birinci paraqrafı oxuyun.

- Vəftizin suyu günahları yuya bilərmi? *Xeyr*
- Günahlarımızı nə yuyur? *1Yəh.1:7 – bizi İsanın qanı təmizləyir. Su yalnız bədənin çirkini yuyur, vəftiz isə günahdan təmizlənmənin rəmzidir.*

### Vəftiz nəyi göstərir? *Məsihin cəmiyyətinə üzv olmağımı göstərir* (12-14-cü suallar)

**12-13-cü suallar:** Məsihin cəmiyyətinə üzv olmaq barədə bütün sualı oxuyun.

- «Özümə görə vəftiz olunuram. Bu, mənimlə Allahın arasındadır. Mən məsihçi cəmiyyətinə üzv olmaq

niyyətində deyiləm». Belə deyən adama cavabınız nə olar?

*1Kor.12:13-cü ayəyə görə, vəftiz Məsihin Bədəninin – Onun cəmiyyətinin üzvü olmaq deməkdir. Bu, ənənəvi məsihçi cəmiyyəti ola bilər, olmaya da bilər. Lakin biz imanlıların cəmiyyəti ilə birləşməliyik. Biz onlara aidik və onlar da bizə aiddirlər. Birlikdə biz Allahın seçilmiş xalqı oluruq.*

**14-cü sual:** Kitablarınıza baxmadan, üç həqiqətə nəzər salın: vəftiz nəyi göstərir?

- Bunlardan sizin üçün ən vacibi hansıdır?

## Vəftiz çox vacibdirmi? (15-17-ci suallar)

**15-16-cı suallar:**

- Hər imanlının vəftiz olunması vacibdirmi? Nə üçün? Müzakirə edin.

**Şəhadət:**

Təsəvvür edin ki, indi sizin vəftizinizdir və siz bütün qrup qarşısında şəhadət edirsiz. Beş dəqiqə ərzində nə deyərdiniz? 16-cı suala aid yazdıqlarınızdan istifadə edə bilərsiniz.

*Bir və ya bir neçə adamdan xahiş edin, bütün qrup qarşısında şəhadət etsinlər və ya cütlərə bölünərək növbə ilə şəhadət edin. Siz özünüz də şəhadətlə bölüşməyə hazır olun! Keçmişdə müsəlman olan imanlılar çox vaxt şəhadət etməyə çağırılırlar. Bəzən onlar dəfələrlə şəhadət edirlər və diqqət mərkəzində olmaq istəmirlər. Qrup qarşısında şəhadət etməyi məşq etmək istəyənləri dəvət edəndə bu barədə bilməlisiniz.*

## Mən nə vaxt vəftiz olunmalıyam?

**21-ci sual:** Bu suala aid nə yazdınız? *Bəzi təkliflər, vəziyyətdən asılı olaraq.*

- Bunu açıq elan etməyin. Əvəzində, etibar etdiyiniz adamları təklikdə dəvət edin;
- Vəftizi sakit yerdə keçirin, kənardan müşahidəçilər olmasın;
- Yalnız bir nəfər şəkil çəksin; şəkilləri vəftiz olunanların özləri istədikləri adamlara verməlidirlər;
- Şəkil çəkən adam suda ikən adamların şəklini çəkməsin (şəkli vəftizdən sonra qrupda dostlar ilə çəkmək yaxşıdır);
- Vəftizə aid şəhadətnamə verilirsə, onu çox etibarlı yerdə saxlayın.

**22-ci sual:** Birinci paraqrafı oxuyun.

- Burada nə yazdınız?

*Birlikdə müzakirə edin. «Düzgün» cavab yoxdur? Çünki hər şey vəziyyətlərdən asılıdır. Həyat yoldaşı ilə birlikdə vəftiz olunmaq üçün onların imana gəlməsini gözləyənlər çox vaxt buna şad olurlar. Lakin bir çox ildən sonra həyat yoldaşı hələ də Məsihə gəlmirsə, imanlı tək vəftiz olunmağı qərara alır.*

**Fikir verin:** 21 və 22-ci suallara aid tələbələrin yazdıqlarını yoxlayın. Yazanda onlar bu barədə daha ciddi düşünürlər və müzakirədə fəal iştirak edirlər.

- Müəllimin sözlərini oxuyun.
- Bəli, vəftizin riskli məsələ olduğuna baxmayaraq, biz çox qorxmamalıyıq. Bayram etmək vaxtıdır!

## *Dərsin sonu*

**Bugünkü təlimə riayət edin:**

- Bugünkü təlim həyatınızı necə dəyişdi?
- **Ev tapşırığını birlikdə oxuyun. Bir tələbə söhbət etməyə yoldaş tapmırsa, onun üçün bir nəfəri təyin edin.**
- Vəftiz olunmamısınızsa, siz bu həftənin tapşırığını yerinə yetirməlisiniz. Siz vəftiz olunmusunuzsa, bu həftə ərzində qrupun vəftiz barədə düşünən bir üzvü ilə görüşə bilərsiniz. Ona məsləhət edin və onun üçün dua edin.

**Birlikdə dua edin:**

Tələbələrə sakitcə dua etmək və nə vaxt, necə vəftiz olunacağı barədə düşünmək üçün bir neçə dəqiqə verin.

Sonra xahiş edin, hər kəs Allaha nəyə görə minnətdar olduğu barədə danışsın və ehtiyacları barədə bölüşsün. Allaha şükür edin və bu ehtiyaclar üçün dua edin.

# 15-ci dərs : Doğru yol

**Hər bir şagirdə aid məqsədlər:**
a. Özü üçün deyil, Allah üçün yaşamaq.
b. Öz gücümüzlə doğru yol ilə gedə bilmədiyimizi etiraf etmək.
c. Məsihə itaətin həqiqi azadlıq gətirdiyini anlamaq.
d. Əzbərləyin: 1Kor.6:19-20.

**Mədəniyyətə aid nümunələr:**
- İslamda şəriət və qanuna riayət
- Müsəlmanlar və doğru yol
- «Böyük» və «balaca» günahlar

## *Dərsin əvvəlində*

**Ötən həftənin ev tapşırığı:** Vəftizə aid məsləhət aldınızmı və ya məsləhət verdinizmi? Nə qərara gəldiniz?
*Tezliklə vəftiz olunmaq istəyən tələbə varsa, dərsdən sonra onunla görüşüb söhbət edin.*

**15-ci dərsin sonundakı İCMAL bölməsində cavabları yoxlayın:**
**1-ci sual:** a) Musanın Qanunu; b) Məsihin Qanunu
**2-ci sual:** Müqəddəs
**3-cü sual:** a), b) və c) Məsihin şəriəti (Qanunu) qadağan edir; (d) və (e): onların yazdıqları ilə maraqlanın.
**4-cü sual:** 1Kor.6:19-20. Bax. 21-ci sual.

**Bugünkü mövzunu söyləyin:** Sizcə, məsihçilikdə qaydalar İslamın qaydalarından asandır, yoxsa daha çətindir?
*Müzakirə edin. İmkan verin ki, tələbələr öz fikirləri ilə bölüşsünlər. Növbəti 3 həftə ərzində biz şəriətin müxtəlif növləri barədə öyrənəcəyik.*

## *Müzakirə*

### Adamlar nə üçün doğru yol ilə gedə bilmirlər? (1-4-cü suallar)

**Sərxoşun şəklinə baxın.**



- Nə üçün bu kişi düz gedə bilmir? *Sərxoş olduğuna görə.*
- Bu nümunənin ruhani mənası nədir? *İnsanlar günahın təsiri altındadırlar və günaha aludədirlər. Onlar düz yol ilə getmək istəsələr belə, gedə bilmirlər.*
- Namazda adamlar «məni doğru yola yönəlt», deyə dua edirlər. Onlar Allahın insanlara istiqamət vermək üçün minlərlə peyğəmbər göndərdiyini düşünürlər. Lakin verilən istiqamət doğru yol ilə getmək üçün kifayətdirmi? Nə üçün kifayət deyil? Dua və peyğəmbərlər yaxşıdır, lakin adamların doğru yol ilə getməsi üçün qüdrətə ehtiyac duyurlar.

**3-cü sual:** Sualı oxuyun.
- Kitaba görə, d) cavabı düzgündür. Siz bununla razısınızmı?
- Müsəlman dostunuza necə izah edərsiz ki, əlavə qanunlar, əlavə dualar və əlavə əməllər adamları günahdan azad etmək üçün kifayət deyil?

*Bunlar insani səviyyədə bir az kömək edir, lakin əsas problemi aradan qaldırmır. Bunun üçün Allahın qüdrəti gərəkdir.*

### Təmiz və natəmiz (5-6-cı suallar)

**5-ci sual:** Sualı oxuyun.
- Hansı sözlərin altından xətt çəkdiniz?
- Halal (təmiz) qida fariseyləri daxildən təmizlədimi? Nə üçün təmizləmədi?
- Hansı daha pisdir: natəmiz qida, yoxsa natəmiz fikirlər?

*Pis fikirlər, cinsi əxlaqsızlıq, oğurluq, qatillik, zinakarlıq, tamahkarlıq, şər əməllər, hiylə, pozğunluq, paxıllıq, küfr, lovğalıq və ağılsızlıq.*
*Xeyr, çünki onların daxilindəki günahlar onları daxildən murdar edir.*
*Natəmiz fikirləriniz daha pisdir, çünki onlar ürəyimizi murdarlayır, sonra natəmiz sözlər və əməllər gəlir.*

**6-cı sual:** Nə yazdınız?
- Nəyi yumaq daha asandır: əlləri, yoxsa ürəyi?

*Tələbələr öz fikirlərini yazanda onlar bu barədə daha dərindən düşünürlər və müzakirəyə hazır olurlar.*

### Natəmiz ürəyə Allahın çarəsi (7-10-cu suallar)

**7-ci sual:** Sualı oxuyun və öz adını deyən hər bir adamla ayəni birlikdə təkrarlayın.
- Doğru yol ilə getmək arzusunu bizə kim verir? Bizi buna kim qadir edir? Allahın Ruhu.

## Allah üçün yaşamaq (11-16-cı suallar)

**15-ci sual:** Variantlara birlikdə baxın.

- Cavab (a) aydındır. Bəs, (b) cavabı necə? Kiçik günahlar hesab olunurmu? Nə üçün?
- Cavab d) və ya e) barədə nə fikirləşirsiniz?
- Günah etmək niyyətimiz varsa, lakin günah etmiriksə, bu, günahdırmı?

*Bəlkə, İslamda bunların əhəmiyyəti yoxdur, lakin Məsihin şəriətində bunların əhəmiyyəti var, çünki Onun tələbləri çox yüksəkdir.*
*Şeytan bizi şər ilə sınağa çəkirsə və biz müqavimət göstəririksə, bu, günah deyil. Lakin biz bu barədə könüllü düşünürüksə və ya bunu etməyi planlaşdırırıqsa, bu, günahdır.*

**16-cı sual:** Sualı oxuyun.

- Sizcə, siyahıda hansı cavablar vacibdir? Nə üçün? *Cavablar b), c), e) və g) Peterin Birinci Məktubundandır, buna görə də onlar Məsihin qanununa aiddir. a), d) və f) İncildən deyil, buna görə də Məsihin davamçıları üçün bunlar seçimdir. Həmçinin b), c), e) və g) bizim digərləri ilə münasibətimiz və davranışımız barədədir. Məsihin şəriətinə görə, bunlar zahiri görünüş və ya adətə aid olan a), d) və f)-dən daha vacibdir.*

## Həqiqi azadlıq (17-22-ci suallar)

**Rom.6:11-18-i oxuyun:** Bunlar çətin ayələrdir. *Tələbələrə anlamaqda kömək etmək üçün ayələri iki dəfə oxuyun və ya müxtəlif tərcümələrdə oxuyun.*

- Bu ayələrin əsas mənasını kim izah edə bilər?
- 11-ci ayəyə görə, biz nəyə münasibətdə ölü və nəyə münasibətdə diri saymalıyıq? *Günah üçün ölü, Allah üçün diri.*
- 12, 13 və 14-cü ayələr həyatımızda günaha qarşı mübarizə aparmaq barədə bizə üç dəfə deyir. Bu üç əmr hansılardır? *“qoymayın ki, günah sizin fani bədəninizə hökmranlıq etsin” (12-ci ayə), “Bədəninizin üzvlərini də haqsızlıq aləti olmaq üçün günaha təslim etməyin” (13-cü ayə), “Günah sizə hökmranlıq etməyəcək” (14-cü ayə).*
- 14-cü ayəyə görə, nə üçün günah daha bizim ağamız deyil? *Biz qanunun deyil, lütfün altındayıq.*
- Biz “lütfün altında” olduğumuza görə, istədiyimizi edə bilərikmi? Nə üçün? 15-16-cı ayələrə baxın. *Xeyr! Çünki biz özümüzü yeni ağamıza təslim etməliyik. Allah bizim yeni ağamızdır. Biz Allaha itaət etmək üçün azadıq, lakin günah etmək üçün azad deyilik.*
- 17-18-ci ayələr deyir: indi biz salehliyin qullarıyıq. Təcrübədə bu, yükdür, yoxsa sevinc? *Bu, sevincdir. Müzakirə vaxtı daha çox günaha qarşı mübarizənin çətinliyi barədə deyil, Allaha həsr olunmuş həyatın müsbət cəhətləri barədə danışmaq gərəkdir.*
- Dayanın və fikirləşin: Günaha qul olmaq istəyirsiz, yoxsa Allaha itaət etmək üçün azad olmaq istəyirsiz?

**17-ci sual:** Bütün sualı oxuyun.

- Burada nə yazdınız? *1Peter 4:2-3 öyrədir ki, biz daha öz istəklərimizlə yaşamayaq və Allah üçün yaşamağa başlayaq.*



**19-cu sual:** Şəkildəki kişiyə baxın.

- Bu kişi əslində azaddır, yoxsa azad deyil? Nə yazdınız?

**20-ci sual:** Həmin kişi yenə buradadır.

- Onun zəncirləri ilə nə baş verdi? *Çarmıxda qırıldı.*
- Həqiqi azadlığı necə əldə edirik? Özümüz üçün yaşamaq ilə, yoxsa İsa Məsih üçün yaşamaq ilə? *Həqiqi azadlıq Məsihin qulu olanda başlayır. Qəribə səslənsə də, bu, həqiqətdir.*
- Gəlin həyatımızdan nümunələr gətirək. İsa bizi pis vərdişlərdən necə azad etdi? *Bir məsləhətçi kimi, öz həyatınızda baş verənlər barədə bölüşün. Həmçinin Allah üçün həyat yaşamağın əsl sevinc olduğu barədə də danışın.*

**21-ci sual:** Ayəni oxuyun və əzbər söyləyin (1Kor.6:19-20). Qrupun hər üzvü ayəni növbə ilə yanındakı şəxsə deməlidir; onların adını ayədə söyləməlidir. Məsələn, «Ömər, məgər bilmirsiniz ki, bədəniniz Allahdan aldığınız...»

## *Dərsin sonu*

**Bugünkü təlimə riayət edin:** Bu gün hansı əhəmiyyətli həqiqəti öyrəndiniz? Bu, həyatınızı necə dəyişdi?
**Ev tapşırığını birlikdə oxuyun.** Bu, bizə müəyyən günaha görə başqa şəxsin qarşısında cavabdeh olmağa kömək edir. Cütlərə bölünərək, qəzəblə apardığınız mübarizə barədə qısaca bölüşün. Bu həftə ərzində qəzəbinizi necə idarə etdiyiniz barədə bir dəftərdə düzünü yazın. Siz hətta bir-birinizə bu barədə SMS göndərə bilərsiniz.

**Cütlərə bölünərək dua edin:** Günahın əsarətindən bizi azad etdiyinə görə Allaha təşəkkür edin. Məsihin əsiri olmaq üçün bu həftə ərzində Ondan kömək istəyin.

# 16-cı dərs: Məhəbbət qanunu

**Hər bir şagirdə aid məqsədlər:**
a. Rəbbi bütün ürəyimizlə, yaxınımızı isə özümüz kimi sevməyə çalışmaq.
b. Buna əmin olmaq: Allahın bizə olan məhəbbəti bizim Ona münasibətimizdən asılı deyil.
c. Allaha minnətdarlığa görə xidmət etmək istədiyimizi anlamaq.
d. Əzbərləyin: Mark 12:30-31.

**Mədəniyyətə aid nümunələr:**
- Müsəlmanlar hansı niyyət ilə itaət edirlər?
- Müsəlmanlar, keçmişdə müsəlman olan imanlılar və düşmənçilik

**Hazırlayın:** Rəbbin Süfrəsi üçün çörək və meyvə şirəsi.

## *Dərsin əvvəlində*

**Ötən həftənin ev tapşırığı:** Bu həftə ərzində qəzəbinizi necə idarə edə bildiniz? Ötən həftədəki kimi, yenə cütlərə bölünün və bir-birinizlə uğur və çətinlikləriniz barədə bölüşün. *5 dəqiqə bölüşəndən sonra bu duanı Allaha söyləyin və tələbələrdən sizdən sonra duanı təkrarlamağı xahiş edin:*

> Ata Allahımız... Günahlarımızı etiraf ediriksə, Sən sadiq və ədalətli olduğun üçün günahlarımızı bağışlayacaq və bizi hər haqsızlıqdan təmizləyəcəksən. Bu vədinə görə Sənə minnətdarıq. Lütfən, ötən həftə söylədiyimiz bütün qəzəbli sözlərə görə bizi bağışla… Bu həftə ərzində daha yaxşı xidmət etməyimiz üçün bizi təmizlə və Öz Ruhunla doldur. Rəbbimiz İsa Məsihin adı ilə dua edirik. Amin.

**16-cı dərsin sonundakı İCMAL bölməsində cavabları yoxlayın:**
**1-ci sual:** Birinci Əmr: "Allahın Rəbbi bütün qəlbinlə, bütün varlığınla, bütün düşüncənlə və bütün gücünlə sev". İkinci Əmr: "Qonşunu özün kimi sev" (Mark 12: 30-31).
**2-ci sual:** Məhəbbət
**3-cü sual:** a) Səhv; b) Düzgün
**Bugünkü mövzunu söyləyin:** İndi biz İsa Məsihin davamçılarıyıq. Biz hansı qayda və ya qanunlara görə yaşamalıyıq? *Məsihin qanunu və ya Məsihin şəriətinə görə.* Məsihin şəriətini "Məhəbbət qanunu" adlandıra bilərik. Bu gün Allahın bizə olan məhəbbəti, Allaha bizim məhəbbətimiz və adamlara olan bizim məhəbbətimiz barədə öyrənəcəyik.

## *Müzakirə*

### Allah ilk olaraq bizi sevdi (1-5-ci suallar)

İki xidmətçinin şəklinə baxın. Hansı xidmətçi öz ağasına məmnuniyyətlə xidmət edir? Bunun bizim üçün mənası nədir? *Bizi xilas etdiyinə görə Allaha minnətdarlıqla xidmət edirik. Digərləri cəzadan qorxaraq Ona xidmət edirlər.*

**4-cü sual:** Sualı oxuyun.
- Biz Allahın məhəbbətində tamamilə təhlükəsiz oluruqmu?
- Allah bizi müvəqqəti olsa da, cəhənnəmə göndərəcəkmi?
- Bəs, biz nə üçün Allaha bütün ürəyimizlə xidmət etməliyik?

*Bəli, Məsihdə olanda təhlükəsiz oluruq. Məsih bütün günahlarımıza görə cəza çəkdi. müsəlmanların əksəriyyəti birbaşa cənnətə gedəcəyinə və ya müvəqqəti cəhənnəmdə olacaqlarına əmin deyil.*

### Allah Öz məhəbbətini sübut etdi (6-10-cu suallar)

**7-8-ci suallar:** Bütün dünyada olan məsihçilərin iki xüsusi mərasimi var. Vəftiz barədə biz artıq öyrəndik. Digəri isə "Rəbbin Süfrəsi" adlanır. Biz bu mərasimdə iştirak edərək İsa Məsihin qurbanını yada salırıq və onu bayram edirik. **7-8-ci sualları oxuyun.**



- Rəbbin Süfrəsində neçənci dəfə iştirak edirsiz? Heç bunda iştirak etmək imkanınız olubmu? *Bəzi imanlılar cəmiyyətində bu mərasimi tez-tez keçirirlər, digərləri isə ayda bir dəfə. Ola bilsin, bəzi tələbələr hələ bu mərasimdə iştirak etməyiblər.*
- Sizin məsihçi cəmiyyətinizdə bu mərasimi necə adlandırırlar?
- Çörəyi və üzüm şirəsini qəbul edəndə nə hiss edirsiniz?
- Sizin məsihçi cəmiyyətinizdə şərab, yoxsa üzüm şirəsindən istifadə edirlər? Şərab sizə problem yaradırmı?

*Müsəlman ölkələrində bir çox məsihçi cəmiyyətləri üzüm şirəsindən istifadə edirlər. Qərbdə isə hər məzhəbdə bu, fərqlidir. Keçmişdə müsəlman olan bəzi imanlılar spirtli içkilər içirlər, digərləri isə içmirlər. Buna görə də bu sualı tələbələrinizə uyğunlaşdırın. Şərab istifadə olunursa, içki içməyən şəxs biləcək ki, bir qurtum şərab içki sayılmır.*

- Qeyri-imanlılar Rəbbin Süfrəsində iştirak edə bilərlərmi? *Xeyr. Bu yalnız Məsihin davamçılarına aiddir.*

## Məhəbbət qanunu (11-13-cü suallar)



**1Yəh.4:7-13-ü oxuyun:**

- Allahın məhəbbət olduğunu hansı ayə deyir? *(8-ci ayə)*
- Siz bu barədə nə hiss edirsiniz? *(9-10-cu ayələr).*
- Allahın layiq olmayan bizləri ilk olaraq sevdiyini hansı ayə göstərir? *(Buna əks olaraq, Quran Allahın özlərini pak edənləri sevdiyini öyrədir).* *(7 və 11-ci ayələr)*
- Allah bizə Öz məhəbbətini necə göstərdi? Əvəzedici qurban olaraq (10-cu ayə) Öz Oğlunu göndərdi (9-cu ayə).
- Bizim Allahın məhəbbətinə cavabımız nə olmalıdır? Heç kim Allahı görmür, lakin biz bir-birimizi sevəndə adamlar nəyi görürlər? (12-ci ayə). *Bir-birimizi sevməyimiz. Onlar Allahın bizdə yaşadığını və Onun məhəbbətinin bizdə mükəmməl olduğunu görürlər.*

**13-cü sual: Əzbər ayənin icmalı və təkrarı:** Mark 12:30-31

- Bu ayələr çox qısa Məsihin qanununu və əzbərləmək üçün asandır. Bəs, ona riayət etmək də sadədirmi?
- Kim bizi məhəbbət qanununa riayətə qadir edir? *Bizim həyatımızdakı Allahın Ruhu.*

**14-cü sual:** Hansı cavabı qeyd etdiniz? Nə üçün? *Məsləhətçi də bölüşməlidir.*

## Qonşunu özün kimi sev (15-25-ci suallar)

**17-ci sual:** Dörd şəklə baxın. Müzakirə edin: Məsihin şəriətinə (qanununa) kim riayət edir?

- Şəkil A: ər nə üçün arvadını xoşbəxt etmək istəyir?
- Şəkil B: Məsihin qanununa riayət etmək üçün ər nə etməlidir?
- Şəkil C: Allah bu qadının duasına hansı yol ilə cavab verə bilər?
- Şəkil D: Bir qız Məsihin şəriətinə (qanununa) riayət etmir. Nəticə necə olacaq?

**19-cu sual:** Sualı oxuyun və müzakirə edin.

**22-ci sual:** Baş vermiş hekayəni oxuyun.

- Hekayədən sonrakı hissəni oxuyun. Buna aid nə yazdınız?

**24-cü sual:** Fəridə və Əsgərin şəklinə baxın.

- Hansı sizə bənzəyir?

**25-ci sual:** 25-ci sualı və nitqi oxuyun.

- Nə düşünürsünüz? Düşməni sevmək mümkündürmü? *Flp.4:13*
- Öz düşmənlərini sevən məsihçiləri nümunə gətirə bilərsinizmi?
- Bu dünyada və bizim cəmiyyətdə adamlar öz düşmənlərini sevməyə başlasalar, nə baş verər?

*10-cu dərsdə Fəridin həyatında baş vermiş hekayə qeyd olunur. Başqa hekayə Nik Ripkenin «Allahın insaniliyi» adlı kitabında verilir. Burada illərlə həbsdə olan bir kişi və zindan başçısının onunla qəddarcasına davranması təsvir olunur. Həbsdən çıxandan bir çox il sonra həmin kişi bu zindan başçısı ilə görüşür. O artıq qoca və xəstə olur; kişi onun üçün dua edir və dərman alır.*

## *Dərsin sonu*

| **Bugünkü təlimə riayət edin:** | **Birlikdə dua edin:** |
| --- | --- |
| • 1Peter 4:8 deyir: “Bir-birinizi can-dildən sevin”. Bugünkü təlim həyatınızı necə dəyişdi?<br>• Ev tapşırığını birlikdə oxuyun.<br>• Ev tapşırığını hər həftə yerinə yetirməkdə davam edin! | Müvafiqdirsə, Rəbbin Süfrəsində birlikdə iştirak edin. Sonra duada vaxt keçirərək İsaya Onun Bədəninə və Qanına görə minnətdarlıq edin. Dua edin ki, hər birimizə Öz Məhəbbət qanununa riayət etməkdə kömək göstərsin. |

# 17-ci dərs: Oruc və nəzir

**Hər bir şagirdə aid məqsədlər:**
a. Allahın istiqaməti ilə oruc və naziri özünüzə nizamlı vərdiş edin.
b. Səxavətlə və fədakarlıqla bunu etdikcə sevinin; bunu könüllü edin və əvəzində mükafat axtarmayın.
c. Allahın bizi idarə etməsində iki prinsipi öyrənin.
d. Oxuyun: Mark 12:30-31.

**Mədəniyyətə aid nümunələr:**
- Keçmişdə müsəlman olan imanlılar və şəriət
- Keçmişdə müsəlman olan imanlılar və Ramazan
- Müsəlmanlar və nəzir

## *Dərsin əvvəlində*

**Ötən həftənin ev tapşırığı:** Ehtiyacda olan məsihçi qardaş və ya bacıya kömək etdinizmi? Nə etdiniz? Həmin şəxs necə cavab verdi? **Bir nəfərdən bugünkü dərs üçün dua etməyi xahiş edin.**

**17-ci dərsin sonundakı İCMAL bölməsində cavabları yoxlayın:**
**1-ci sual:** (a) Kəlamı, (b) Ruhu
**2-ci sual:** dua üçün
**3-cü sual:** a) hamısı; b) çox
**4-cü sual:** a) Allaha, adamlara; b) Məhəbbət

**Bugünkü mövzunu söyləyin:** İndiyədək Məsihin şəriəti barədə nə öyrəndik?
*Bax. "Giriş sözü".* Məsihin davamçıları kimi, biz oruc tuturuq və əvvəlkindən fərqli olan niyyət ilə nəzir veririk.

## *Müzakirə*

### Allah bizi doğru yolda necə istiqamətləndirir? (1-5-ci suallar)



**1-ci sual:** Qoyunların iki şəklinə baxın.
- Bu şəkillərdən hansı köhnə şəriətinə, hansı isə Məsihin şəriətinə bənzəyir? Fərq nədədir?

*İslamın şəriəti qoyunları öz yerində saxlayan möhkəm hasar kimidir. Təfsilatlı qaydalar qadağan ilə icazə olunan arasında hədd qoyur. Bundan fərqli olaraq, məsihçilikdə qayda azdır və kənardan elə görünür, sanki biz həddi bilmirik.*
*Lakin Məsih Özü bizim Çobanımızdır. O, Öz qoyunlarını yaxşı yerlərə istiqamətləndirməyə və bizi qorumağa söz verir.*

**3-4-cü suallar:** 3-cü sualı və 4-cü sualın birinci paraqrafını oxuyun.
- Öz Ruhu vasitəsilə bizimlə danışan Məsihi necə eşidə bilərik? Ruh Müqəddəs Kitab vasitəsilə danışır. Hər gün biz Kitabı oxuyanda, Allah sakitcə vicdanımızla danışır, ağlımıza bir fikir gətirir və ya bizi Müqəddəs Ruh ilə doldurur. Bəzən O, daha uca səslə danışır: yuxuda və ya aydın səslə. O həmçinin digər imanlıların məsləhəti vasitəsilə bizimlə danışır.
- Müqəddəs Ruhun səsini eşitməkdə biz səhv edə bilərikmi? *Bəli! Bəzən biz daxilimizdən gələn səsi Allahın səsi hesab edirik, əslində isə bu, bizim günahlı istəyimizdir. Allahın dedikləri heç vaxt Onun Kəlamı olan Müqəddəs Kitabda yazılanlara zidd olmur. Beləliklə, biz həmişə eşitdiklərimizi Kəlam ilə yoxlamalıyıq!*

### Oruc (6-14-cü suallar)



**6-7-ci suallar:** 6-cı sualın birinci paraqrafını və nitqləri oxuyun.
- Pərvin kimi, sizin də suallarınız varmı? Bəlkə, oruca aid sualınız var?
- 7-ci sualdan: Pərvinə suallarına cavab tapmaqda hansı iki vasitə kömək edə bilər?

**8-ci sual: Nə üçün biz oruc tutmalıyıq?** *Tələbələri üç qrupa bölün və hər qrupa cavab verərkən istifadə edəcəkləri ayələri verin. Hər ayəni birlikdə oxuyun.*
- Növbəti ayələrdə adamlar nə üçün oruc tuturdular?
  **Daniel 9:3-5** – günahın etirafı, tövbə və xahiş.
  **Zəbur 35:13** – ehtiyacda olan bir kimsə üçün dua edəndə.
  **Həv.13:2-3** – səcdə, missiya və qərar qəbul edərkən müdriklik üçün dua.

**12-ci sual: Biz nə vaxt oruc tutmalıyıq?** Sualı oxuyun.
- Biz nə vaxt oruc tutmalıyıq? Oruc məcburidir, yoxsa könüllüdür? *Müqəddəs Ruh bizi oruca istiqamətləndirəcək.*

**13-cü sual:** 13-cü sualı bütöv oxuyun.

- "Dayanın və fikirləşin" bölməsinə aid hansı cavabları yazdınız?

**14-cü sual:** 14-cü sualı oxuyun (sizin vəziyyətinizə uyğundursa).

- Ramazan ayında ailəsi ilə birlikdə Pərvinin oruc tutmasına aid nə yazdınız?

***Oruc tutmalıdır:*** *İsanın davamçısı olduğu halda, o, ailəsinə sədaqətini göstərə bilər. O, oruc tutaraq, ailəsinin xilası üçün dua edə bilər. Oruc tutmasa, ailəsində problemlər yarana bilər. Ailə üzvləri Məsihin davamçılarının tənbəl olduğunu düşünə bilərlər.* ***Oruc tutmamalıdır:*** *Ailə üzvləri onun müsəlman olduğunu düşünə bilər, yaxud mükafat qazanmaq məqsədilə oruc tutduğunu hesab edə bilərlər. Pərvin özü də, adətə görə, orucun mükafat qazandırdığını hesab edə bilər.*

- Pərvinin qərarı nə dərəcədə vəziyyətdən asılıdır? *Məsələn, onun ailəsi ilə birliyindən, eləcə də ailə üzvlərinin qəti müsəlman olmasından asılıdır. Tək yaşayanlar özləri qərar qəbul edirlər.*
- Bəs, siz necə? Sizin vəziyyətiniz necədir?

## Nəzir (15-25-ci suallar)



**15-ci sual:** Birinci paraqrafı və nitqləri oxuyun.

- Xalidin sualları sizi də düşündürürmü? Bəlkə, nəzir barədə başqa suallarınız var?

**16-19-cu suallar:** Bütün 16-cı sualı və 17-ci sualın birinci hissəsini oxuyun.

- Mülkümüzün hansı hissəsi Allaha məxsusdur?
- Allaha verdiyimiz nəzirin qədəri məhdud olmalıdırmı?

**2 Kor.9:6-15-i oxuyun:**

Hər bir tələbədən növbə ilə bir və ya iki ayəni oxumağı xahiş edin. Bu halda qrupun bütün üzvləri iştirak edəcəklər.

*Ucadan oxuyandan sonra hər kəsə oxuduğu üzərində düşünmək üçün bir dəqiqə vaxt verin.*

- Xahiş edin, hər bir iştirakçı ayələrin mənasını öz sözləri ilə desin.

**21-ci sual:** Sualı oxuyun. Bu suala cavabınız nədir? Nə üçün?

**24-cü sual:** Sualı oxuyun.

- Burada nə yazdınız? Siz təcrübədə pulu ayırıb necə xərcləməyə bilərsiniz?
- Gəliriniz yoxdursa, Allaha başqa yollarla necə nəzir verə bilərsiniz? Məsələn, biz Allaha vaxtımızı, könüllü xidmətimizi verə bilərik. Lakin adamların az da olsa, pulu olur və biz nəzir vermək barədə düşünməliyik. Hətta övladlar belə, kiçik vəsaitdən nəzir verə bilərlər.

**25-ci sual:** Sualı oxuyun. Burada nə yazdınız? Əsas məsələ budur: *təkcə qohumlarımıza deyil, ümumiyyətlə kasıblara kömək etmək gərəkdir. Maraq göstərən qeyri-məsihçilərə Müjdə və ya kitabları alıb hədiyyə edin. məsihçi cəmiyyətinizi maddi cəhətdən dəstəkləyin. Bizim ölkədə və ya xaricdə məsihçi xidmətində çalışanları dəstəkləyin.*

## Məhəbbət qanunu (26-cı sual)

**26-cı sual:** Sualı oxuyun.

- Oruc tutmaqla Məhəbbət qanununa necə riayət etmək olar? *Allahı sevdiyimizə görə özümüzü inkar edirik, Allahı aclıq hissindən üstün tuturuq. Həmçinin adamları sevdiyimizə görə ehtiyacda olanlar üçün oruc ilə dua edirik.*
- Nəzir pulu Məhəbbətin qanununa itaətimizi necə göstərir? *Nəzir verməklə, eləcə də pul xərcləyib digər adamlara kömək etməklə biz Allaha öz məhəbbətimizi göstəririk.*

## *Dərsin sonu*

**Bugünkü təlimə riayət edin:**

- Bugünkü təlim həyatınızı necə dəyişdi?
- **Ev tapşırığını birlikdə oxuyun.** Nəzir vermək üçün, sadəcə, pul ayırmaq barədə düşünməyin. Nəzir verməyə elə bu ay başlayın!

*İstəsəniz, qrup ilə birlikdə dua və oruc üçün bir gün seçin. Müəyyən bir məqsədlə siz bütün gün oruc tutaraq birgə dua etmək üçün görüşə bilərsiniz.*

**Dua edin:** Bir neçə dəqiqə vaxtı sakitlikdə keçirin; Allahdan xahiş edin, necə və nə vaxt oruc tutmağı, nə qədər nəzir verməyinizi istədiyini hər birimizə göstərsin. Sonra kiçik qruplarda dua edin və bu məsələlərdə səxavətli və nizamlı olmaqda bizə kömək etməsini Allahdan xahiş edin.

# 18-ci dərs: Tale və falçılıq

**Hər bir şagirdə aid məqsədlər:**
a. Tale və cadugərliyə aid üç həqiqətin Müqəddəs Kitaba uyğun olduğunu bilmək.
b. Allahın yaxın olduğunu və bizim qeydimizə qaldığını anlamaq.
c. Keçmiş həyatdan qara qüvvələrin təsirini ləğv etmək.
d. Əzbərləyin: 1Peter 5:7.

**Mədəniyyətə aid nümunələr:**
- Müsəlmanlar və cadugərlik
- Müsəlmanlar və ruhani qüvvələr
- Hüzrə verilən ianə

**Hazırlayın:** Bu dərsi hazırlayanda və bu dərsi aparanda mütləq bir rəhbər kimi, səcdə qılaraq Məsihin qələbəsini bəyan edin və günahları etiraf edin. Digər adamlardan da dərs üçün dua etməyi xahiş edin. Müzakirə zamanı tələbələrin keçmiş həyatında cadu qüvvələrinin təsiri aşkar oluna bilər. Buna görə də ruhani cəhətdən oyaq olmaq vacibdir.

**Dərsi ibadət və dua ilə başlayıb ibadət və dua ilə bitirməlisiniz; birlikdə Allahın qələbəsini bəyan edin.**

## *Dərsin əvvəlində*

**Ötən həftənin ev tapşırığı:** Hər ay Allaha nə qədər pul qaytaracağınız barədə qərar qəbul edib bu qərarı icra etdinizmi? Yaxud səxavətinizi digər yollarla göstərməyi qərara aldınız?

**18-ci dərsin sonundakı İCMAL bölməsində cavabları yoxlayın:**
**1-ci sual:** a) tale; b) nifrət; c) qüvvələri
**2-ci sual:** (1Peter 5:7).

**Bugünkü mövzunu söyləyin:** Kainatda ən qüdrətli kimdir? Allah ən qüdrətlidir. Onun Oğlu İsa Məsih şeytana və bütün qara qüvvələrə qalib gəldi. Bu gün biz nə üçün tale, cin və ya şər gözdən qorxmadan yaşamalı olduğumuzu öyrənəcəyik.

## *Müzakirə*

### Giriş sözü və 1-ci sual

**1-ci sualı oxumaqdan əvvəl birlikdə dua edin.** Tale və falçılıq mövzusunda iblis bizə çoxlu yalanlar deyib. Adamların əksəriyyəti əsrlər boyu bu yalanlara inanıblar. Buna görə də onlar şeytanın hakimiyyəti altında qalırlar. Bəlkə, siz də bu yalanlara inanırsız. Bu gün gəlin bu buxovları Allahın həqiqəti ilə qıraq!

**1-ci sual:** Sualı oxuyun. *Tələbələrə keçmişləri və bu mövzuya aid fikirləri ilə bölüşməyə vaxt verin.*
- Əslində, siz nə fikirləşirsiz: «bəli», «xeyr» və ya «bilmirəm»? Bu fikir sizdə necə yarandı?

### Həyatımızı tale deyil, Allah idarə edir (2-9-cu suallar)

**2-ci sual:** Sualı oxuyun və diaqrama baxın (adamların yalançı düşüncələri).
- Allahın sizin qeydinizə qalmağı üçün həddindən çox uzaq olduğuna inanmısınızmı? İndi nəyə inanırsınız?

**3-cü sual:** Diaqrama baxın (boş yerlərdə sözlər yazılmalıdır).
- Tale, cin və şər gözün gündəlik həyatda insana təsir göstərdiyinə inanan adamlar tanıyırsınızmı?
- Müqəddəs Kitaba görə, bunlar mövcuddurmu? *Bəli (lakin məsihçilərin bunlara münasibəti fərqlidir).*

**6-cı sual:** Şəklə baxın və sualı oxuyun.
- Birinci hissəyə aid nə yazdınız? Bəs, ikinci hissəyə aid nə yazdınız? Nə üçün?
- Növbəti dəfə siz çətinlik çəkəndə hansı cümlə sizə təsəlli verəcək: 1 və ya 2?

**7-ci sual:** «Allah necədir» adlı diaqramı oxuyun.
- 3-cü sualdakı diaqramdan bunun fərqi nədir? *Uzaq durmaqdansa, Allah İsa Məsihdə bizim səviyyəmizə enir. O, həqiqətən, bizim qeydimizə qalır. Bunun üçün O, həddindən uzaq deyil.*

**8-ci sual:** Sualı oxuyun və ayəni əzbər deyin. Bunu qrupda və ya cütlərə bölünərək edin:

Birinci şəxs ikinci şəxsə sual verir: “Bu gün siz nədən narahatsınız?”
İkinci şəxs cavab verir. Sonra birinci şəxs deyir: “Bütün qayğı yükünüzü Ona ötürün, çünki O, sizin qayğınıza qalır” (1Pet.5:7). İkinci şəxs növbəti şəxs ilə eyni tapşırığı yerinə yetirir və buna görə də dairə ilə növbə sizə də çatır.

## Allah cadugərliyə və bütpərəstliyə nifrət edir (10-17-ci suallar)

**10-cu sual:** Sualı oxuyun.

Burada nə yazdınız? *Qərbdə yaşayan müsəlmanlar bunu bir qədər az edirlər, lakin çox vaxt onlar yenə də bu inanclara bağlıdırlar. Ailələrinin mədəniyyəti barədə danışmağı onlardan xahiş edin.*

**11-15-ci suallar:**

- Bu suallarda hansı təcrübələr qeyd olunur? *Tərcümədə bunların bəziləri aydın sözlə ifadə edilmirsə, mənanı izah etməyə hazır olun. Ayələri Müqəddəs Kitabdan açıb oxumağa ehtiyac yoxdur, çünki bunları daha sonra tədqiq edəcəksiniz.*
- Bunlara Allahın münasibəti nədir? *Allah bunlara nifrət edir və bunları qadağan edir.*
- Nə üçün bunlar bütpərəstliyin bir növüdür (15-ci sual)? *Adamlar Allahdan çox bunlara etibar və itaət edirsə, bunlar büt kimidir, çünki bunlar yaradılışı Yaradan Allahın yerinə qoyurlar.*

**16-cı sual:** Nitqi oxuyun. Bu qadına nə məsləhət edərdiz?

***Bəzi təkliflər:*** *İlk növbədə o, Allahın onun qeydinə qaldığını bilməlidir. Allah onun kədərini hiss edir. «Müqəddəs adam» Allaha bu qadından daha yaxın deyil. Əslində, qadın Məsihdə olduğuna görə Allaha ondan daha yaxındır. Qadın iki ağaya riayət etməməlidir. Onun ağası ya Məsih, ya da müqəddəs adam olmalıdır. Qadın digər imanlılardan onunla birlikdə Allaha övlad üçün dua etməyi xahiş etməlidir. Lakin Allah bilən məsləhətdir. Qadına övlad sevincini verib-verməməyi O, Özü bilir.*

## İsa bütün ruhani qüvvələrin üzərində hökm edir (18-21-ci suallar)

**18-19-cu suallar: Müqəddəs Kitabın iki ayəsini oxuyun və müzakirə edin.**

**Mark 1:21-27.** 22-ci ayədə adamları niyə heyrət bürüdü? *İsa səlahiyyət ilə öyrədirdi.*
İsa təcrübədə Öz səlahiyyətini necə sübut etdi? *O, natəmiz ruha əmr etdi və ruh ona itaət göstərdi.*

- 24-cü ayədə həmin ruh İsaya aid hansı iki həqiqəti etiraf etdi?
  *1. İsa şər ruhları məhv etməyə gəldi. 2. İsa Allahın müqəddəsidir.*
- 27-ci ayədə adamlar nə hiss etdilər? *Onları heyrət bürüdü.*

19-cu suala aid diaqrama baxın və **1Peter 3:21-22-ci ayələri oxuyun**. Bu ayələrdə hansı həqiqətlər İsanın Rəbb olduğunu göstərir?

*«İsa Məsihin dirilməsi», «Səmalara yüksəlməsi», «Allahın sağ tərəfində oturması».*



- Oval yerlərdə nə yazdınız? *Mələklər, səlahiyyətlər, qüvvələr.*
- Diaqrama görə, cinlərdən və ruhani qüvvələrdən üstün olan Kimdir?
- Biz diaqramda haradayıq? *Məsih ilə oturub hökm edirik. Ef.2:6.*
- Kimsə sizə lənət etsə və ya cadu yazdırsa, bu lənətdən və cadudan Kim daha qüdrətlidir?

**21-ci sual:** Həyatda Məsihin şər ruhlara qalib gəlməsini kim görüb?

- ***Mötərizədəki hissəni oxuyun.*** Bəzi adamları şər ruhlar narahat edirlər. Siz narahat olursunuzsa, lütfən, görüşdən sonra mənimlə və ya başqa təcrübəli imanlı ilə söhbət edin.

## İki ağaya xidmət edə bilərikmi? (22-24-cü suallar)

**23-cü sual:** Hekayəni oxuyun. Buna aid nə yazdınız?

- «İsa adamın qəlbindəki bütün otaqların Rəbbi deyilsə, onda O, həmin adamın Rəbbi deyil!» Bunu yadda saxlayın.
- Bu gün biz iblisin yalandan ibarət olan buxovlarını qıran üç vacib həqiqət barədə danışdıq. Bu, hansı həqiqətlərdir?

*1. Tale deyil, Allah həyatımızı idarə edir. 2. Allah cadugərliyə və bütpərəstliyə nifrət edir. 3. İsa bütün ruhani qüvvələri idarə edir.*

- Bugünkü müzakirədən sonra özünüzü necə hiss edirsiniz?

## *Dərsin sonu*

**Bugünkü təlimə riayət edin:**

- Bugünkü təlim həyatınızı necə dəyişdi?

**Ev tapşırığını birlikdə oxuyun:** Sualları bir-bir araşdırın. Keçmişdə həyatınıza təsir göstərən hadisələri yadınıza salmağı Allahdan xahiş edin. Belə bir təsir olubsa, xahiş edin, bir imanlı sizinlə birlikdə buna qarşı dua etsin.

**Dua edin və birlikdə səcdə qılın:**
Birlikdə ayağa qalxın və iblisə qarşı bu üç həqiqəti bəyan edin: Tale deyil, Allah həyatımızı idarə edir. Allah cadugərliyə və bütpərəstliyə nifrət edir. Rəbb İsa bütün ruhani qüvvələri idarə edir.

# 19-cu dərs: Bir-birimizə xidmət haqqında

| Hər bir şagirdə aid məqsədlər: | Mədəniyyətə aid nümunələr: |
|---|---|
| a. Xidmət üçün ənamlardan həlimliklə istifadə etməyə həsr olunmaq.<br>b. məsihçi cəmiyyətinin rəhbərlərini dəstəkləmək və onların məsuliyyətlərini anlamaq.<br>c. Əzbərləyin: 1Peter 4:10. | • Müsəlman mədəniyyətində ayaq yumaq<br>• Keçmişdə müsəlman olan imanlı qruplarda rəhbərlik məsələsi.<br><br>**Hazırlayın:** dəsmal, sabun, taslar, ılıq su |

## *Dərsin əvvəlində*

**Ötən həftənin ev tapşırığı:** Cadugərin və ya müqəddəs adamın sizə təsirinin olub-olmamasını yoxladınızmı? Bir imanlı ilə dua etdinizmi? Bu barədə hələ də narahatsınızsa, lütfən, təklikdə mənimlə söhbət edin.

**19-cu dərsin sonundakı İCMAL bölməsində cavabları yoxlayın:**

**1-ci sual:** a) fərqlidir; b) hər birimizin; c) həlimliklə istifadə

**2-ci sual:** "Hər kəs... aldığı ənama görə bir-birinə xidmət etsin" (1Pet.4:10).

**Bugünkü mövzunu söyləyin:** Allah bizə müxtəlif ənamları və bacarıqları verib. Bu gün bu ənamlardan Allaha və bir-birimizə xidmət üçün istifadə etməyi öyrənəcəyik. Hətta rəhbərlər öz adamlarına xidmət etməlidirlər!

## *Müzakirə*

### Bir-birimizə xidmət haqqında (Giriş sözü və 1-3-cü suallar)

**Dərsin əvvəlindəki şəklə aid:** İsa çarmıxa getməzdən əvvəl sonuncu görüşdə ən yaxın dostlarının ayaqlarını yudu. **Yəh.13:3-5,12-17-ni oxuyun.** *Sonra tələsmədən deyin:*



*"Bu şəkildə əllərə baxın. Təsəvvür edin ki, bunlar Məsihin əlləridir."*
*"Bu şəkildə ayağa baxın və bunun öz ayağınız olduğunu təsəvvür edin. Məsih ayağını yuyur!"*
*"Bu barədə nə hiss edirsiniz? İndi ürəyinizdə Rəbbimiz ilə söhbət edin". **Məsihin ayaqlarımızı yuması barədə düşünəndə nə hiss etdik?***

**2-ci sual:** Sualı oxuyun.

- Dünyada rəhbərlər öz davamçılarına xidmət edirlərmi?

*1-ci suala aid çərçivədə yazılmış sözləri oxuyun: "Sizə nümunə göstərdim". Bizə xidmət etdiyinə görə Ona minnətdarıq və biz də, Onun kimi, bir-birimizə əyilib xidmət etməliyik.*

- Böyük rəhbərimiz İsa Məsih əyilib ayaqlarımızı yudu. Buna görə cavabında, biz nə etməliyik?
- Məsih kimi xidmət edən rəhbərlər adamların hörmətini itirəcəklərmi? *Belə rəhbərlər hörmət qazanacaqlar.*

### Ənamlar xidmət üçün verilir (4-8-ci suallar)

**1Peter 4:10-11-i oxuyun və ayəni əzbər deyin (1Pet.4:10).**

- 10-cu ayəyə görə, Allahın hər birimizə verdiyi ənamları necə istifadə etməliyik? *Bir-birimizə xidmət etmək üçün.*
- Sizcə, nə üçün biz «yaxşı idarəçi» olmalıyıq? *Biz etibarlı idarəçi kimi, ağanın mülkünü mənimsəməməliyik. Ağanın mülkünü mənimsəmədən ağasının xeyrinə onları kim istifadə edir?*
- Müqəddəs Kitabın bir çox ayələri müxtəlif ənamlardan danışır. Hansı iki ənam 11-ci ayədə qeyd olunur?
- 11-ci ayədə bu iki nəfər öz ənamlarından necə istifadə etməlidir?
- Biz ənamlardan Allahın izzəti üçün istifadə etməliyik. Gəlin 11-ci ayənin sonuncu hissəsini ucadan birlikdə deyək.

### Müxtəlif adamların ənamları fərqlidir (9-10-cu suallar)

**9-cu sual:** Çərçivədə verilən hekayəni və növbəti paraqrafı oxuyun.

- Burada nə yazdınız? *Məsələn: hər birimizin güclü və zəif cəhətlərimiz var. Hamımız müəyyən sahələrdə həm "kor", həm də "axsağıq". Heç birimiz mükəmməl deyilik. Lakin məndə zəif olan cəhət səndə güclüdür. Buna görə də məsihçi cəmiyyətində bizim bir-birimizə ehtiyacımız var.*

## Hər birimizin ənamı var (11-14-cü suallar)

**11-ci sual:** Şəklə baxın.



- Allah xidmət üçün Firuzəyə hansı ənamı verib?
- Leyla Firuzəyə öz ənamını aşkar eməkdə necə kömək göstərdi?

**13-cü sual:**

- Öz ənamlarımızı necə aşkar edə bilərik? *Üç oxun istiqamətinə bax.*
- Bir qrup üzvü bir xidmətin adını çəksin. Növbəti üzv onu təkrarlasın və daha birini əlavə etsin. Siyahını mümkün qədər uzadın. *Məsələn: görüşlərə rəhbərlik etmək, Müqəddəs Kitabdan təlim vermək, musiqi alətində çalmaq, imanlıların görüşünü evdə qəbul etmək, müəyyən ehtiyaca görə dua etmək, fərdləri ruhlandırmaq, qeyri-imanlıları Müjdələmək, əməldə kömək göstərmək, maddi kömək göstərmək, xörək bişirmək və s.*
- Müxtəlif xidmətlər məsihçi cəmiyyətinin inkişafına necə xidmət edir?

**Ənamlardan həlimliklə istifadə etməliyik (15-18-ci suallar)**

**15-ci sual:** Sualı oxuyun.

- Samiri qrup rəhbəri təyin etməyin hansı səbəblərini yazdınız? Bəs, təyin etməməyin səbəbləri nədir?
- Qrup Samirə rəhbərlik ənamını inkişaf etdirməkdə və qürurlanmamaqda necə kömək edə bilər?

*Təcrübəli bir imanlı qürurlu münasibəti barədə Samir ilə söhbət edə bilər. Həmçinin Samir rəhbərə tabe olaraq kiçik məsuliyyətləri yerinə yetirə bilər. Həlim münasibət ilə bunun öhdəsindən gəlsə, daha sonra onun məsuliyyətini artırmaq olar. Həmçinin o rəhbər olsa, tək olmamalıdır; iki və ya daha çox rəhbərlə birlikdə çalışmalıdır.*

**17-ci sual:** Sualı oxuyun.

- Allahın gözündə daha vacib kimdir: vəz edən, yoxsa yemək paylayan?

*Hər ikisi eyni qədər əhəmiyyətlidir. Biz həm vəz edənə, həm də yemək paylayana minnətdar olmalıyıq.*

## Rəhbərlik xidməti (19-25-ci suallar)

**21-ci sual:** Bu sualın sonunda verilən xüsusiyyətlərin siyahısına baxın.

- Baş Çoban İsa bunlardan hansı xüsusiyyətləri göstərdi? *a), b) və e).*
- Məsihə bənzər rəhbər bu xüsusiyyətləri həyatda necə göstərə bilər?

**1Peter 5:1-6-nı oxuyun:**

- 2-3-cü ayələrdə Məsihə bənzər rəhbər dünyəvi rəhbərdən hansı üç cəhətdən fərqlənir. Əmin deyilsinizsə, *22-ci suala baxın.*
- 4-cü ayə belə rəhbərlərə hansı vədi verir?
- İmanlılar öz rəhbərlərinə bu çətin tapşırıqda necə kömək edə bilərlər? *Onlara tabe olmaqla (ayə: 5a), onlar üçün dua etməklə, onlara hörmət göstərməklə, onları ruhlandırmaqla, onlara minnətdar olmaqla, gizlicə onlar barədə şikayət etməməklə.*
- 5b və 6-cı ayələrdə: Öz ənamlarımızı necə istifadə etməliyik?

**25-ci sual:** İkinci paraqrafı oxuyun.

- Burada nə yazdınız?

**25-ci sualın sonunda verilən müəllimin sözlərini birlikdə oxuyun.**

*Məsələn, rəhbər xidmət edirsə, yenə də rəhbərdir. Onların hörməti qorxudan deyil, məhəbbətdən gəlir. Onların rəhbərlik etməyə səlahiyyətləri var və adamlar buna hörmət etməlidirlər. Rəhbər fədakarlıqla xidmət edir.*

## Dərsin sonu

| Bugünkü təlimə riayət edin: | Bir-birinizə xidməti məşq edin: |
|---|---|
| • Bugünkü təlim həyatınızı necə dəyişdi?<br>• **Ev tapşırığını birlikdə oxuyun.**<br>• Öz ənamlarınızla bir-birinizə necə xidmət edə bilərsiniz? | Növbə ilə bir-birinizin ayağını yuyun (kişilər və qadınlar ayrı olmalıdırlar). Rəhbər kimi, birinci siz başlamalısınız!<br>**Birlikdə dua edin:** Yenə Məsihin bizim ayaqlarımızı yuması barədə fikirləşin. İsadan həqiqi xidməti bizə göstərməyi, Özü xidmət etdiyi kimi, bizə xidmət etməyi öyrətməyi Ondan xahiş edin. |

# 20-ci dərs: Səmaya zəvvarlıq

**Hər bir şagirdə aid məqsədlər:**
a. Cənnətə sağ-salamat çatacağına əmin olmaq və bunu ürəkdən arzulamaq.
b. İblisin hücumlarını tanımağı və ona müqavimət göstərməyi öyrənmək.
c. Əzbərləyin: 1Peter 5:10-11.

**Mədəniyyətə aid nümunələr:**
- Müsəlmanlar, zəvvarlıq və cənnət
- Yerusəlim və sionizm

**Hazırlayın:** ayəni özünüzə aid edərək («biz») yazın və ya çap edin (22-ci suala baxın). Kursun sonunu mütləq bayram etməyə hazırlaşın (məsələn, görüşüb şəhadətlərlə bölüşün və birlikdə ziyafət edin).

## *Dərsin əvvəlində*

**Ötən həftənin ev tapşırığı:** Dua ilə başlayın. Dostlarınıza öz ənamlarınız barədə sual verdinizmi? Onlar nə dedilər? Bu həftə ərzində adamlara xidmət edə bildinizmi? *Hər bir tələbə danışmalıdır.*

**20-ci dərsin sonundakı İCMAL bölməsində cavabları yoxlayın:**
**1-ci sual:** a) Yerusəlimə; b) səmadakı vətənə (və ya cənnətə)

**2-ci sual:** a) biz; b) Məsih

**3-cü sual:** "Siz qısa bir müddət əzab çəkdikdən sonra sizi İsa Məsihdə Özünün əbədi izzətinə çağırmış, hər cür lütf verən Allah Özü sizi bərpa edəcək, möhkəmlədəcək, qüvvətləndirəcək və sarsılmaz təmələ oturdacaq. Qüdrət əbədi olaraq Onun olsun! Amin" (5:10-11).

**4-cü sual:** Şəxsi cavablar. Allah bizim tam əmin olmağımızı istəyir. Biz əvvəlcə əzab çəkməyəcəyik. Ölən kimi dərhal Allah ilə səmalarda olacağıq! Şübhə edən tələbə varsa, Luka 23:39-43-ü oxusun. İsa hətta cinayətkara demişdi: «Sənə doğrusunu deyirəm: bu gün sən Mənimlə birlikdə cənnətdə olacaqsan!»

**Bugünkü mövzunu söyləyin:** Biz səmalara və ya cənnətə həyat boyu davam edən səyahətdəyik. Axırımız izzətdir, lakin səyahətdə biz düşmənimiz iblis ilə döyüşməliyik. Bu gün biz ruhani zəvvarlıq barədə öyrənəcəyik.

## *Müzakirə*

### Ruhani zəvvarlıq (1-5-ci suallar)

**2-3-cü suallar:** 2-ci sualı və 3-cü sualın birinci paraqrafını oxuyun.
- Məsihin davamçıları kimi, bizim həccimiz və ya zəvvarlığımız nədir? *Bütün həyatımız boyu davam edən ruhani zəvvarlıq. Səmadakı evimizə doğru gedirik.*
- Məsihin davamçıları bu gün dua edəndə nə üçün Yerusəlim tərəfə üz tutmurlar? *Çünki dualarımız və həyatımız yer üzündəki şəhərə deyil, Allahın Özünə istiqamətlənir.*

**4-cü sual: «Dayanın və fikirləşin» bölməsi daxil olmaqla, sualı oxuyun.**
- Bu barədə fikirləşdinizmi? Nə qərara gəldiniz?

### İblisə müqavimət göstərin (6-16-cı suallar)

**1Peter 5:6-11-i oxuyun.**
- Qürurlananda 6-cı ayə bizə necə kömək edir? *Bizə həlim olmağa kömək edir.*
- Narahat olanda 7-ci ayə bizə necə kömək edir? *Bizə güclü vədi verir, Allah bizim qeydimizə qalır!*
- 8-ci ayəyə görə, kim aslana bənzəyir? *İblis.*
- 9-cu ayəyə görə, biz iblisə müqavimət göstərə bilərikmi? *Bəli, "möhkəm imanla ona qarşı durmalıyıq".*
- 10-11-ci ayələri tam əzbərləyənə qədər birlikdə oxuyun.



**7-ci sual:** Bütün sualı oxuyun və üç hissədə yazdıqlarınız ilə bölüşün:
- Məsihin davamçılarını nə zəif edə bilər? *Məsələn, onlar duanı və Allahın Kəlamını oxumağı dayandırsalar. Yaxud məsihçi olduğunu həddindən uzun müddət gizlətsələr (baxmayaraq ki, bunu müvəqqəti gizlətmək normal haldır).*
- Məsihin davamçısı necə oyaq olmaya bilər? *Məsələn, iblisin onları sınağa çəkdiyini dərk etməyəndə. Bu halda onlar qürur, qəzəb və ya cinsi əxlaqsızlıq kimi günahda yaşamağa başlayırlar.*
- Məsihin davamçısını cəmiyyətdən nə ayıra bilər? *Məsələn, qeyri-məsihçi ilə nikahda olduqlarına görə məsihçi cəmiyyətinə gəlib ünsiyyət etməsələr.*

**11-ci sual:** Birinci paraqrafı oxuyun.

- Bəzən çətinliklərimizə tab gətirə bilməyəcəyimizi düşündüyümüzə görə onlar bizə çox böyük görünür! Lakin 1Kor.10:13-ü oxuyun. Bu ayə bizə hansı ümidi verir?
- Dözülməz bir çətinliyi yadınıza sala bilərsinizmi? *Allah sizə necə qüvvət və dözüm verdi? Təzyiq göstərmədən hər kəsə bölüşmək imkanını verin.*

**12-ci sual:** 12-ci suala aid şəklə baxın.

- Kənardan hücumlara hansı iki imanlı məruz qalır? *Gülnaz (b) və İftixar (d).*
- Daxildən hücumlara hansı iki imanlı məruz qalır? *Alim (a) və Şirin (c).*
- Kənardan və ya daxildən hücumlara məruz qaldığınız vaxtı təsvir edin. Nə baş verdi? Nə öyrəndiniz? *Bu, vacibdir. Buna görə də hər kəsə bölüşmək üçün vaxt verin.*

**15-16-cı suallar:** 15-ci suala aid şəklə baxın. 16-cı sualı oxuyun.

- Yolayrıcında hansı seçim qarşısında dayanırıq?
- İblis sizi öz yoluna çəkir. İblisə qarşı müqaviməti kim göstərməlidir: biz və ya Məsih? Seçimi biz etməliyik. İblisin yolu ilə gediriksə, bu, Məsihin deyil, bizim səhvimizdir.
- 12-ci suala aid, Alim və Şirinin nümunəsində, sınağa kim "yox" deməlidir? Onlar özləri deməlidirlər. Düzgün seçim etmək üçün onlara gücü kim verəcək? *Məsih*
- İblis bizi sınağa çəkəndə biz düzgün qərar qəbul edəndə ona müqavimət göstərə bilirik. 1Yəh.4:4-ü oxuyun. Daxilimizdəki Məsih şeytandan güclüdür!

## Səmalardakı evimiz (17-22-ci suallar)

**19-cu sual:** Sualı oxuyun.

- Allahın bizi cənnətə qəbul edəcəyinə necə əmin ola bilərik? İsa Məsih Özü bizi körpüdən keçirib cənnətə aparacaq. *Biz Ona etibar etməliyik və O, bizi pis vəziyyətdə qoymaz!*

**21-ci sual:** Ömərin həyatında baş vermis hadisə barədə oxuyun (çərçivədə).

- Səmalarda olacağınızı nə qədər gözləyirsiniz: az və ya çox?

*Birlikdə müzakirə edin. Yer üzündə Allaha xidmət edərək xoşbəxt və məmnun olmaq yaxşıdır. Lakin biz heç vaxt Həqiqi Evimiz olan səmalardan gözlərimizi kənara çəkməməliyik! Ömər kimi onu getdikcə daha da çox arzulayaq!*

**22-ci sual:** Bütün sualı oxuyun.

Bu ayələrdə hansı sözləri daha çox xoşlayırsınız? *Hər tələbədən bölüşməyi xahiş edin; özünüz də danışın.*

- Bu ayələrdə nə gözəl vədlər verilir! Gəlin onları özümüzə aid edərək yenidən oxuyaq.

***Tələbələrə kömək məqsədilə, ayələri uyğunlaşdıraraq onları əvvəlcədən yazın və ya çap edin****; məsələn: "Allah bizimlə birgə məskən salacaq; biz Onun xalqı olacağıq, Allah Özü bizim Allahımız olaraq aramızda yaşayacaq" və s.*



**22-ci sual:** Sonuncu səhifədə şəklə baxın və sözləri oxuyun.

- Hansı hissləri keçirirsiniz?
- Cənnətdə Allah bütün göz yaşlarımızı siləcək. Bunu təsəvvür edin!

## *Dərsin sonu*

| Bugünkü təlimə riayət edin: | Birlikdə dua edin: |
|---|---|
| • Bugünkü təlim həyatınızı necə dəyişdi?<br>• **Ev tapşırığını birlikdə oxuyun.** Hər gün bu həftə ərzində bir ifadəni götürün. Onun üzərində dərindən düşünün. Uşaq sormalı konfeti ağzında saxlayıb zövq aldığı kimi, siz də ayəni ağlınızda saxlayın.<br>• **Bayram edin:** kursun sonunu qrup necə bayram edəcək? Məsələn, növbəti həftə birlikdə ziyafət edərək öyrəndikləriniz barədə şəhadət edə bilərsiz? Bunu müzakirə edin və plan qurun.<br>• **Müzakirə edin:** şagirdlik necə davam edəcək? Qrupda, yoxsa şəxsi münasibətlərdə? | Hər kəs 1Peter 5:8-11-i açsın. Növbə ilə hər kəs bu ayələrin müxtəlif hissələrinə əsaslanaraq qısaca dua etsin.<br>Xüsusilə, bütün dünyada eyni cür əzab çəkən bacı-qardaşlarınız üçün də dua edin (9-cu ayə). |

# Əlavə: Əzbər ayələrin cədvəli

| | | | |
|---|---|---|---|
| 1-ci dərs | ***Matta 11:28*** “Ey bütün yorğunlar və yükləri ağır olanlar, Mənim yanıma gəlin, Mən sizə rahatlıq verərəm”. | 11-ci dərs | ***Yaradılış 2:24*** “Kişi öz ata-anasını tərk edib arvadına qovuşacaq və onlar bir bədən olacaq”. |
| 2-ci dərs | ***2Kor.5:17*** “Kim Məsihdədirsə, yeni yaradılışdır, köhnə şeylər keçib-getdi, təzə şeylər gəldi!” | 12-ci dərs | ***1Peter 3:11*** İmanlı “şərdən çəkinib yaxşılıq etsin, sülhü axtarıb ardınca getsin!” |
| 3-cü dərs | ***1Yəh.3: 1*** “Görün Ata bizə necə məhəbbət göstərib ki, biz Allahın övladları adlanırıq!” | 13-cü dərs | ***1Peter 3:18*** “Saleh olan Məsih də saleh olmayanlar uğrunda, onların günahları üçün bir dəfə əzab çəkdi ki, sizi Allahın hüzuruna gətirsin”. |
| 4-cü dərs | ***1Peter 1:15*** “Sizi çağıran Allah müqəddəs olduğuna uyğun olaraq siz də bütün həyat tərzinizdə müqəddəs olun”. | 14-cü dərs | ***Matta 28:19*** “Beləliklə, gedin, bütün millətləri Mənim şagirdim edin; onları Ata, Oğul və Müqəddəs Ruh adı ilə vəftiz edin”. |
| 5-ci dərs | ***Rəbbin Duası*** “Ey göylərdə olan Atamız…” | 15-ci dərs | ***1Kor.6:19-20*** “Məgər bilmirsiniz ki, bədəniniz Allahdan aldığınız, sizdə yaşayan Müqəddəs Ruhun məbədidir? … Beləliklə, bədəninizlə Allaha izzət gətirin”. |
| 6-cı dərs | ***Rəbbin Duası*** “Ey göylərdə olan Atamız…” | 16-cı dərs | ***Mark 12:30-31*** “Allahın Rəbbi bütün qəlbinlə, bütün varlığınla, bütün düşüncənlə və bütün gücünlə sev”. İkincisi də budur: “Qonşunu özün kimi sev”. Bunlardan böyük əmr yoxdur. |
| 7-ci dərs | ***1Peter 2:9*** “Siz seçilmiş nəsil, Padşahın kahin dəstəsi, müqəddəs millət, Allaha məxsus olan xalqsınız. Sizi qaranlıqdan Öz heyrətamiz nuruna çağıran Allahın çox gözəl işlərini elan etmək üçün seçilmisiniz”. | 17-ci dərs | ***Mark 12:30-31*** “Allahın Rəbbi bütün qəlbinlə, bütün varlığınla, bütün düşüncənlə və bütün gücünlə sev”. İkincisi də budur: “Qonşunu özün kimi sev”. Bunlardan böyük əmr yoxdur. |
| 8-ci dərs | ***1Peter 2:17*** “Hamıya hörmət edin. İmanlı bacı-qardaşları sevin, Allahdan qorxun, padşaha hörmət edin”. | 18-ci dərs | ***1Peter 5:7*** “Bütün qayğı yükünüzü Ona ötürün, çünki O sizin qayğınıza qalır”. |
| 9-cu dərs | ***1Peter 2:21*** “Məsih də sizin üçün əzab çəkdi və sizə nümunə oldu ki, siz də Onun izi ilə gedəsiniz”. | 19-cu dərs | ***1Peter 4:10*** “Hər kəs Allahın çoxcəhətli lütfünün yaxşı idarəçiləri kimi aldığı ənama görə bir-birinə xidmət etsin”. |
| 10-cu dərs | ***Matta 5:44*** “Düşmənlərinizi sevin, sizi təqib edənlər üçün dua edin”. | 20-ci dərs | ***1Peter 5:10-11*** “Siz qısa bir müddət əzab çəkdikdən sonra sizi İsa Məsihdə Özünün əbədi izzətinə çağırmış, hər cür lütf verən Allah Özü sizi bərpa edəcək, möhkəmlədəcək, qüvvətləndirəcək və sarsılmaz təmələ oturdacaq. Qüdrət əbədi olaraq Onun olsun! Amin”. |